

Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 02 (65) 2020

**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Məsul katib:** Saleh Aslanov
**Tərcüməçi-redaktor:** Günel Yusifi
**Texniki redaktor:** Raman Dadaşov

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi, 5.
Telefon: (+99412) 505-78-19
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Universal Poliqraf" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA


**RƏSMİ GUŞƏ**

Azərbaycanın pravoslav xristian icmasına....5

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik....6

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....7

"Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı....8

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı....9

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik....10

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib....11

Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib....11

**ARAŞDIRMA**

*Qəmər xanım Cavadlı* – Qeyri-səmavi dinlərin fəlsəfi görüşlərində müasir bioetika məsələlərinə münasibət....12

*Aytək Məmmədova* – Hilmi Ziya Ülkən İbn Ərəbinin fəlsəfi təlimi haqqında....18

*Zaur Əliyev* – Albanlar, yoxsa ermənilər....25

*Фарида Мир-Багирзаде* – Александр Македонский в истории и изобразительном искусстве и связанные с ним символы....34

**CƏMİYYƏT VƏ DİN**

*Elvüsal Məmmədov* – Əxlaqi-mənəvi dəyərlər və qloballaşma....41

*Şükür Əndəlifov* – Yəhudilikdə məbəd anlayışı....48

*Yeganə Mirzəyeva* – Qurani-Kərim müstəvisində könüllülük məsələsinə kiçik baxış....54

*Самира Мир-Багирзаде* – Азербайджан, как неотъемлемая часть исламской цивилизации....61

**ŞƏXSİYYƏTLƏR**

*Afaq İmanova* – Şərq fəlsəfəsinin dühası....69

*Elnur Mustafayev* – Əhməd bəy Ağaoğlunun İslamda mehdilik inancı ilə bağlı dini-fəlsəfi düşüncələri....74

**TARİXƏ PƏNCƏRƏ**

*Turan Babaş* – İkinci Dünya müharibəsi illərində Azərbaycanda siyasi-ideoloji mühit....83

*Fəxrəddin Səfərli* – Şeyx Xorasan Xanəgahı: Hürufiliklə bağlı mərkəz kimi....94

*Ş.Nəcəfov, D.Kiriçenko* – Əziztəpənin torpaq qəbirləri *(Qazax rayonunun Qazaxbəyli kəndində 2019-cu ildə aparılmış arxeoloji xilasetmə işləri)*....103



**www.scwra.gov.az**
**e-mail: redaksiya@scwra.gov.az**

# Azərbaycanın pravoslav xristian icmasına



Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, müxtəlif xalqların və dinlərin nümayəndələri əmin-amanlıq, mehriban qonşuluq, qarşılıqlı etimad və anlaşma şəraitində yaşayırlar. Dərin tarixi köklərə malik tolerantlıq ənənələrimizin qorunub saxlanılması, multikultural dəyərlərə söykənən ictimai münasibətlərin təbliği və təşviqi Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindən biridir.

Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət-din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə özünəməxsus yeri olan pravoslav xristianlar ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesinin fəal iştirakçılarıdır.

Əziz həmvətənlər!

Builki Pasxa bayramı bütün dünyanı bürümüş təhlükəli epidemiyanın bəşəriyyəti təhdid etdiyi bir vaxta təsadüf edir. Əminəm ki, üzləşdiyimiz qlobal bəla ilə mübarizədə həmvətənlərimiz yüksək məsuliyyət, həmrəylik və mütəşəkkillik nümayiş etdirəcək, xalqımız bu çətin sınaqdan da uğurla çıxacaqdır.

Yeniliyin, dirçəlişin, birlik və bərabərliyin rəmzi sayılan nurlu Pasxa bayramı günündə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 aprel 2020-ci il.

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 may 2020-ci il.

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda mövcud olan mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların, fərqli konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yanaşı yaşamasının bariz nümunəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün möhkəm bünövrə rolunu oynayan etnik-dini rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 iyun 2020-ci il.

# "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1416) 1-ci hissəsində "85" rəqəmləri "88" rəqəmləri ilə, "89" rəqəmləri "91" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 iyul 2020-ci il.

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416; 2018, № 2, maddə 190) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 10.3-cü bəndinin birinci cümləsində “üç” sözü “dörd” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 iyul 2020-ci il.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı İslam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 iyul 2020-ci il.

# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Uca Tanrı etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin, bütün insanlara sağlamlıq və səadət, dünyamıza əmin-amanlıq və xoş günlər bəxş etsin!".

# Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Qurban bayramı münasibətilə xalqımızı təbrik edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Əziz həmvətənlərim!

Mübarək Qurban bayramı münasibətilə sizə səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm! Bu əziz bayram günlərində bütün xeyirxah dua və niyyətlərinizlə həmrəy olduğumu bildirir, hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, sevincli günlər və xoşbəxt gələcək arzulayıram!".

# QEYRİ-SƏMAVİ DİNLƏRİN FƏLSƏFİ GÖRÜŞLƏRİNDƏ MÜASİR BİOETİKA MƏSƏLƏLƏRİNƏ MÜNASİBƏT

***Qəmər xanım CAVADLI,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini,*
*filologiya üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *qeyri-səmavi dinlər, bioetika problemləri, Hinduizm, Konfutsilik, Daosizm, Buddizm.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *неавраамические религии, проблемы биоэтики, индуизм, конфуцианство, таоизм, буддизм.*
***KEY WORDS:*** *non-Abrahamic religions, problems of bioethics, Hinduism, Confucianism, Taoism, Buddhism.*

Qeyri-səmavi dinlər kateqoriyasına daxil olan bütün dünya dinlərinin təsnifatını aparmaq və ya onların bioetika problemlərinə münasibətini təfərrüatlı şəkildə araşdırmaq bir qədər çətindir. Bu, ilk növbədə, mövzuya aid mənbələrin azlığından irəli gəlir. Lakin əlimizdə olan informativ materiallar çərçivəsində Hinduizm, Konfutsilik, Daosizm və Buddizmin təməl əxlaqi və tibbi fəlsəfəsində bioetika problemlərinin əksini ekskurs şəklində izləyə bilərik.

Hindistanda intensiv terapiya yalnız böyük şəhərlərdə mövcuddur, buna görə də tibbin hüquqi və etik tərəfləri barədə mübahisələr geniş təşəkkül tapmamışdır. Nəzərdə saxlamaq lazımdır ki, Hinduizm mərkəzləşdirilmiş din olmadığından, yerlərə bağlı olaraq müxtəlif təfsir, rəy və fəaliyyətlər ola bilər. Hinduistlər və siqhlər bir-birindən çox fərqlənsələr də, həyata baxışlarında oxşar bir cəhət var: hər ikisi karmaya inanır. Karmaya görə, insanın bütün niyyət və əməllərinin nəticələri olur – yaxşı karması olanlar yaxşı yaşayır və ölür, pis karma isə bunun əksi şəklində təzahür edir. Hinduizm ölümü inkar edir, onlara görə, ölüm başqa bir substanta keçiddir, lakin qəfil ölüm böyük bədbəxtliyin göstəricisidir. Həmçinin, insanın necə ölməsinin də bəlli bir mənası vardır. Yaxşı ölüm – insanın yaşlı vaxtında, bütün vəzifələrini yerinə yetirərək və yaxınları ilə vidalaşaraq həyatdan ayrılması deməkdir. Pis ölüm isə - vaxtsız, qəfil, təcavüz nəticəsində, evdən və Qanq çayı sahilindən uzaqda, qan, möhtəviyyat və ifrazat içərisində, hətta nalayiq sözlər söyləyərək ölən insanın acı sonudur. Bu mənada, intensiv terapiya şöbələrində insanın ölməsi pis ölümlər kateqoriyasına aiddir.

Adətən hinduistlər xəstənin reanimasiyasına icazə vermirlər; ölüm sakit olmalıdır, süni şəkildə davam etdirilən həyatın heç bir mənası yoxdur. Evtanaziya qəbul edilmir, lakin bəzi mənbələrdə qəribədir ki, "əgər imkan varsa, orqanların köçürülməsinə müsbət yanaşılır" ifadəsinə də rast gəlinir *(Firth S. 2005. End-of –life: a Hindu view. Lancet 366:682-686).* Hətta 1860-cı ilin ingilis Cinayət Məcəlləsinə görə, Hindistanda evtanaziya qeyri-qanunidir, lakin hinduist cəmiyyətlərində intihar ənənəsi hələ də mövcuddur. Belə ki, ölümcül xəstə ölümü

mənəvi təmizlik vasitəsi hesab edərək özünə sui-qəsd edə bilər, lakin çalışmalıdır ki, pis ölümün əlamətləri – möhtəviyyat və sairə olmasın.

Eyni zamanda, Hinduizmdə uşaq saldırma (abort) yasaqdır, belə bir iş görən qadın mənsub olduğu kastadan xaric edilir. Hinduizmin müqəddəs kitablarından olan Atharvavedaya görə, uşaq saldırmaqdan daha böyük günah yoxdur. Qeyd etmək lazımdır ki, eyni görüşlər Zərdüştiliyə də məxsusdur.

Ənənəvi Çin mədəniyyətində formal bioetikanın elementlərini tapmaq daha çətindir. Qədim Çində etika təlimləri əsasən Li Er və Konfutsi fəlsəfəsindən irəli gəlmişdir. Li Er hesab etmişdir ki, insanları, həmçinin özünü tanımaq və öz qüsurlarını aradan götürməyi bacarmaq lazımdır. Məşhur filosofa görə, xoşbəxtlik və bədbəxtlik müəyyən şəraitlərdə baş verir, insan öz davranışında müəyyən ölçü və meyar gözləməlidir və yalnız bu halda xoşbəxtliyin bədbəxtliyə keçməsinin qarşısı alına bilər.

Konfutsiyə görə isə insan öz həyatında düzgün prinsiplərə əməl etməsə, ondan müsbət heç nə gözləmək olmaz. Böyük alim göstərmişdir ki, insanpərvərlik, nəciblik və humanistlik mənəvi dəyərlərdir, bu dəyərlər ilk növbədə atalar və oğullar, qardaşlar və bacılar, yoldaşlar və dostlar arasında bərqərar olmalıdır. Elə buna görə də Konfutsi qeyd etmişdir ki, özünə arzu etmədiyini başqasına da arzu etmə.

Çinin yaşlı əhalisi daha çox Buddizmə və Daosizmə ibadət edir. Bunun əksinə olaraq, gənc nəslin təxminən 60 faizi özünü ateist hesab edir, Konfutsilik isə özündə daha çox əxlaqi dəyərləri birləşdirdiyinə baxmayaraq, ümumiyyətlə, din sayılmır. Təbii ki, belə qarışıq cərəyanlar və fəlsəfələr rəylərin müxtəlifliyinə və ziddiyyətlərə yol açır. Konfutsiliyə görə, ölüm o halda yaxşıdır ki, insan özünün dünya həyatındakı bütün mənəvi borclarını ödəmişdir; əgər insan ölümlə, xəstəliklə mübarizə aparır, intensiv terapiya üçün müraciət edirsə, deməli, həmin şəxs hələ mənəvi borclarını tam ödəməmişdir.

Daosizm iki hissəyə - fəlsəfi və dini dünyagörüşünə ayrılır. Fəlsəfi Daosizmə görə, ölümü təbii hal kimi qəbul etmək, süni şəkildə həyatın uzadılmasına müdaxilə etməmək lazımdır. Dini Daosizm isə hesab edir ki, ölümdən sonra insanın axirətdəki həyatı və əzabları başlayır, buna görə də daosist öz həyat varlığını uzatmaq üçün bütün mümkün vasitələrdən istifadə etməlidir. Çin fəlsəfəsində ölüm mövzusu üzərində daimi tabu var – həkim xəstənin ölümcül vəziyyəti barədə nə onun özü, nə də xəstə yaxınları ilə danışa bilər. Həkimin vəzifəsi xəstəyə ümid verməkdir, çünki hesab olunur ki, ümid xəstənin ölüm qorxusunu yüngülləşdirə bilər. Sosioloji tədqiqatlar göstərir ki, Çində yaşlı nəsil xəstəlik və ölüm haqqında qərar verməkdən imtina edir. Belə hallara da rast gəlinir ki, pasiyent özü evtanaziyanı seçmiş, lakin onun övladları qəti şəkildə bunun əleyhinə olmuşlar. İntensiv terapiya həmin xəstəyə ağır iztirab versə də, övladlarının bu qərarında dini bir motiv olmuşdur ki, valideynə sağ ikən ehtiram göstərmək olar, ölüm bu ehtiramın kəsilməsi deməkdir. Bəzən fərqli görüşlərə də rast gəlinir. Məsələn, Tayvanda aparılan tədqiqatlarda belə məlum olmuşdur ki, onkoloji xəstələrin ailədən öncə öz vəziyyətləri barədə həkimdən məlumat almaq istəyi yüksəkdir. Honkonqda evtanaziya qeyri-qanunidir, Çində isə evtanaziya həm həkimlərin, həm də hüquqşünasların sevmədiyi mövzudur. İlk evtanaziya hadisəsi Çinin həyatında böyük rezonansa və qalmaqala səbəb olmuş, Ali Məhkəmənin həmin

həkimi cinayət məsuliyyətindən azad etməsi isə ictimaiyyəti ciddi qəzəbləndirmişdir.

Rəsmi tibbi dairələrdə və Səhiyyə Nazirliyində beyin ölümü və fəsadları mövzusu geniş müzakirə olunur, diaqnostik kriteriyalar müəyyənləşdirilir. Çin həkimlərinin böyük əksəriyyəti beyin ölümünü letal ölüm faktı kimi qəbul etmir. Üstəlik, Konfutsilik və Daosizmdə orqanların köçürülməsi (transplantasiya) ilə bağlı heç bir konkret təlimat mövcud deyildir.

Qeyri-səmavi dinlər içərisində Buddizmin bioetika problemlərinə münasibəti daha geniş aspektdə işıqlandırıldığından bu dinin postulatları üzərində dayanmalı olacağıq. Şərq etik fikrində Buddanın (Siddhartha Qautama) xüsusi yeri olmuşdur. Onun təliminə əsasən, insanın davranışı, əməlləri, hətta mənəvi xəzinəsi olan ruhi dünyası hər kəsə aid olan və hər kəsin başa düşdüyü xeyirxahlıqlardan ibarət olmalıdır. Buddizmə görə, əsas xeyirxahlıqlar bunlardır: həyatın mənasını dərk etmək, yalan mühakimələrdən uzaqlaşmaq, başqasına xətər yetirməmək, əxlaq sərhədlərini gözləmək, öz iradəsini başqasına diktə etməmək, ehtirasları boğmağı bacarmaq.

Təqribən 2500 il əvvəl ilahi təkamül yoluna ayaq basan və bizim eradan əvvəl 480-ci ildə vəfat edən Budda əsasən bir ideyanı – mənəvi əzablardan qurtulma yolunun etirafdan keçməsi fikrini təbliğ etmişdir. Buddist təliminə görə, əzabların varlığı və onlardan qurtuluş ruhun möhkəmliyi ilə ölçülür. Əslində, Buddizmin məsləhətləri insanın dərin əxlaqa və mənəvi aləmə sahib olması üçündür. Bu dinin etikası mahiyyət etibarilə üçlü xarakter daşıyır: etika, meditasiya və müdriklik. Bütün məsuliyyət və seçim haqqı insanın öz üzərindədir. Buddizmdə qadağa və nəsihət yoxdur, insan özü özünü dəyişdirməli və mükəmmələşdirməlidir [1].

Buddist etikasının təməlində təmənnasızlıq (altruizm) və mərhəmət durur. Bu təlimin davamçıları 5 (beş) əsas qaydaya əməl etməlidirlər. Maraqlıdır ki, buddist monaxları 200-dən çox əxlaq qaydasına riayət etməli olduqları halda, dünyəvi buddistlərin cəmi beş qadağa ilə kifayətlənmələri kafi hesab olunur: insan və heyvanların canına qəsd etmək; oğurluq etmək; sərxoşluq etmək; yalan, yanlış və boş sözlər danışmaq; zina etmək qadağandır.

Buddistlərin insan həyatına verdikləri dəyər əsasında onların bioetikaya və biotexnologiyalara olan münasibətlərini müəyyən etmək olar. Bu təlimə görə, insan həyatı bütün digər prioritetlərdən daha önəmlidir. İnsanın dünyaya çətinliklə, sancılarla gəlişi ona "sansara"nın məngənəsindən xilas olmağa imkan verir. "Sansara" və ya "samsara" (ing. "*round of rebirth*" – *keçid*, *yenidəndoğum ardıcıllığı*) hərfi mənada "sonsuz, əbədi dərbədərlik" mənasındadır. Bu anlayışla canlı varlığın gah yüksəyə qalxdığı, gah da uçuruma düşdüyü ruhi dünya başa düşülür. Bu, sonsuz şəkildə davam edən doğulma, qocalma, əzab və ölüm proseslərinin simvolik şəkildə göstərilməsidir. "Sansara" dxarmik dinlərin əsas anlayışlarından biridir.

İnsanların əhəmiyyətli hissəsi ruhların köçməsinə inanır. Onlar o ideyanı bölüşdürürlər ki, həyat – sadə təbiətdə maddələr mübadiləsindən, mövcudatdan daha yüksək səviyyədə təkrarlanan yenidən doğuluş zənciridir. Hindistanda bu dövranı "Sansara çarxı" adlandırır və onu insandan başqa heç bir digər canlının qıra bilməyəcəyi tilsimli dövr kimi təsəvvür edirlər. İnsan isə yalnız öz ağlı, dərrakəsi ilə bu dövrü qıra və maddi dünyanın qoyduğu bütün məhdudiyyətlər torundan azad ola bilər.

“Sansara” – hər saniyə dəyişən beş məcmunun kombinasiyasının bölünməz zənciridir və bu fasiləsiz dəyişiklik zənciri sonsuz uzun müddət ərzində baş verir. Budda deyirdi ki, birinci anı - zəncirin başlanğıcını görmək mümkün deyil. Bir həyat “Sansara” zəncirinin cüzi bir hissəsidir. Əzabla bağlı həqiqəti bütöv miqyasda dərk etmək üçün təkcə bu kiçicik fraqmenti deyil, “Sansara”nın daha böyük hissəsini görmək lazımdır. Fəlsəfi məktəblərdə “Sansara” qeyri-əlverişli vəziyyət hesab edilir və insanın daima ondan çıxmağa can atması tələb edilir.

Bioloji baxımdan rüşeym spermatozoidin yumurtalıqla birləşməsindən əmələ gəlir, lakin Buddizm iddia edir ki, həmin məqamda mütləq olaraq üçüncü element - şüur kontinuumu (fasiləsizlik) da iştirak edir. Münbit genetik vəziyyətdə rüşeymi qoruyub saxlayan məhz həmin psixomental şüurdur. Budda bu barədə belə deyir: “Monaxlar, üç element birləşəndə həyatın başlanğıcı yaranır. Əgər ata və ana birləşirsə, lakin ananın müddəti uyğun deyilsə və yeni həyat doğumu üçün lazım olan elementlər yoxdursa (qadxabba), bu zaman həyat başlanğıcı olmayacaqdır... Həyat yalnız üç element birləşəndə yaranır: ata və ananın birləşməsi, analıq məqamının uyğunluğu və həyat varlığının ruhi iştirakı sayəsində” (*Suttapitaka, Lahhqula-nikya, I, 265-266, Kanon pali*) [1].

Ölüm anında fiziki elementlərin bərk, maye, istilik və hava şəklində əriyib parçalanması başlayır. Bərk element mayeyə keçir, maye isinir, istilik isə havada dağılır. Ölən şəxs bütün bu fiziki dəyişiklikləri hiss edir – ağırlıq, müqavimət gücünün itməsi, sanki suya düşmə... Kliniki ölümü tədqiq edən amerikan və fransız həkimləri belə qənaətə gəliblər ki, insan kliniki ölümün üç günü ərzində fiziki olaraq şüur kontinuumunu saxlaya bilir.

Buddizmə görə, insan təkcə bioloji varlıq və ya iki nəfər tərəfindən yaradılan canlı deyil, o, həm də psixofiziki tamlığa malikdir və əməllərinin varisliyini daşıyır. Varislik və mühit insan həyatına çox ciddi təsir göstərir, hətta həyatın buna əsasən determinasiya olmasına baxmayaraq, insan öz yolunu seçmək və dəyişdirmək imkanına malikdir. Bu əsas prinsiplər üzərində buddist tibbi etikasının postulatları qurulur.

*Evtanaziya* – mürəkkəb və incə mövzudur, passiv və aktiv evtanaziya seçimindən asılı olaraq, ona münasibət də fərqlidir. Ölümü tezləşdirən aktiv evtanaziya, həmçinin təcavüzün bir forması sayılan intensiv terapiya Buddizmə görə, yolverilməzdir. Ölüm mahiyyət dəyişikliyidir, sakit və dinc olmalıdır. Özünün və ya başqasının həyatına qəsd etmək çox mənfur hərəkətdir. *Rüşeym* müqəddəsdir və insanın varlıq potensialının daşıyıcısıdır. Buna görə də *abort* ölüm cinayətinə bərabər tutulur. *Kontrasepsiya* vasitələrindən prezervativlərin istifadəsinə icazə verilir. *Sterilizasiya* məsləhət görülmür. İn-Vitro üsulu süni mayalanmaya gəldikdə isə, Buddizm hesab edir ki, doğum prosesi müxtəlif vasitələrlə baş tuta bilər. Embrion – həyat rüşeymidir, buna görə də onun bir insan qədər mühafizəyə ehtiyacı vardır. Həm təbii, həm də süni vasitələrlə dünyaya gələn uşaqlar bütün hallarda bərabər hüquqlara malik olmalıdırlar. *Orqanların və toxumaların transplantasiyası* məsələsinə etik baxımdan yanaşılmalıdır. Bu, bir şəfqət aktı və yaxınlarına yardım məqsədilə edilən töhfədir.

Son zamanlar Buddizm Qərb mədəniyyətinə aktiv şəkildə inteqrasiya olunur, buna görə də Buddanın ənənəvi tərəfdarları bioetika problemlərinə baxışlarını modernləşdirmişlər. Bu, məsələn, evtanaziya, orqan transplantasiyası və başqa məsələlərə qarışıq münasibətlərdə

nəzərə çarpır. Bu səbəbdən, Ümumdünya Səhiyyə Təşkilatının həkimlərə məsləhəti odur ki, Buddizmin yayıldığı ərazilərdə pasiyentlərin bu və ya digər tibbi metodlara münasibətini birbaşa öyrənsinlər, çünki buddistlər heç də hər yerdə vahid olmayan düşüncə və rəy sahibidirlər.

## ƏDƏBİYYAT


1. Буддизм и биоэтика. (Проект: образование) Рос. Комитет по биоэтике при UNESCO / 16.12.2009.
2. Дубровская О. Древние религии мира. М.: 2003.
3. Кочетов А.Н. Буддизм. Изд. 2-е. М.: Наука, 1983.
4. Мамедов В., Мамедов Р., Мустафаева А. Религиозные учения и морально-правовые критерии биоэтики / 29.11.2011. www.ihr-az.org
5. Права человека и профессиональная ответственность врача в документах международных организаций. К.: Ассоциация психиатров Украины, 1996.
6. Роджерс К., Хикмен К. Религии мира (пер. с англ.) М.: 2003.
7. Точка зрения основных мировых религий на решения, касающиеся окончания жизни в отделении интенсивной терапии (Пер. с англ. Intensive Care Med (2008)
8. «Чжуд-ши» - Памятник средневековой тибетской культуры. Новосибирск: Наука, 1988.

Гамар ханум Джавадлы

# ОТНОШЕНИЕ К СОВРЕМЕННЫМ БИОЭТИЧЕСКИМ ПРОБЛЕМАМ В ФИЛОСОФСКИХ МИРОВОЗЗРЕНИЯХ НЕАВРААМИЧЕСКИХ РЕЛИГИЙ ВОСТОКА

## РЕЗЮМЕ

Трудность классифицирования неавраамических религий и исследование их отношения к биоэтическим проблемам заключается, прежде всего, в проблеме, связанной с недостаточностью источников на эту тему. Но в контексте некоторых информационных материалов мы можем наблюдать отношение индуизма, конфуцианства, таоизма и буддизма к современным проблемам биоэтики, и провести экскурс по фундаментальной этической и медицинской философии данных религиозных мировоззрений.

Gamar khanim Javadli

# ATTITUDE TO MODERN BIOETHICAL PROBLEMS IN PHILOSOPHICAL WORLDVIEWS OF NON-ABRAHAMIC RELIGIONS OF THE EAST

## SUMMARY

The difficulty of classifying non-Abrahamic religions and the study of their attitude to bioethical problems lies primarily in the problem associated with the insufficiency of sources on this topic. However, in the context of some informational materials, we can observe the attitude of Hinduism, Confucianism, Taoism and Buddhism to contemporary problems of bioethics, and give an insight into the fundamental ethical and medical philosophy of these religious conceptions.

# HİLMİ ZİYA ÜLKƏN İBN ƏRƏBİNİN FƏLSƏFİ TƏLİMİ HAQQINDA

*Aytək MƏMMƏDOVA,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*a.z.m-9@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Hilmi Ziya Ülkən, İbn Ərəbi, fəlsəfə, sufizm, din.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Хильми Зия Улькен, Ибн Араби, философия, суфизм, религия.*
***KEY WORDS***: *Hilmi Ziya Ulken, Ibn Arabi, philosophy, sufism, religion.*

Türkiyənin böyük mütəfəkkiri Hilmi Ziya Ülkənin (1901-1974) yaradıcılığında fəlsəfə tarixi, xüsusilə Şərq fəlsəfəsi tarixi mühüm yer tutur. O, Şərq peripatetizmi, işraqilik və başqa fəlsəfi təlimlər barədə məsələləri geniş şəkildə araşdırmışdır. H.Z.Ülkənin dini-fəlsəfi təlimlər, həmçinin bu təlimlərin görkəmli nümayəndələri haqqındakı fikirləri də orijinallığı baxımından diqqəti cəlb edir. Burada həm sxolastik, həm də mistik cərəyanlar araşdırılır.

O, İslam fəlsəfəsinin ən orijinal cəbhəsinin təsəvvüf olduğunu yazaraq, onun ancaq sufilik ilə “incə, sənətkaranə bir intuisiyaya, dərin dünyagörüşünə, öz xarakterinə uyğun bir əxlaq sisteminə çatdığını” göstərmişdir [1, s.26].

Hilmi Ziya Ülkən böyük sufi filosof Mühyiddin Məhəmməd ibn Əli ibn Ərəbinin (1165-1240) fəlsəfi təlimindən də bəhs etmişdir. O, İbn Ərəbinin təliminin formalaşmasında Quranın, neoplatonizmin, peripatetizmin, işraqiliyin, ilk sufilərin və Həllac Mənsurun kəlamlarının başlıca qaynaqlar olduğunu, İslam aləmindəki yəhudi filosoflar İbn Qabirol və İbn Məymunun da onun dünyagörüşünə təsir etdiyini bildirmişdir. Mütəfəkkir bu təsirləri göstərdikdən sonra yazmışdır: “Bu baxımdan Mühyiddin sisteminə mistik fəlsəfənin vücuda gətirdiyi ən geniş sinkretizm təcrübəsi deyə bilərik. Fəqət bu qədər geniş bir sintezi təmsil edən bu əsərə Plotin və Leybnitsdə olduğu kimi fəlsəfə kimi deyil, ifadəsi fəlsəfi olan teosofiya kimi baxmaq daha doğru olar” [2, s.243].

İbn Ərəbinin tutduğu yol ilə Qərbdə antroposofiya və teosofiya adlarıyla tanınan dini-mistik təlimlər arasında böyük psixoloji yaxınlığın olduğunu göstərən Hilmi Ziya Ülkən hər ikisinin əqli metodları aşaraq mistik intuisiya yolunu üstün tutduğunu bildirir.

İbn Ərəbinin fəlsəfəsini “əzəli an fəlsəfəsi” kimi dəyərləndirən Ülkən yazır ki, bu yanaşmaya görə, zaman, müddət və dəyişmənin yeri yoxdur. Çünki bunlar aləmdə gördüyümüz aldadıcı kölgələrdir. Hadisələr zamanda qeyri-müəyyən bir gələcək olmadığıdan, öncədən görülməyəcək heç bir şey yoxdur. Hər an digər an ilə eynidir. Varlıq “əzəli bir hal”dadır. Hadisələrdə gördüyümüz dəyişmə görünüşdə meydana çıxan sirrin bu tək anından ibarətdir.

İbn Ərəbidə ən yüksək dərəcə sevgi məqamıdır. Hər şeyin zühuru ilahi sevginin əseridir. Sevgi varlığın mahiyyətidir. Məhəmmədin məqamı bütün insanların məqamlarından yüksəkdir. Zühur eşq ilə olduğu kimi vüsal da ilahi eşq ilədir. Fəqət Həllacda və Mövlanada olduğu kimi

vüsal yolu sevgidən ibarət deyildir. Kamil insana yüksəlmək üçün bir çox yollar vardır. Bunlar öncə əqli yəqinlik, sonra vəcd, təsəvvüfi sevinc, intuisiya, hisslər aləmini qavramaq yollarıdır ki, hamısı ilə Allaha çatmaq olur [2, s.249].

İbn Ərəbi fəlsəfi təliminə görə ortodoksal İslam ideoloqlarının tənqid və hücumlarına məruz qalmışdır. Sədəddin Təftazani bir çox səbəbdən İbn Ərəbinin "vəhdəti-vücud"unu inkar etmiş, Əlaəddin Buxari də həmin tənqidləri davam etdirmişdir. Fateh məscidinin vaizi İbrahim Hələbi 1538-ci ildə "Füsus əl-hikəm" əsərinə "Dini qanunun müzəffər olması yolunda mədəniyyətə xidmət" adlı tənqid yazmış, orada bir çox məsələyə toxunmuşdur. Hilmi Ziya Ülkən İbn Ərəbiyə qarşı olan mənfi münasibətə baxmayaraq, sufi mütəfəkkirin Anadoluda böyük etibar və dərin rəğbət qazandığını, bir qisim türk aliminin İbn Ərəbini müdafiə etdiyini bildirmişdir.

Hilmi Ziya Ülkən İbn Ərəbinin mövqeyini müdafiə edənlər haqqında yazırdı ki, Qanuni Süleyman Bədrəddin Simavinin edamından sonra Mühyiddinə qarşı getdikcə şiddətlənən hücumlara cavab vermək üçün filosofu müdafiə hökmlərini bir araya topladı. İbn Kamal İbn Ərəbinin bütün əsərlərinin dini əsaslara uyğun və ona edilən hücumların saygısızlıq olduğunu elan edən bir fətva verdi. Fəqət bu fətvası ona da Osmanlı mədrəsələrində bir müddət şübhə ilə yanaşılmasına gətirib çıxarmışdır.

Hilmi Ziya Ülkən türk mütəfəkkiri Sədrəddin Konəvinin (1210-1274) ustadı İbn Ərəbinin təliminə bağlı olduğunu, onun irsindən təsirləndiyini bildirmişdir. Konəvi ustadı kimi varlığın sonsuz gizlilik (qeybi-mütləq) olduğunu, aləmlərin bu sonsuz gizlidən meydana çıxdığını göstərmişdir. Ülkən Konəvinin İbn Ərəbi kimi aləmlərin açılışında "beş mərtəbə" məsələsini qəbul etdiyini, bir çox əsərində bunun müxtəlif şəkillərdə izahını verdiyini yazmışdır: "Məsələn, "İcazül-Bəyan"da onları: 1. qeybin varlığı; 2. hisslər və görünüşlərin varlığı; 3. insanlıq mərtəbəsi; 4. ruhlar aləmi; 5. lövhi-məhfuz şəklində sıralayıb. Həmin əsərin başqa yerində: 1. ilahi qeyb; 2. izafi qeyb (ruhlar aləmi); 3. hisslər və görünüşlər aləmi (aləm-hiss və şəhadət); 4. görünüşlərə yaxın mərtəbə; 5. birləşdirici aləm: insan şəklində verib. "Nəfəhatül-ilahiyyə"də isə həmin mərtəbələri belə göstərir: 1. qeyb həzrəti; 2. uca ruhlar; 3. birləşdirici orta mərtəbə: insan; 4. misal aləmi (idees); 5. hisslər və görünüşlər aləmi" [2, s.259].

Hilmi Ziya Ülkən İbn Ərəbinin vəlilik və peyğəmbərlik məsələlərinə münasibətini işıqlandırarkən yazır ki, Mühyiddin peyğəmbərlərdə vəlilik (vilayə) məqamının peyğəmbərlik məqamından yüksək olduğunu, vəliliyi meracda təsvir olunan "iki yay" dərəcəsi kimi qəbul edir. Məcazi mənada bu kəlmə Allaha yaxınlaşmanı, iki ox atımı məsafəni, başqa sözlə, iki yayın birləşdiyi yeri ifadə edir. Bununla yanaşı, vəlilik də üç dərəcəyə ayrılır: 1) Özəl vəlilik Mehdidə olur; 2) Ümumi vəlilik İsada olur; 3) İlahi vəlilik Həzrət Məhəmməddə olur. Vəlilik peyğəmbərlikdən üstün tutulmaqla yanaşı, peyğəmbərlərdə vəlilik sifəti olduğu üçün onların fəaliyyətdə yenə üstünlüyünü qəbul etmək deməkdir.

Hilmi Ziya Ülkən İbn Ərəbinin varlıq təlimini izah edərkən yazır ki, aləmin zühurundan öncə varlıq mütləq gizlilik (əl-qeyb əl-mütləq) halında idi. Filosoflar varlığın bu halına təyin edilməmiş (la-taayyun) deyirlər və o, Əhədiyyə (Tək) dərəcəsinə qarşılıqdır. O, bir çox əsərində buna "toplayıcı hazır olma", "mütləq görünməzlik" deyir. İkinci mərhələ İlk təyin edilmədir

(ət-taayyun əl-əvvəl). Bu, zühur və təcəlli mərhələlərinin ilkidir. Görünməz varlığa görə "zahir" (aşkar), ondan sonrakı dərəcələrə görə "batin"dir. Bu mərhələdə Əhədiyyənin vəhdət olduğu və ilk dəfə qüvvənin hərəkətə keçdiyi görünür. Üçüncü mərhələ ikinci təyin edilmədir (ət-taayyun əs-sani). Vəhdət əsas və ya birincilik (vahid), Məhəmmədin həqiqəti insanlığın həqiqəti olmuşdur. Tək, vəhdət və birincilik yaradılmamış, başlanğıcsızdırlar. Zühur mərhələləri "ruhlar aləmi", "fikirlər aləmi", "cisimlər aləmi"dir. Geniş tərkibdə İbn Ərəbi bununla Plotin, Aristotel və Platon fəlsəfələrini birləşdirir. Son mərhələ İbn Ərəbiyə görə, görünməzlik və meydana çıxma dərəcələrinin bütünü, gizli və aşkar olan hər şeyin universal və sonsuz birliyini təmsil edən "toplayıcı hazır olma" dərəcəsidir. O, bütün qüvvələrin hərəkəti və bütün hərəkətlərin qüvvəsidir.

Hilmi Ziya Ülkən İbn Ərəbinin sisteminin çox qarışıq görünsə də, həqiqətdə olduqca bəsit bir neçə əsasa dayandığını yazır. Belə ki, varlıq birdir, fəqət biri gizli, digəri aşkar iki mənzərəsi vardır. Varlığı yalnız görünüşdə görmək doğru deyildir. Aşkar görünənlə bilinir: o zaman ruh və bədəndir. Gizli də gizli ilə bilinir: o zaman birlik elmi də batin elmidir. Bu ikinci qisimdə müşahidə, təcrübə və ağıl sahəsini aşaraq Mühyiddin qeybi elmin sahəsinə daxil edir.

Hilmi Ziya Ülkən İbn Ərəbinin sistemini tamamlamaq üçün fəlsəfə, kəlam, fiqh, hədis, təsəvvüf, şeir və qeybi elmlərdən istifadə etdiyini, sisteminin genişliyi və fikirlərinin müxtəlifliyi baxımından Plotin və Leybnitslə müqayisə edilə biləcəyini yazmışdır.

Hilmi Ziya Ülkən İbn Ərəbinin sistemini "fərqli fəlsəfi sistemlərin və dini cərəyanların dörd yol ayrıcı" kimi dəyərləndirmişdir. Türkiyəli mütəfəkkir bu fikrini belə açıqlayır ki, Şihabəddin Sührəvərdinin işıq və qaranlıq nəzəriyyəsi onun sisteminin təməlini təşkil edir. "Məkkə fəthləri" ("Fütuhat əl-məkkiyə") əsərinin dördüncü cildində bir bölüm "onları qaranlıqlardan işığa çıxardıq" ayəsinin təhlilinə ayrılmışdır. Neoplatonizmdəki kimi, bir ilə çoxluğu uzlaşdırarkən İbn Ərəbi Platon və Aristotel fəlsəfələrini birər həqiqət mənzərəsi olaraq sisteminə daxil etmişdir.

Hilmi Ziya Ülkən İbn Ərəbinin fəlsəfəsinin mərkəzində kamil insan durduğunu və onun da zahir ilə batini (aşkar varlıqla gizli varlığı) birləşdirən nöqtə, körpü olduğunu bildirmişdir [3, s.389]. O, İbn Ərəbinin kamil insanla əlaqədar fikirlərini izah edərkən göstərmişdir: "Mühyiddinin nəzərində insani-kamil bütün ilahi və yaradılışla bağlı (kövni) kitabların mənasını toplamışdır. (bəlkə bu yaxınlarda və ya müasir demək istəyib?) Bir Türk mistikinin dediyi kimi: "Quran Haqqın sözüdür, insan Haqqın özüdür" fikri bu fikrin içərisində heç də mübaliğə sayılmamalıdır. Artıq bundan sonra Mühyiddin İslam əqidəsinin bütün doqmalarını "insani-kamil" fikrinə görə təfsir etmişdir: Uca qələm (qələmi-ala) insani-kamilin ruhudur. Lövhi-məhfuz insani-kamilin qəlbidir. Ərş onun cismidir. Qüdrəti (Kürsü) onun nəfsidir. Bütün bu rəmzlərin Məlami və Bəktaşi şairlərində oynadığı rolun əhəmiyyətini söyləməyə lüzum yoxdur. İnsani-kamilin üstündə (əv ədna) mərtəbəsi vardır. O, həddi zatında insani-kamildən başqa bir şey deyildir. Fəqət onun ən mükəmməl və uca dərəcəsini təmsil edir. Mühyiddinin nəzərində bu mərtəbə yalnız Həzrət Məhəmmədə aiddir. Mühyiddin peyğəmbərlərdə vəlayət (saintete) dərəcəsini nübüvvət (prophetie) dərəcəsinin üstündə görmüşdür" [4, s.229].

Ülkən İbn Ərəbinin fəlsəfəsini bir çox başqa sufilərin təlimlərindən fərqləndirərək geniş bir metafizika kimi dəyərləndirmişdir. Alim İbn Ərəbini Qurana, sufilərin təcrübələrinə, elmə,

əxlaqa, hətta başqa müqəddəs kitablara müraciət edən bir metafizik kimi təqdim etmişdir: "İbn Ərəbinin fəlsəfəsi bütün problemləri Allah məsələsi ətrafında toplayan bir monizmdir, o dərəcədə ki, onda metafizika ayrılmaz bir halda əxlaq və siyasət fəlsəfəsi ilə vəhdət təşkil edir".

Hilmi Ziya Ülkən İbn Ərəbinin çox geniş mənada işlətdiyi varlıq anlayışına mövcudatın mənbəyi kimi yanaşdığını bildirmişdir: "Varlıq gizli bir xəzinənin mərhələ-mərhələ açılışı, sonsuz gizli varlıqdan onun sonsuz imkanlarının bir-bir gerçəkləşməsi, yəni aləmlərin meydana çıxması (zühur) olsa da, bu meydana çıxışda sonradan olmuş heç bir şey yoxdur. Hər şey başlanğıcsız və sonsuz varlıqda həmişə birlikdə vardır" [2, s.245].

Hilmi Ziya Ülkən İbn Ərəbinin Allah ilə kainat haqqındakı fikirlərini araşdırarkən yazır: "Həqiqi varlıq yalnız sonsuz imkanlar sahəsi, batin və qeyb aləmi olan Allahın varlığından ibarətdir. Kainat onun zühuru və təcəllisidir. Bütün görünən və düşünülən aləmlərin kökü olan gizli varlıq nə duyğularla, nə ağılla qavrana bilir. Kainat həqiqi varlığın ötəri kölgəsidir" [2, s.243].

Hilmi Ziya Ülkən İbn Ərəbinin "beş mərtəbə" məsələsini mərtəbələr nəzəriyyəsini açıqlamaq üçün bir yol kimi dəyərləndirmişdir: "Gizli ilə aşkar arasındakı fərq və gizlidən aşkara keçidin anlaşılması bu zaman xarici varlığın düşünülməsindən asılıdır. "Beş mərtəbə"nin ən ali dərəcəsi mütləq görünməz varlığın hazır oluşudur. O, sirdən, gizli xəzinədən, "batin"dən, "qeyb"dən ibarət olan Allahdır. Ən aşağı dərəcəsi duyğular aləminin hazır olmasıdır. Bu, sirlərin ən yüksək formalardan ən bəsit cisim formalarına qədər şeylərdə görünmə yerlərinin olduğu aləmdir. Birincisi qüvvə halında bütün imkanları daşıyan sabit ayinlər aləminə, sonuncusu Ay altındakı dünyaya (Fələki təht əl-Qəməri), yəni mələkut aləminə qarşılıqdır. Biri tam gizli, digəri tam aşkar olan bu iki qütb arasında mütləq görünməz varlığın hazır olmasıdır. Mühyiddin bunun mücərrəd əqllər və ruhlar aləmi olduğunu söyləyir".

Hilmi Ziya Ülkən "insanlar yalnız hisslərə və ya ağıla aid həqiqətləri bildikləri halda, bu kamil insanlara bütün gizli həqiqətlər açılır" yazaraq göstərir ki, Allahın elmi kamil insanın elmidir. Allahın mahiyyəti kamil insanın mahiyyətidir. Fəqət bu birləşmə (ittihad) "hülul"suzdur. Çünki "hülul" və ya "təcəssüd" (yəni bir yerə daxil olma və ya bir cəsədə girmə) öncədən ayrı olan iki varlıq arasında olur. Bu baxımdan Mühyiddinin nəzəriyyəsi hülul, ittihad, varlıqla birləşmə və s. ilə şiəlikdə və bəzi Qərb mistiklərində gördüyümüz görüşdən tamamilə fərqlənir. İbn Ərəbinin varlığın əsl birliyi fikri üzərindəki israrı, təsəvvüf cərəyanlarına aid olan "vəcd" və "eşq"ə az müraciət etməsi, onun sisteminin əqli yəqinliklə panteizmə çatdığını bildirir.

Hilmi Ziya Ülkən "İbn Ərəbinin fəlsəfəsi bir panteizmdir. Fəqət bu kəlməni onda hər yerdə işlətdiyimiz mənada işlədə bilmərik. Çünki o, təbiətlə Allahı bir saymır. Plotin kimi aləmi sonsuz olan ilahi imkanların meydana çıxışı (zühur) olaraq görür" müddəasını irəli sürdükdən sonra göstərir ki, İbn Ərəbi tam panteist deyildir. Filosof bu fikrini İbn Ərəbini Spinoza ilə müqayisə etməklə açıqlayır və Spinozadakı kimi onda da Allahla aləmin eyni olmadığını yazır.

Yeri gəlmişkən, Zakir Məmmədov İbn Ərəbinin panteizminin Spinozanın fəlsəfəsi ilə müqayisəsindən bəhs edərkən bildirir ki, əndəlüslü sufi mütəfəkkirin panteizmi öz məzmununa və ifadə üslubuna görə Kuzalı Nikolayın təliminə daha çox yaxındır. Belə ki, onlar Spinozadan (eləcə də Eynəlqüzatdan) fərqli olaraq, kreatsionizm mövqeyində durmuş və özlərinin panteist təlimlərini bu teoloji əsasda yaratmışlar [5, s.160].

Qeyd etmək lazımdır ki, tədqiqatçıların əksəriyyəti İbn Ərəbinin panteist olduğunu bildirməklə yanaşı, onu panteizmi sistemə salan ilk filosof kimi də təqdim etmişlər. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov isə tədqiqatlarında sufizmin panteist fəlsəfəsini İbn Ərəbidən hələ yarım əsr əvvəl əsaslı surətdə, sistem halında ilk dəfə Azərbaycan filosofu Eynəlqüzat Miyanəcinin (1099-1131) işləyib hazırladığını göstərmişdir [5, s.154].

İmam Rəbbani adıyla tanınan Şeyx Əhməd Faruki Sirhindi (1563-1624) "kainatın həqiqi bir varlığı vardır" müddəasını irəli sürərək, İbn Ərəbinin fikirlərinə etiraz etmiş, gözlərimizə açılan aləmin bir təcəlli, kölgə deyil, həqiqi  varlıq olduğunu söyləmişdir. Onun fikrincə, təsəvvüf ancaq "vəhdəti-şühud" dərəcəsində doğrudur.

Hilmi Ziya Ülkən İmam Rəbbaninin kainatı Allahdan ayrı hesab etdiyini, kainatın ardıcıl görünüşlər və "təcəlli"lər sayəsində Allahın işığı ilə dolu olduğunu, buna görə Rəbbaninin sisteminə ikili (dualist) gerçəklik deyildiyini bildirmişdir [2, s.268].

Bir cəhəti xüsusilə göstərmək lazımdır ki, İmam Rəbbani Yəsəvilik ənənəsinə bağlı olan Nəqşibəndlik təriqətinin nümayəndəsidir. O, Bəhaəddin Məhəmməd Nəqşibəndinin (1327-1389) qurduğu təriqətə yeni fikir gətirmiş və beləcə, onu sufi təşkilatı olmaqdan çıxararaq yeni bir təsəvvüf fəlsəfəsinə çevirmişdir halına çatdırmışdır [2, s.264]. Bununla da İmam Rəbbani "ikinci minilliyin islahatçısı" ləqəbini qazanmışdır [6, s.83].

İbn Ərəbinin əsərləri orta əsrlərdən etibarən Avropa ölkələrinə yayılmağa başlamışdı. Bu baxımdan sufi mütəfəkkirin əsərləri averroizmə qarşı ideya mübarizəsində olan sxolast Raymund Lullinin yaradıcılığına mühüm təsir etmişdir. Məlumdur ki, Raymund Lulli hərbi-zadəgan təbəqəsinə mənsub olmuş, ərəb dilini və İslam aləmində yaranmış fəlsəfi təlimləri öyrənmişdir. Hilmi Ziya Ülkən bu məsələ haqqında yazırdı ki, Raymund Lulli papaya mənəvi xaç səfərləri etməsi üçün iyirmi il israrla müraciət etmişdi. Nəticədə papa onun təşəbbüsünü qəbul etmiş və missionerlik təşkilatının təməli qoyulmuşdur. Bu icazəni alan Raymund Lulli həmin işi bacarmaq üçün ərəbcə öyrənmiş, İslam məmləkətlərində yaşamış, bir çox fəlsəfə və təsəvvüf kitabını latın dilinə tərcümə etmişdir. İbn Ərəbinin "Əsma əl-Hüsnə" əsərini "Allahın yüz adı" kimi latıncaya tərcümə edən Raymund Lulli "Fütuhat"dan da bir çox bölmələrni çevirmişdir.

Görkəmli italyan şairi Aligyeri Dante (1265-1321) də "İlahi komediya" poemasını qələmə alarkən İbn Ərəbinin irsindən bəhrələnmişdir. Dante Məhəmməd peyğəmbərə, İmam Əliyə mənfi münasibət bəsləmiş, onları poemanın "Cəhənnəm" hissəsinin "İyirmi səkkizinci nəğmə"sində günahkar kimi göstərmişdir. Hilmi Ziya Ülkən Dantenin Məhəmməd peyğəmbərə münasibətindən yazarkən poemanın ideya mənbələrini də qeyd etmişdir. O, Dantenin İslamdakı yaradılış və axirət (məbdə və məad) görüşündən, ən əsası da, İbn Ərəbinin "Fütuhat əl-Məkkiyyə"sindən faydalandığını yazmışdır: "Dante "İlahi komediya"nın Cəhənnəm qismində Həzrət Peyğəmbəri yer altının səkkizinci qatında olduqca saygısız bir ifadə ilə təsvir edir. Halbuki, Asin Migel Palasios (1871-1944) bu poema haqqındakı tədqiqatında Dantenin mövzunu, tərkib tərzini, mənəvi merac fikrini tamamilə İbn Ərəbiyə borclu olduğunu göstərmişdir" [2, s.330].

Bir faktı da qeyd etmək lazımdır ki, sufilikdə panteist məzmun hülulilik, ittihadilik ilə

yanaşı, XIV əsrdən etibarən vəhdət əl-vücud (varlığın vəhdəti) termini ilə də ifadə olunmağa başlanmışdır. Ortodoksal İslam ideoloqları İbn Ərəbini və onun ardıcıllarını, habelə İbn Səbin, İbn əl-Fariz və başqa panteist əhval-ruhiyyəli sufiləri dindən uzaqlaşmaqda ittiham etmişlər. İbn Teymiyyə onları "Xaliqin varlığı ilə məxluqatın varlığı artma, çoxalma və fərqlənmə olmadan eyni bir şeydir" tezisini irəli sürməkdə təqsirləndirmişdir [7, s.201].

"Kamil insan" ifadəsini ilk dəfə İbn Ərəbinin işlətməsi ilə məsələsində mübahisə olduğunu yazan Hilmi Ziya Ülkən Şərq fəlsəfəsi tarixi ilə məşğul olanların bu barədə fikirlərini də qeyd etmişdir: Nikolson bu təbiri ilk dəfə işlədənin İbn Ərəbi olduğu və türk təsəvvüfünə onu daxil edənin də yenə İbn Ərəbi ilə birlikdə Mövlana olduğu qənaətindədir. Ancaq həmin ifadənin İbn Ərəbidən öncə mövcudluğunu iddia edənlər də vardır. Belə ki, bəziləri "kamil insan" fikrinin köklərinin maniheizm cərəyanına aid mətnlərdə olduğunu bildirmişlər. Qurandakı "biz əmanəti yerlərə və göylərə göstərdik" və ya "insanı ən gözəl şəkildə yaratdıq" kimi ayələr kamil insan nəzəriyyəsinin islami qaynaqlarıdır. Əbül Əla Afifi isə "kamil insan" fikrinin İbn Ərəbiyə "Saflıq qardaşları" risalələrindən keçdiyini, burada "insani-fazil"in sonradan "kamil" olaraq dəyişdiyini, risalələrdəki bu fikrin köklərinin də şiələrdən gəldiyini iddia edir. Fəqət fazil insan və fazil şəhər sözləri risalələrdən öncə Fərabiyə aiddir. Üstəlik, fazil insan anlayışı ilə "Vəhdəti-vücud" sisteminin təməl daşı olan kamil insan anlayışı arasında əlaqə qurmaq da çox çətindir. Bu məqama toxunan Luis Massinyon "kamil insan" fikrinin İbn Ərəbidə orijinal, tamamilə İslam – sami məad görüşünə bağlı olduğunu, İran kökü ilə əlaqəsi olmadığını iddia etmişdir.

"Kamil insan" ifadəsi haqqında mülahizələri təqdim etdikdən sonra Hilmi Ziya Ülkən də bu məsələyə öz münasibətini bildirir: "İlk şiə qaynaqlarında belə bir fikrə rast gəlinmədiyi halda, sonradan İbn Ərəbinin əsərləri ilə tanış olan şiə filosoflarının onun təsiri altında qaldıqları göründüyü üçün biz də burada Massinyonun fikrinə qoşuluruq" [2, s.285].

"Haqqın elmi insani-kamildir" fikrini təqdim edən türkiyəli alim yazmışdır: "Haqqın Zatı insani-kamilin zatıdır. Fəqət bu birlik ittihadsız və hülulsuzdur. Zira ittihat və hülul ancaq ayrı olan iki mövcud arasında hasil olur. İnsani-kamildəki elm isə yalnız vəhdətin təzahürüdür. Bu etibarla elmi insani-kamildir. Haqqın Zatı insani-kamilin zatıdır. Ancaq "bu birlik ittihatsız və hülulsuzdur" fikri bəzi Qərb mistiklərinin "hülul, ittihad, varlığa qarışmaq" kimi fikirlərindən tamamilə fərqlənir" [4, s.229].

## ƏDƏBİYYAT


1. Ülken Hilmi Ziya. İslam düşüncesi. 4. Baskı. İstanbul: Ülken Yayınları, 2005.
2. Ülken Hilmi Ziya. İslam felsefesi kaynakları ve tesirleri. Ankara: 1967.
3. Ülken Hilmi Ziya. Varlık ve oluş. Ankara: 1968.
4. Ülken Hilmi Ziya. Türk tefekkürü tarihi. 4. Baskı. İstanbul: 2009.
5. Zakir Məmmədov. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı: 1978.
6. Дж. С Тримингэм. Суфийские ордены в Исламе. Перевод с английского под редакцией и с предисловием О.Ф.Акимушкина. Москва: 1989.
7. Zakir Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: 1994.

Айтек Мамедова

## ФИЛОСОФКОЕ УЧЕНИЕ ИБН АРАБИ В ТВОРЧЕСТВЕ ХИЛЬМИ ЗИЯ УЛЬКЕНА

### РЕЗЮМЕ

Философская история, особенно история восточной философии, играет важную роль в творчестве великого турецкого мыслителя Хилми Зия Улькена (1901-1974). Вопросы восточного перипатетизма, ишракизма и других философских учений широко изучались в работах ученого. В исследованиях турецкого ученого широко освещены вопросы суфизма и выдающихся представителей этой доктрины. Хилми Зия также упомянул философское учение великого суфийского философа - Мухиддина Мухаммеда ибн Али Ибн Араба (1165-1240). Он отметил, что Коран, неоплатонизм, перипатетизм, ишракизм, ранние суфийские и суфийские изречения Халладжа Мансура, а также влияние еврейских философов Ибн Габироля и Ибн Маймуна в исламском мире были основными источниками формирования учения. Ибн Араби.   Он тщательно и глубоко и всесторонне исследовал взгляды турецкого ученого Ибн Араби о “совершенном человеке”. В 2020 году исполняется - 855-летие со дня рождения Ибн Араби, а также 780 лет-со дня его смерти.

Aytek Mammadova

## PHILOSOPHICAL TEACHING OF IBN ARABI IN THE WORKS OF HILMI ZIYA ULKEN

### SUMMARY

Philosophical history, especially the history of eastern philosophy, plays an important role in the work of the great Turkish thinker Hilmi Ziya Ulken (1901-1974). Issues of Eastern peripatetism, Ishraqism and other philosophical teachings were widely studied in the works of the scientist. The works of the Turkish scientist widely cover the issues of Sufism and prominent representatives of this doctrine. Hilmi Ziya also mentioned the philosophical teachings of the great Sufi philosopher, Muhiddin Muhammad ibn Ali Ibn Arabi (1165-1240). He noted that the Quran, Neoplatonism, peripatetism, Ishraqism, the early Sufis and Sufi sayings of Halladzh Mansur, as well as influence of the Jewish philosophers Ibn Gabirol and Ibn Maimun in the Islamic world, were the main sources in the formation of the teachings of Ibn Arabi. He carefully, deeply, and comprehensively examined the views of the Turkish scientist Ibn Arabi about the “perfect man”. 2020 is the 855th anniversary of Ibn Arabi’s birth and the 780th anniversary of his death.

# ALBANLAR, YOXSA ERMƏNİLƏR

***Zaur ƏLİYEV,***
*AMEA-nın Elm Tarixi İnstitutu, elmi katib,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,*
*zaur.aliyev@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Albaniya, Ermənistan, kilsə, məbəd, Azərbaycan, abidə, dil.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Албания, Армения, церковь, храм, Азербайджан, памятник, язык.*
***KEY WORDS:*** *Albania, Armenia, church, temple, Azerbaijan, monument, language.*

Güclü tayfa birliyi quran və böyük bir ərazidə yaşayan qarqarlar qədim dövlətimiz Albaniyanın avtoxton xalqlarından sayılır. Bütün qədim mənbələrdə qarqarların əsas mərkəzlərinin Qarabağın Ağdam ərazisi olduğu sübut edilir. Antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsi Qarqarlar ölkəsi adlanıb. Əsasən, indiki Qarqar çayı hövzəsində yaşamış bu tayfa qədim müəlliflərin verdiyi məlumata görə, alban tayfa ittifaqına daxil olub. Qarqarlar haqqında məlumat verən müəlliflər onları Qafqaz Albaniyasının ən qədim və ən iri tayfalarından biri olduğunu, ilk orta əsrlərdə Mil düzünün bir hissəsinə yayıldığını göstəriblər. Burada qarqarların özlərinə məxsus eyniadlı şəhər də mövcud olub.

1917-ci ildə nəşr edilmiş “Rus-Çin lüğəti” adlı kitabda bizi maraqlandıran bir məqam var. Belə ki, burada rus dilindən Çin dilinə “alban” sözünü “Azərbaycan” şəklində tərcümə ediblər. Bu barədə Oljas Süleymanov da öz əsərində qeyd edir [1, s.23-25].

Tarixdən məlumdur ki, Böyük İpək yolu üzərində yerləşən Azərbaycan ərazisindən bir çox dövlətlərin tacirləri və səyyahları keçib gediblər. Çinlilərin qədim salnaməçiləri də səyyah və tacirlərin dediklərini qeydə alaraq bunların əsasında öz əsərlərini yaradıblar. Bu baxımdan, dünyanın qədim tarixinin öyrənilməsi istiqamətində yunan və Avropa alimlərinin yazdıqları ilə yanaşı, ərəb, müasir İran və Çin əlyazmaları da mühüm əhəmiyyət kəsb edir.

Qafqazda yerləşən Albaniya ölkəsini bəzi xalqların adına bağlamağa cəhdlər olub. Məsələn, erməni mənbələri ərəblərə istinadən buranın “əl-Ərmən ölkəsi” kimi yazıldığını iddia edirlər. İbn Xordadbeh, əl-Yəqubi, İbn əl-Fəqih və bəzilərinin əsərlərində adı çəkilən “əl-Ərmən ölkəsi” barədə qeydləri özününküləşdirməyə cəhd edirlər. Lakin bir məqamı unudurlar ki, ərəb müəllifləri Suriya-Sasanilər-Albaniya ərazilərində azsaylı xristian əhali içərisində “hay” adının olmasını da yazırlar. “Əl-Ərmən ölkəsi”nin sakinlərini isə mülayim xarakterə malik türklər adlandırırlar. “Ər-Mən” zamanla fars və ərəb dillərinə deformasiya olunan “Alban, Alpan, Alp, Ər insan” kimi qədim türk sözündən əmələ gəlib. Alp Ər Tonqa adlı türk xaqanının olması göstərir ki, “Alp” və “Ər” sözləri qədim türklərdə titul mənası daşıyıb. Bir çox mənbə ingilis dilində olduğu üçün bəzi ölkələrdə “Ər kişi” (Ar Man) sözü kimi də qəbul edilir. 1846-cı ildə rus şərqşünası M.Yanovskinin tədqiqatlarından sonra Albaniyanın Azərbaycan olduğu bütün dünyaya bəyan edilib. Onun bu mövqeyi B.Dorn tərəfindən də qəbul olunub. Beləliklə,

Albaniyanın "Qafqaz Azərbaycanı" olması təsdiqlənib. Məsələn, XII əsr müəllifi Mxitar Qoş Rəvvadilər, Səlcuqlar, Atabəylər dövrü hadisələrindən danışarkən ölkəni yenə də Albaniya, əhalini isə azərbaycanlılar kimi qeyd edib.

Professor Zaza Aleksidzadə yazır: "V əsrin 10-cu illərində Mesrop Maştos tərcüməçi Beniaminin köməyi ilə alban əlifbası yaratdı. Çar iqamətgahı ərazisində (Faytakaran-baylakan) yaşayan əhali vahid ədəbi dil norması kimi qəbul edilmiş qarqar dilində danışırdı". Deməli, Qafqaz albanları qarqarlardan törəyib və qarqar dilində danışıblar. V əsrdə yaranan alban əlifbası məhz qarqar dilində tərtib olunub. Qarqarlar isə amazonlarla qonşu idilər və Azərbaycanın ilkin sakinləri hesab edilə bilərlər [2, s.106]. Mxitar Qoşun "Törə bitiyi" kitabında deyilir: "Alban əlifbası məhz qarqar (qıpçaq) dili əsasında yaradılıb və bu işdə qarqar Beniaminin böyük rolu var".

Fransız şərqşünası Ejen Bore Qafqazda bu sahədə tədqiqat aparıb və bu günə qədər öz sənədlərini üzə çıxarmayan ermənilərin məşhur Matsenadaran arxivində çalışandan sonra etiraf edib ki, ona alban dilini erməni dili kimi qələmə verməsi üçün təzyiq göstəriblər, lakin o, bunu etməyib. Bore 1838-ci ildə Fransa Elmlər Akademiyasına ünvanlandığı bir məruzəsində bildirirdi ki, əlyazmaların birində o, alban əlifbasını aşkara çıxarıb. Onun yazdığına görə, bu əlifbanın erməni əlifbası ilə heç bir əlaqəsi yoxdur.

Alban dili yeni minilliyin başlanğıcında başqa türk etnoslarının dili ilə qaynayıb-qarışma nəticəsində formalaşmış Azərbaycan türk dili idi. Tədqiqatçılar alban dilinin mənşəyini izah etmək üçün saysız-hesabsız toponim və antroponimlər üzərində etimoloji araşdırmalar aparmış və etnonimlərin etimoloji izahını vermişlər. Müasir dilimizin spesifik fonetik, leksik və qrammatik xüsusiyyətləri, əlbəttə, onun xalis oğuz mənşəli olmasını sübut edir. Lakin unutmaq olmaz ki, Azərbaycan dili təkcə oğuz dilləri qrupu əsasında formalaşmayıb və formalaşa da bilməzdi. Hələ bu gün də dilimizdə qıpçaq və qismən də karluk-uyğur qrupu dillərinin elementləri qalmaqdadır. Məşhur şərqşünas V.V.Bartold yazır: "Azərbaycan ərazisində qarqar toponimləri çoxdur. "Qarqar" və ya "Karkar" toponimi geniş işlənmə arealına malik olub. Alban dili məhz qarqar dili əsasında formalaşıb. Qarqarlar Qarabağ ərazisində yaşayan böyük tayfa idilər və onların əsas şəhəri Ağdam idi. Burada Beniamin qarqar alban əlifbasını yaradıb. Danışıq dili əsasında formalaşan ilk əlifba Albaniyada danışıq və yazıda istifadə edilib". Bütün bunlar təsdiqləyir ki, bu dövr Albaniyada yazının, maarifin, məktəbin inkişaf etdiyi dövrdür. Bu barədə 1854-cü ildə Venesiyada dərc edilən yazıda qeyd edilir: "...Sonra o (Beniamin), Alban ölkəsinə yollandı, onların əlifbasını dəyişdirdi (yenilədi), tədrisatı bərpa etdi..."

O da faktdır ki, qıpçaq-qarqar dili Albaniyanın ədəbiyyat və dövlət dili funksiyasını yerinə yetirib. Doğrudur, əski rus-sovet elmindən gələn ənənəyə əsaslanaraq, bir çoxu qarqarları qafqazdilli xalq hesab etməkdədirlər. Azərbaycanın aborigen tayfalarının - kutilər, lullubilər, sular, turukkilər, kaslar, kaspilər, mağlar, utilər, mannalılar, madalılar, albanlar, saklar, skiflər və kimmerlərin mənşəyi qəsdən dolaşdırılır, ümumxalq Azərbaycan dilinin, şifahi və yazılı ədəbi dilimizin təşəkkül tarixi qəsdən gizlədilir.

Lakin faktlar tamam başqa şeyi diktə edir. Belə ki, gürcü alimi İ.V.Abuladze 1937-ci ildə Matedaranda tədqiqatlar apararkən XVI əsrə aid bir ermənidilli əlyazmada 52 hərfli alban

əlifbasına rast gəldiyini qeyd edir. Bu əlifbanın udi əlifbası olduğunu iddia edənlər də var. Fəqət tarixi mənbələr alban yazısının udi dili əsasında deyil, qarqar-qıpçaq dili əsasında yaradıldığını söyləməyə imkan verir və bu, mübahisəolunmaz faktdır. Üstəlik, bu gün elmə məlum olan qıpçaq dillərindən heç birində 52 səs yoxdur.

E.ə. IV əsrdən eramızın VII əsrinədək dövlətə, ən geci V əsrdən isə yazıya sahib albanlarla kiçik bir tayfa olan udilərin eyniləşdirilməsi heç bir məntiqə sığmır. Tarixçilərin qeyd etdiyi kimi, Qafqaz dillərindən, daha dəqiq desək, Nax-Dağıstan dillərindən heç biri Azərbaycan ərazisində heç vaxt ümumünsiyyət vasitəsi olmamışdır.

Albaniyanın mərkəz və aran rayonlarında əsasən türk etnoslar, Dağıstana yaxın ərazisində isə həm də Qafqaz-iberdilli etnoslar yaşayıblar. Albaniyada yerli türk dili ilə yanaşı, digər türk dili ləhcələri də (kanqar, bulqar, peçeneq, heptal/əbdəl və s.) istifadə edilib. Bu qədim və yerli türk ləhcələri tədricən alban (arran) türk dilinin yaranmasına gətirib çıxarıb.

Alban dilində ismin, eynən Azərbaycan dilində olduğu kimi, 6 halı olub. Yiyəlik hal şəkilçilərinin "-inq", "-ınq", yönlük hal şəkilçilərinin "-gə", "-ğa", təsirlik hal şəkilçilərinin isə "-nqi", "-gi", "-nqı", "ğı" olduğu məlumdur. Digər hal şəkilçiləri bunlardır: "-də", "-tə", "-da", "-ta" (yerlik hal) və "-dən", "-tən", "-dan", "-tan" (çıxışlıq).

Miqdar sayları: bir, eki, üç, dört (tört), beş (biş), altı, yeti, sekiz (saqiz), doquz, un (on).

Sıra sayları: burungi, ekinçi, üçünçü, törtünçü, bişinçi, altınçı və s. [p2, s.21]

Antik mənbələrdə, Herodot və Strabonun əsərlərində amazonların Qafqazdakı Keravn dağlarında yaşaması və baharda (Novruz bayramında) dağlardan enərək Qarqar düzündə qonşu qəbilə qarqarlarla nəsil artırmaq üçün görüşməsi faktı açıqlanır. Keravn (Geranuşe dağı) bugünkü Qarabağdakı Qərvənd-Camış dağıdır [3, 114-cü abzas].

Strabon daha əvvəlki müəlliflərə istinadən yazır: "Skepsisli Metrodor və Hipsikrat, həmçinin bu yerlərlə tanış olanlar məlumat verirlər ki, amazonlar qarqarların qonşuluğunda Kerauniya adlanan Qafqaz dağlarının şimal ətəklərində yaşayırlar" [4, s.477].

Albaniyanın şimal-şərqində qarqar etnonimini özündə daşıyan toponimləri orta əsr ərəb müəllifləri öz əsərlərində qeyd ediblər. IX əsr müəllifi İbn Xordadbeh Qarqar şəhərinin adını çəkib.

Hətta erməni tarixçisi S.T.Eremyan da etiraf edir ki, qarqarların ölkəsi Azərbaycandır. S.V. Yuşkov, K.V.Trever qarqarları alban tayfası hesab etmiş və onların özlərini "qalqay" adlandırdıqlarını yazmışlar.

"Ursi olaraq bütün Alban düzənliyi onun dağlıq hissəsi ilə birlikdə, Araks çayından başlayaraq Hunarakert (Azərbaycanın Gürcüstanla sərhədlərində hun adını daşıyan Hunarakert və Hunan toponimləri erkən orta əsrlərdə artıq mövcud idi) adlanan qalayadək (Ağstafa zonası) Qarqar knyazlığının ərazisi idi" [5, f. I, 4].

Qaynaqlar Qarabağ bölgəsi tayfalarının alban mənşəli, bu ərazinin isə Albaniya dövlətinə məxsus olduğunu göstərir. Bütün müraciət etdiyimiz mənbələr Alban tayfa birliyinin tərkibində xüsusi yer tutan avtoxton türk tayfalarının burada maddi və mənəvi mədəniyyətin yaranması və inkişafında mühüm rol oynadığını təsdiq edir. Beləliklə, antik müəlliflərin məlumatlarına istinad etsək, qarqarları şimal-şərqi Qafqazın düzənliklərində və dağ ətəklərində yayıldıqlarını

demək olar. İlkin orta əsr erməni mənbələrinə əsaslansaq, bu tayfanı Qarabağ düzündə, Kür çayından cənubda və Qarqar çayı hövzəsində lokalizə etmək olar [6, 71-74].

Qarqar etnonimi ilə bağlı coğrafi adlara, yəni Köndələn çaydan şimalda yerləşən Qərqər kəndi, Gədəbəyin yaxınlığında, Zəyəm çayın mənbəyində yerləşən Qərqər adlı yer, Samur çayının mənsəbində yerləşən Qarqar dağı və Qarabağdan başlanğıcını götürən Qarqar çayı kimi toponimlərə istinad etsək, bu tayfanın daha geniş ərazidə-cənub-şərqi Qafqazda, o cümlədən, Qarqar çayı hövzəsinə bitişik olan daha geniş ərazidə yayıldığını deyə bilərik.

Qarqarlar əvvəlcə Albaniyanın şimal sərhədlərində amozonkalarla qonşuluqda yaşayırdılar. Qarqarlarla amozonkaların münasibətləri barəsində bir müəllif fikirlərini vermək yerinə düşər: "Nə zamansa bu yerlərdə qarqar adlı ulu bir el yaşayırdı. Mavi gözlü, qızıl saçlı igidləri özlərinə ər qızlardan istəklilər seçərdi. O qızlar ki, hər birinin daş ürəyi və dəmir mətanəti qədim dünyanı heyrətə salmışdı. Deyilənə görə, Makedoniyalı İskəndər belə çox zaman onlarla üzləşməkdən çəkinirmiş. Kişi tayfasına qənim kəsilmiş bu gözəllər - amazonkalar yalnız qarqar igidlərinə könül verər, öz adətlərinə uyğun olaraq onlara ərə gedərdilər. Doğulan qız uşaqları isə qarqarlara çatırdı". Qarqarlar, eyni zamanda bulqarlar və kəngərlər etnik bir kütlənin soyları olub [6, s.5].

Erməni Qriqoryan Kilsəsi Çar Rusiyasının əli ilə Alban Həvari Kilsəsinin ləğv edilməsinə nail olur. Bu tarixdən etibarən mübarizə erməni və gürcü kilsələri arasında başlayır. Yəni Kilsə ləğv olunanda ona etiqad edənlərin sayı barmaqla sayılacaq qədər idi. Elə bu səbəbdəndir ki, bu addım heç bir ciddi rezonansa səbəb olmadı. Ermənilər XIX əsrin ortalarından etibarən Alban kilsələrini erməniləşdirməyə və bu kilsələri erməni kilsəsi kimi təqdim etməyə başladılar. Alban kilsələri üzərinə erməni xaçının çəkilməsi və erməni dilində məlumatların yazılmasına Erməni Qriqoryan Kilsəsi şəxsən rəhbərlik edirdi. 1988-ci ildən sonra başlanan müharibə təkcə Azərbaycanın qədim torpaqlarının işğalı ilə deyil, milli-mədəni, dini abidə və dəyərlərinin də işğal olunması ilə nəticələndi. Kəlbəcər, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl və digər bölgələrimizdə yaşı mindən çox olan Alban monastırları ermənilər tərəfindən kilsə elan edilərək "özününküləşdirildi".

Ermənilər, makiavellist yanaşma ilə bir sıra siyasi hesablardan ötəri albanların mirasına sahiblənməyə çalışıblar. Bu, xüsusilə erməni tarixçilərinin ermənilərin tarixin ilk xristian dövlətini qurduqları iddiasına xristian dünyasından dəstək ala bilmələri üçün tətbiq olunan strategiyadır [7, s. 68] .

Bu dəstəklə qonşu ölkələr diplomatik və siyasi təzyiq altında tutulmağa çalışılmış, beləcə, ermənilər tərəfindən albanların məhv edilməsindən 1990-cı illərdə Azərbaycan torpaqlarının işğal edilməsinə və bir milyondan çox azərbaycanlının qaçqın vəziyyətinə düşməsinə qədər ermənilər tərəfindən edilən vandal hərəkətlər ilk xristian dövlət mifologiyasının dumanlı pərdəsi arxasında ört-basdır edilməyə çalışılmışdır [8].

Ermənilərin indiki vaxtda qonşularına istiqamətli işğalçı siyasəti əsasən Ermənistan adının tarixi tərifi ilə də yaxından əlaqəlidir. "Ermənistan/Armenia" adının sərhədləri naməlum olmaqla yanaşı, Şərqi Anadolu və Cənub-Qərbi Qafqazı əhatə edən, daxili bütövlüyü olmayan coğrafiya kimi tarixdə geniş şəkildə istifadə edildiyi bilinir. Özünə "hay" deyən, "Hayk/Haik"

adlı bir atadan törədikləri əfsanəsini yaşadan və bu gün dünyanın erməni adlandırdığı millətin tarixdə coğrafi termin olaraq istifadə olunan Ermənistan/Armenia adı ilə heç bir əlaqəsi yoxdur. Bölgədə uzun illər hakimiyyət quran Assuriya, Midiya, Fars, Part yazıları ilə Ksenofonun "Anabasis"i və Strabonun "Coğrafiya"sında "hay"dan və "yüksək ölkə" mənasını verən "Hayastan"dan bəhs edilməməkdədir [9].

Ermənistan adı ilə tanınan bölgənin yerli xalqlarından olmayan və bölgə ilə əlaqədar ən qədim mənbələrdə adı keçməyən hayk tayfası daha sonra bölgənin tarixi adını etnik kimlik olaraq mənimsəmişdir [10, s.17-18]. Bənzər şəkildə, zamanla "erməni" adını alacaq olan hayk tayfası qriqoryan inancına sahib hər bir cəmiyyəti ermənilik naminə sahiblənərək bu cəmiyyətlərin sahib olduğu siyasi, iqtisadi və mədəni dəyərləri də mənimsəmə strategiyası seçmişdir. Beləcə Xristianlıq və ona bağlı olan qriqoryan etiketi erməni kimliyinin aparıcı elementinə çevrilmişdir. Bu mənada erməni tarixçi Pastırmacıyanın erməni kilsəsi haqqında dediyi sözlər ("Erməni millətinin can verilən ruhunun yenidən dünyaya gəlmək üçün yaşadığı bədəndir") Ermənistanda dinin milliyyətin formalaşması prosesində rolunu daha dəqiq ifadə etdir.

Ermənilər bütün dünyaya albanlara məxsus monastırları öz kilsələri kimi təqdim edirlər. Bu kimi onlarla erməniləşdirilmiş kilsə və monastır göstərmək olar. Mila Avraam "International Society Projects"-də yazır ki, əgər Gürcüstanda əvvəlcə katolikos Kirion, sonra da Xəzər türkləri və Bizans imperatoru İrakli sayəsində gürcülər erməni keşişlərin həyasızlığını dəf etmişdilərsə (o zamanda xəzərlər Tiflisi ələ keçirərək oradakı bütün pars hakimiyyətini məhv etmişdilər), Alban Kilsəsinin taleyi daha faciəli oldu. Gürcü Kilsəsindən fərqli olaraq, Alban Kilsəsi Qafqaz Albaniyasında "eyni dindənik" deyərək albanları erməniləşdirməyə çalışan erməni keşişlərin təzyiqlərindən azad deyildilər.

Tarixə nəzər salsaq, görərik ki, Azərbaycanda alban kilsələrinə qarşı ermənilərin işğalçı hücumları üç dövrə bölünür. Əlbəttə, Azərbaycanda qədimdən ermənilərin yaşaması fikri absurddur. Bu fikir rus və erməni müəllifləri tərəfindən tariximizə soxuşdurulan yalan informasiyadır. Əsl həqiqətdə isə ermənilərin Qafqazda güc əldə etməsi tarixi Səfəvilər dövründən başlanır. Bu dövrlərə nəzər salaq:

1) Səfəvilər dönəmində alverdən çox böyük gəlirlər əldə edən erməni tacirlərinin maliyyələşdirdikləri erməni kilsəsinin hücumlarına, təzyiqinə, təbii ki, heç bir siyasi gücü olmayan albanlar davam gətirə bilməzdilər.

2) İkinci dövr Rusiya və Sovet imperiyaları dövründə başlandı. Rusların təzyiqi ilə Alban kilsələrinin idarəçiliyi ermənilərin əlinə keçdi və nəticədə Alban Həvari Kilsəsi ləğv edildi.

1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban patriarxat kilsəsinin ləğv olunmasına və onun mülklərinin erməni kilsəsinə verilməsinə nail oldular. Bir qədər sonra keçmiş Alban dövlətinin qərb əraziləri, daha dəqiq desək, Qarabağ regionu ermənilərin XIX əsrdə davam edən məskunlaşma siyasəti nəticəsində dövlətçiliyini və dini müstəqilliyini itirdi və həmin yerlərin əhalisinin qriqoryanlaşdırılması, yəni erməniləşdirirməsi prosesi başlandı. Bu açıq həqiqət hələ XIX əsr də bəlli idi. Məşhur rus tarixçisi V.L.Veliçko

yazırdı: "Səhvən erməni adlandırılan, əslində isə erməni-qriqoryan təriqətini qəbul edən və yalnız üç-dörd əsr əvvəl erməniləşmə prosesinə qədəm qoyan əhali müstəsnalıq təşkil edirdi" [11, s.10].

Bunu erməni müəllifi B.İşxanyan da təsdiq edərək yazırdı: "Dağlıq Qarabağda məskunlaşmış ermənilərin bir qismi yerli olub qədim Alban xalqının nəsilləri, bir qismi isə Türkiyə və İrandan qaçmış, təqib və təzyiqlərdən sığınacaq tapmış erməni əhalisidir". Ermənilər Zaqafqaziyaya köçürülərkən onların harada yerləşdirilməsinə xüsusi diqqət yetirilib. A.S.Qriboyedov yazırdı: "Rus ordusunun tutduğu rayonlardan - Təbriz, Xoy, Salmas və Marağadan bütün erməniləri Naxçıvan, İrəvan və Qarabağ vilayətlərinə köçürmək lazımdır. Qriboyedovun bu tövsiyəsinə əməl edilib. Şavrov isə öz əsərində qeyd edirdi ki, ermənilər erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirildi. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ nəzərdə tutulur) və Göyçə gölünün sahillərində bu ermənilər məskunlaşdırılıb. Beləliklə, ermənilərin köçürülməsi ilə adları çəkilən ərazilərin etnik tərkibi dəyişdirilməyə başlandı.

1836-cı ildə ermənilər mərkəzi Gəncəsər olan müstəqil Alban Kilsəsinin ləğv edilərək Eçmiədzinə tabe edilməsinə nail olduqdan sonra 1910-1911-ci illərdə müqəddəs Rusiya Sinodunun dini arxivlərdəki "lazımsız sənədlərin məhv edilməsi" qərarı adı altında Alban Kilsəsinə məxsus dini və tarixi əsərləri məhv etdilər. Məhz yuxarıda göstərilən səbəblər nəticəsində alban yazısı və geniş yayılmış ədəbiyyatı tədricən aradan çıxıb [12, s. 221-225].

Uzun müddət ərzində alban əlifbasının, yazısının olmasını təsdiq edən və onun haqqında ümumi anlayış verən heç bir inandırıcı sənəd tapılmayıb. Nəhayət, 1937-ci ildə bu sahədə elmi cəhətdən qiymətli kəşf filologiya elmləri doktoru, professor, erməni dili mütəxəssisi İ.V.Abuladzeyə müyəssər olub. Gürcü alimi İ.V.Abuladze Matsenadaranda işləyərkən alban əlifbasının 7117 saylı əlyazmasını XV əsrə məxsus əlyazmanın içərisində aşkar edib.

XIX əsrin əvvəllərindən Cənubi Qafqazda kütləvi şəkildə kök salan ermənilər Alban mədəniyyətinin bu nümunələrindən dərhal yararlanmağa başladılar. Onlar qədim xalq obrazı yaratmaq, bununla da ermənilərin digər xalq və millətlərdən daha üstün olduqlarını nümayiş etdirmək üçün öz mədəniyyətlərinin, dini rəmzlərinin və xaçlarının təkmilləşdirilməsi ilə məşğul olmağa başladılar [13, s.69].

3) Qərbi Azərbaycanın və Qarabağın işğalından sonra ermənilər ələ keçirdikləri monastırları açıq-aşkar erməniləşdirdilər.

İlk hədəf isə Qarabağ və Qərbi Azərbaycan ərazisində olan Alban dövrü xaç rəmzlərinin ya tamamilə məhv edilməsi, ya da formalarının dəyişdirilməsi üçün çoxsaylı layihələrə külli miqdarda pulların ayrılması oldu. Sovet dövründə isə nəinki Qarabağ və Qərbi Azərbaycan ərazilərində olan, hətta harada Alban kilsəsi varsa, orada olan Alban xaçlarını erməniləşdirməyə başladılar. Onlar təkcə bu xaçları dəyişməklə kifayətlənməyib divarlarda erməni dilində yazılar da yazmağa başladılar. Misal üçün, iki il öncə Kəlbəcər ərazisində baş verən hadisə ermənilərin iç üzünü ortaya qoydu. Kəlbəcər ərazisində Alban xaçları ilə bəzədilmiş kilsəni erməni monastırı kimi təqdim edən ermənilər bununla kifayətlənməyərək, abidənin daşları üzərinə erməni əlifbası ilə sözlər yazaraq bunu guya əsrlər öncəyə aid yazı kimi təqdim etməyə cəhd göstərdilər. Lakin

onların hazırladığı sosial çarx Albaniya tarixi ilə məşğul olan ruslar tərəfindən ifşa edildi. Alban-udi xristian icmasının sədri Robert Mobili bununla bağlı açıqlamasında bildirir ki, “Onlar Alban mədəni irsi və udilərə məxsus abidələri saxtalaşdıraraq erməni kilsələri kimi təqdim edirlər. Ermənilər kilsələr üzərindəki yazıları və xaçları dəyişdiriblər. Bu açıq-aydın görünür. Alban kilsələrinin xaçları fərqlidir” [14].

Alban xaçı dünyada yeganə xaçdır ki, Xristianlığa qədərki inancların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Bu xaçların bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq, nur və məhsuldarlıq simvolu kimi əks olunmuşdur. Bütün alban yazılı daşlarının üzərindəki Xristianlığaqədərki inancların və kainat qüvvələrinin qanunauyğun şəkildə yerləşməsi ilə dini-bədii qanunlara tabe olunmuş özünəməxsus təsvirlər təşkil edir ki, bu da başqa xalqların xaç təsvirlərində yoxdur [15, s.3].

Alban dövrü abidələrində, xüsusilə xaçdaşların dekorundakı bədii kompozisiyalarda Xristianlığın simvolu olan xaç təsvirləri ilə yanaşı, türk etiqadları, dünyagörüşü, sənət ənənələri və mədəniyyətinə məxsus müxtəlif elementlər müşahidə olunur. İngilis şərqşünası və arxeoloqu K.Vilson qədim İran mədəniyyətindən danışarkən göstərir ki, “... əldə edilən məlumat və nişanələr deməyə əsas verir ki, daha qədim mədəniyyət mərkəzi Azərbaycan olmuşdur” [16, s.63]. Çünki alban xaçları üç yarpaqlıdır və “gül-yarpaq” xaçlar növünə aid edilirlər. Bunlara müəyyən ədəbiyyatda “liliyaflüor” xaçı da deyirlər və bu xaçların qol-qanadlarındakı “üçlük” albanların qədim inanclarını (Günəş, Ay və Od) təsbit edir [17, s.56-68]. Lakin Qaliçyanın göstərdiyi nümunələrin hamısı vaxtilə albanlar yaşayan arealdan götürülüb (Tiflis ətrafı, İran Culfası), sonralar isə kiçik dəyişikliklərlə erməniləşdirilib.

Oxşarlıq məhz oğurluğun törəməsidir. Ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində xaçdaşlarının istehsalı ilə məşğul olmaları, ilk baxışdan Xristianlığın təbliği kimi görünsə də, əslində, bu prosesin gedişi Azərbaycan torpaqlarının erməniləşdirilməsinə xidmət edir. Onlar sadəcə, heç bir bədii məna kəsb etməyən cansıxıcı erməni xaçdaşlarının yeniləşdirilməsi işlərindən cana doyaraq, son zamanlar Alban xaçdaşlarının bədii nümunə və ornamentlərindən istifadə etməyə başladılar. Bu yolla ermənilər, çoxlu sayda Alban xaçdaşının dekorativ tərtibatı ilə eyni olan (yalnız bu daşların ornament və bəzəklərində dəyişiklik edərək) oyma və qabartma üsulu ilə xaçdaşları, başdaşları və nişan daşları yonaraq Azərbaycanın işğal olunmuş ərazilərinin müxtəlif yerlərində, bir zamanlar regionun istirahət mərkəzləri olmuş ərazilərində, yol kənarlarında, bulaqların ətraflarında, yaşayış mərkəzlərinin baxımlı yerlərində, bağlarda, parklarda, memarlıq abidələrinin üzərində, qəbiristanlarda və s. yerlərdə kütləvi şəkildə yerləşdirirlər.

Beləliklə, alim mütəxəssislər alban xaçdaşlarını bədii tərtibatı və özünəməxsus təsvir xüsusiyyətlərinə görə dörd qrupa bölürlər ki, bunlar da Xaçın, Artsak, Cuğa və Yenivəng xaçdaşlarıdır. Bu alban xaç daşlarını araşdıran mütəxəssislər belə nəticəyə gəliblər ki, həmin xaç daşları qədim antropomorf incəsənət əsərlərindən əmələ gəlib. Ümumiyyətlə, ermənilər Qarabağ zonasında aşkara çıxarılan xaçdaşlarına daim sahiblənməyə çalışıblar. Belə daşları onlar fürsət düşdükcə oğurlayaraq Eçmiədzinə aparıblar. Artsak xaç daşı kimi tanınan belə daşlar Ağdərə, Şuşa, Xocalı, Tərtər, Gədəbəy və başqa ətraf rayonlarda aşkar edilib. Alimlər

onların arasında 1633-cü ilə aid xaçdaşını ən maraqlı nümunə hesab edirlər. Həmin xaçdaşı SSRİ vaxtında qanunsuz şəkildə Azərbaycandan Ermənistanın Eçmiədzin şəhərinə aparılıb və indi orada saxlanılır.

## ƏDƏBİYYAT


1. Олжас Сулейменов. Литература – это жизнь: о литературе и литераторах. Алматы: Издательский дом “Библиотека Олжаса”, 2011 г.
2. Zaza Aleksidze. Qafqaz albanları dilləndilər. “Artanuci”, 2003.
3. Herodot. Tarix, IV kitab, 114-cü abzas.
4. Страбон. География / Пер. с др.-греч. Г.А.Стратановского под ред. О.О.Крюгера, общ. ред. С.Л.Утченко. 2-е изд., репр. М.: Ладомир, 1994, 944 с.
5. Moisey Kalankatuklu. Albaniya tarixi. Bakı: 1993.
6. Bəxtiyar Tuncay. Qərbi Azərbaycandakı kilsələri albanlar tikib, Üç nöqtə.-2016.-21 sentyabr-№ 167.-S.5.
7. З.И.Ямпольский. Две заметки к трактовке Страбонова текста об Азербайджанской Албании // Изв. АзФАН, № 7, 1942.
8. Mahmut Niyazi Sezgin. Anadolu Türklüğünün Kayıp Halkası: Gregoryen Türkler // “2023 Dergisi”, Kasım sayı 15, 2005.
9. Erich Feigl. Ermeni Milli Kilisesinin Zaferi ve Trajedisi. Ermeni Araştırmaları, Sayı 2, Haziran-Temmuz-Ağustos 2001 / http://www.eraren.org/index.php?Lisan=tr&Page=DergiIcerik&IcerikNo=211
10. Erdal İlter. Ermenistan Adı, Menşei ve Bazı Ermeni İddiaları Üzerine. Ermeni Araştırmaları, Sayı 6, Yaz 2002 / (http://www.eraren.org/index.php?Page=DergiIcerik&IcerikNo=153
11. Bilal Dedeyev. Dağlık Karabağ Sorunu’nun Tarihi Arka Planına Bakış. Karabağ Savaşı: Siyasi, Hukuki, Ekonomik Analiz. Der. Osman Nuri Aras. Bakü: “Qafqaz Üniversitesi Kafkasya Araştırmaları Enstitüsü Yayınları”, 2008.
12. В.Л.Величко. Кавказ. Русское дело и междуплеменные. Тифлис: 1886.
13. N.Ə.Alışov. Azərbaycan Respublikasının qərb bölgəsinin xristian abidələri və onların öyrənilməsinin əhəmiyyəti // “Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irs, tarix və memarlığı. 27-28 oktyabr 2010. Azərbaycan, Şəmkir-Gədəbəy. Beynəlxalq elmi konfransın materialları”. Bakı: “Çaşıoğlu”, 2012.
14. Д.И.Протопопов. Обьяснение всеносного бдения и литургии. Москва: “Изд. Ступина”, 1908.
15. http://femida.az/az/news/23452
16. А.Шанидзе. Новооткрытый алфавит Кафказских Албанцев и его значения для науки. Изв. НЯМИК. Груз. ФАН ССР, Т.4,1938 с.
17. К.М.Алиева. Тебризская ковровая школа XVI – XVII вв. Баку: «Элм», 1999.

Заур Алиев

# АЛБАНЦЫ ИЛИ АРМЯНЕ

## РЕЗЮМЕ

Кавказская Албания, также известная как Алванк на армянском языке, Ардхан на Партианском, Арран на персидском и Аль-Ран на арабском, была древним царством, существовавшим на территории современной Азербайджанской Республики и южного Дагестана. Название «Албания» является латинским и обозначает «гористую землю». Родное название для страны неизвестно. Современные азербайджанцы склонны рассматривать древних албанцев как корень своей национальности. Царство Кавказская Албания (Агбания, Агвания) было основано в конце 4 - начале 3 века до нашей эры. Албанцы впервые упоминаются в 331 году до нашей эры в битве при Гаугамеле как участники из сатрапа Медия. Части Кавказской Албании, включая Утик на правом берегу реки Куры были завоеваны армянами, в I веке до н. э.

Zaur Aliyev

# ALBANIANS OR ARMENIANS

## SUMMARY

Caucasian Albania, also known as Alvank in Armenian, Ardhan in Parthian, Arran in Persian, and Al-Ran in Arabic, was an ancient kingdom, which existed on the territory of present-day Republic of Azerbaijan and southern Dagestan. The name “Albania” is Latin, and denotes “mountainous land”. The native name for the country is unknown. Modern Azerbaijanis tend to regard ancient Albanians as the root of their nationality. The kingdom of Caucasian Albania (Aghbania, Aghvania) was founded in the late 4th - early 3rd century BC. Albanians are mentioned for the first time in 331 BC at the Battle of Gaugamela as participants from the satrapy of Media. Parts of Caucasian Albania, including Utik on the right bank of the Kura river were conquered by the Armenians, in the 1st century B.C.

# АЛЕКСАНДР МАКЕДОНСКИЙ В ИСТОРИИ И ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ И СВЯЗАННЫЕ С НИМ СИМВОЛЫ

***Фарида МИР-БАГИРЗАДЕ,***
*Доцент по эстетике, доктор философии по искусствоведению, ведущий научный сотрудник отдела «Изобразительные, декоративно-прикладные искусства и геральдика» Института Архитектуры и Искусства НАНА*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *полководец, победитель, стратег, эпос, история, искусство, культура, миссия, иллюстрации, миниатюра.*
***KEY WORDS:*** *commander, winner, strategist, epic, history, art, culture, mission, illustrations, miniature.*
***AÇAR SÖZLƏR:*** *sərkərdə, müzəffər, strateq, dastan, tarix, incəsənət, mədəniyyət, missiya, illüstrasiyalar, miniatür.*

Об Александре Македонском написано немало научных трудов и мифов, как в истории, так и в искусстве. Его имя было известно в древнем мире. Великий поэт Низами Гянджеви в эпопее «Хамсе» (пятерицы) посвятил одну из глав «Искендер-наме» подвигам Александра Македонского, которая состоит из первой части - «Шяряф-наме» («Книга славы») и второй части «Игбал-наме» («Книга судьбы»). Низами Гянджеви описывает его качества полководца с младенчества.

По одной версии, о происхождении Александра Македонского говорится, что он является не родным сыном Филиппа. Филипп нашёл его под снегом вместе с трупом матери. Согласно второй версии, во дворце у Филиппа была женщина, которую он любил, от которой у него родился сын. Для воспитания Александра ему нашли лучших философов, среди которых был и Никомах, отец Аристотеля. Главным занятием Александра Македонского было военное искусство. В эпопее «Искендер-наме» описываются походы Александра: на племя Зинджей Зандзибараз, затем его войну с иранским царём Дарием, который властвовал тогда в Македонии. Кровопролитная война велась вокруг рек Евфрат и Тигр в Месопотамии. Смертельно раненный в кровопролитной войне царь Дарий в плену полководца, оставил ему три завещания: 1) осудить предателей, которые могут предать и Александра; 2) благосклонно отнестись к иранской феодальной знати для укрепления власти в стране; 3) он дал добро на замужество своей дочери Ровшаны с Александром Македонским. Таким образом, Александр становится царём – освободителем Ирана. Из Ирана Александр поворачивает в сторону Чёрного моря и освобождает Абхазию, Грузию и едет к Каспийскому морю. Проезжая через Мугань, он узнаёт, что это - Бардинское царство, во главе которого была женщина - царица Нушаба. В её царстве и дворце, в

гвардии, служили женщины-амазонки. Александр был гостем у умной царицы Нушабы. После полководец освобождает Дербент и его крепость. Затем он переходит через Иран в Индию и освобождает индийский народ от царя злодея Кейта. Очередным его походом становится Китай, в котором он побеждает китайского хагана. В первой части «Шяряф-наме» эпопеи «Искендер-наме» Низами Гянджеви описывает состязание китайских и македонских художников. Увидев мастерство китайцев и две одинаковые копии работ, Александр Македонский оставляет македонских художников учиться мастерству в Китае. После Китайского похода Александр посещает страну русов (территория нынешней Сибири), в которой господствовала свобода, братство, равенство: очень сильное влияние оказали работы и идеи Платона об идеальном государстве. Здесь Низами Гянджеви выражает идеи трудовой коммуны. Последний поход Александр совершает в царство вечной тьмы за живительной водой, которая находится в подземном царстве. Живительная вода придаёт вечность. Это легенда, полная фантастики и мистики. Александр едет туда со своим двоюродным братом Хизром. С полдороги Александр возвращается, а Хизр доходит до живительной воды и приобретает вечность. В устном народном творчестве рассказывается о Хизре – пророке вечности (Хизр-Ильяс). В Азербайджане, на территории района Хызы расположена величественная гора Бешбармаг (Пять пальцев), которую называют Хызыр Зиндж в честь пророка Хизр, на вершине которой находится источник воды. С именем пророка Хызыр (Хизр) названо и Каспийское море, что на азербайджанском языке означает Хазарское море (Хязяр денизи).

Во второй части «Игбал-наме» («Книга судьбы») эпопеи «Искендер-наме» Низами Гянджеви повествуется о государственном правлении Александра Македонского. По возвращении из своих походов, он производит реформы, меняет форму правления. В его дворце к службе привлекались талантливые люди, несмотря на их происхождение. Это были военные люди, мудрецы-философы, старцы-отшельники и старцы предсказатели. Александр Македонский превратил свой дворец в храм науки, в котором устраивал диспуты благодаря греческим философам. У него остаётся единственный сын Александроз. Трон предлагают его сыну, но он отказывается от него, потому что считает себя недостойным.

«По сути, Александром было предпринято нечто невиданное раньше: попытка создать империю, которая объединила бы Запад и Восток. Судя по всему, первоначально Александр был вдохновлён идеей своего учителя Аристотеля - создать под эгидой эллинской культуры великое всемирное государство, но постепенно его замыслы изменились. Александр видел свою миссию не в отмщении персам за все войны и поругание греческих святынь, но в том, чтобы создать новый мир, который не разделялся бы на эллинов и варваров, где, по словам Плутарха, столицей и Акрополем был бы лагерь Александра, все добрые люди считались бы гражданами, а все другие – чужестранцами. Идея невероятная по своему масштабу и практически невыполнимая даже сейчас – братство людей, общество, построенное по принципу *гомонойи*, или «согласия сердец». Позднее эта идея будет выражена и развита стоиками: «Все люди – граждане мира. Мир для всех один, - скажет основатель стоической философии Зенон» [1, с.15].

Александр Македонский был великим стратегом и умным политиком. В отрывке эпоса Абулькасима Фирдоуси «Шах-наме», когда Искендер приходит в страну брахманов, передаются его личные качества, как мудреца:

«Вот из своих пределов, как орёл,
Взмыл Искендер, опять войска повёл,
И он в страну брахманов прибыл вскоре.
Его влекло к себе познанье море.
Сказал брахман: «О властелин-мудрец !
Всем одарил тебя благой творец.
Ты, словно солнце, разумом сияешь.
Что не избегнуть смерти нам, ты знаешь.
Что ж ты возжаждал мир завоевать,
Войн ядовитым воздухом дышать ?!
Умрёшь – твоя десница всё утратит
И враг плоды трудов твоих захватит.
Зачем ты страшной тяготой такой
Обременился? Где он - разум твой?
Безумие – в юдоли нашей бренной
Надеяться на этот мир мгновенный!»
Ответил шах: «Я – раб, и не дано
Мне преступить, что небом решено.
Я преступил бы, будь я в состоянье,
Неведомое мне предначертанье.
Всё решено заранее. Никому
Не обойти, что суждено ему.
Не мной, а грозной волей провиденья
Убиты были павшие в сраженье.
Кто осуждён судьбою, тот падёт.
Насильник от возмездья не уйдёт.
Они не жертвы моего удара.
Постигла их божественная кара.
Йездан велик. Мы все - его рабы.
И никому не скрыться от судьбы!»
Потом брахманов щедро одарил он,
Но в их стране недолго прогостил он.
Обиды никому не причинил
И вдаль стопы на запад устремил» [1, с.286]

В эпосе поэта Абулькасима Фирдоуси «Шах-наме» («Книга царей»), состоящем из 55 тысяч бейтов (двустиший) передаются реальные события и легенды, основанные на пребывании в Иране Александра Македонского. Этот эпос повествуется по

трём направлениям: мифологически, героически и исторически. Данная рукопись, содержащая 215 иллюстраций, является одним из крупнейших художественных циклов «Шах-наме» («Shahnama»), персидской Книги королей. В оформлении её иллюстраций принимали участие несколько работающих в разное время художников, поэтому миниатюры не являются однородными по стилю. Можно определить четыре различные группы иллюстраций, где две старейшие относятся к XVI веку. Миниатюры первой группы являются крупномасштабными композициями с множеством фигур, выполненными в мельчайших деталях с использованием очень ярких цветов. Иллюстрации второй группы отличаются более низким качеством, в отношении композиций и рисунков фигур. Третья группа состоит из двух полномасштабных иллюстраций в стиле двора Исфахана, которые были добавлены в начале XVII века. Четвертая группа объединяет миниатюры, казалось бы, не связанные с иранской традицией, и, возможно, имеет индийское происхождение. Некоторые из лучших иллюстраций в этой рукописи, вероятно, были сделаны при дворе султана Ибрагима Мирзы в Мешхеде перед 1565 г. «Шах-наме» («Shahnama») была составлена в конце X века поэтом Абулькасима Фирдоуси (около 940-1020 гг.). Этот любимый национальный эпос представляет собой героическое повествование о доисламской Персии, начиная с мифического начала до арабского нашествия в VII веке. Эти легенды являются частью иранской самобытности. В миниатюрах из иранской рукописи «Шах-наме» Фирдоуси «Искандер в битве с драконом» и «Бой Искендера с драконом» (1330-1340 гг.) наглядно передаются в центре миниатюры героический характер полководца, сражающим на белом коне с драконом и его солдатами.

В тебризской миниатюре «Искендер (Александр) и дерево Солнца и Луны» (1330-1340-е гг.) к «Шах-наме» А.Фирдоуси, выполненной акварелью, позолотою и чернилами повествовалось об одной легенде, где говорится о встрече Александра Македонского с деревом Солнца и Луны, предсказывающим ему скорую смерть. Она берёт начало ещё в эллинистическом романе Псевдо-Каллисфена, где этим деревом выступает кипарис. В поздних источниках это дерево с двумя переплетёнными стволами, одно мужское – Солнца, а второе женское – Луны, которым обозначается конец земли. Эта легенда вышла практически во все крупные средневековые европейские и арабские жизнеописания Александра. «Книга царей» или «Шах-наме» А.Фирдоуси (X-XI вв.) содержит пространное описание этой встречи. Иллюстрированные рукописи с «Шах-наме», как правило, содержат миниатюры с данным эпизодом. В период государства Хулагуидов (1256-1335) в «Шах-наме» нередко можно заметить близость изображения дерева Солнца и Луны с деревом вак-вак.

Александр Македонский был неординарной личностью. «Александр брал с собою в поход, как говорил Плутарх, то, что даёт наибольшую надежду на успех: благочестие по отношению к богам, честность, простоту, умеренность, весёлое расположение духа с презрением к смерти, дар слова и правдолюбие, спокойную обдуманность и быстроту в действиях, славолюбие и твёрдую волю в исполнении того, что он считал справедливым. Перед началом сражения он хладнокровно и обдуманно распределял всё, согласно

составленному плану, принимая в соображение даже качество почвы и силу или бессилие врага. Потом он бросался вперёд с невообразимой энергией и мужеством, с неодолимою силою льва, во главе своих избранных всадников, на неприятеля, увлекал за собою своих солдат в неустрашимом самозабвении и решал судьбу битвы храбростью.

Нужно ли было переходить реки, как бы последние не были широки и глубоки, или завладели городами и крепостями, как бы высоко они не лежали бы и как бы неодолимы ни были их стены, изобретательный ум Александра всегда находил средства и пути для преодоления препятствий, стремясь как бы покорить себя, течение и силу воды, подняться на высоты и опрокинуть стены. Наряду с изобретательностью, в Александре была сила, выносливость в борьбе с трудностями и лишениями. По страшным бесплодным пустыням он шёл вместе со своими солдатами, вместе с ними пересиливал голод и жажду; ласковым ободряющим словом и своим примером он умело поддерживал унывающих, а ропщущих побуждал к новым усилиям. Такими редкими в людях душевными качествами Александра Македонского соответствовала и его наружность» [2, с.4-5].

Он умёл удивлять окружающих своим умом. «Молодой красавец в греческом смысле, он, когда был спокоен, то очаровывал окружающих кротким выражением своего лица, лёгким румянцем на щеках, нежною томностью взгляда и тем даже, что голова его была немного наклонена влево; его резкие движения, от которых развивались его волосы, его сверкающий взгляд и сильный голос обличали в нём героя» [2, с.5].

Александра Македонского знают и под именем Искендера Зуль-Карнайна и связывают с этим именем немало преданий и историй. Он завоевал пол мира: от Бухары до Сырь-Дарьи, Малую, Среднюю Азию, Финикию, Палестину, Иерусалим. Он путешествовал к месту солнечного захода и восхода, а затем к некоему горному ущелью, где жили Гог и Магог, которых победил царь Востока и Запада - Зул-Карнайн, получивший название двурогий. У него на голове с обеих сторон были навёрнуты две косы, наподобие рогов. Когда употребляют имя Зуль-Карнайн, то подразумевают его, как царя Персии и Рума, т.е. Греции. Он был и двурогим, и долгоруким, так как всякие его решения быстро приводились в исполнение, как бы при помощи длинных рук. Он сражался и руками, и стременами, совмещал в себя как реальные, так и мистические знания.

«После коронации в Египте и предсказания оракула Амона (которое, кстати, никто, кроме Александра, не слышал; известно только, что царь ушёл оттуда вдохновлённый) Александр начинает многолетнюю и планомерную работу по созданию государства, которое могло бы соединить элементы разных культур: через армию – образовав смешанную македонско-иранскую армию, через смешанные браки, через постройку новых городов, перенимая восточные обычаи и культы богов и пытаясь приучить к этому своих военачальников. В дневниках царя после его смерти находят план введения на всей территории империи единого языка «койне», греческого «эсперанто», и даже идеи по установлению культа единого божества, объединяющего принципы богов разных культур. Возможно, птолемеевский культ египетско-греческо-семитского Сераписа явился выражением великих замыслов царя» [1, с.15].

В Большой тебризской «Шах-наме» иллюстрированы миниатюры, связанные с историческими событиями Александра (Искандера) Македонского. В миниатюрной иллюстрации «Железные воины Искандара» Большой тебризской «Шах-наме» описывается битва индийской армии с войском Александра Македонского, где последний изобретательно использует эффект горящей нефти, заложенной в железные колесницы с железными фигурами воинов.

Миниатюры Большой тебризской «Шах-наме» хранятся в крупнейших библиотеках, музеях и частных собраниях Западной Европы и США, что делает чрезвычайно трудной работу по её изучению. Трудности выражены также в отсутствии текстовой части списка.

У Низами Гянджеви в эпопее «Искендер-наме» события, связанные со смертью Александра Македонского имели такое повествование: его никак не могли похоронить, потому что рука всё время из гроба отскакивала. Никто не мог разгадать этой причины. Одна слепая старуха взялась за это дело. Она положила горсть земли в руку покойного Александра и его рука опустилась. Тайна была в том, что он жаждал земли, так как весь мир принадлежал ему.

Образ Александра Македонского всегда был объектом исследования ученых и предметом восхищения мастеров изобразительного искусства и поэзии. Каждый из них вкладывал в свое творчество сакральный смысл изображаемого, характеризуя его личность, поступки различными символами. На Востоке его воспринимали как одного из пророков, поэтому очень многое имело таинственную значимость и даже величие данного персонажа и действующего лица. В мировой культуре Александр Македонский, его внутренний мир, бесстрашие, любовь к знаниям и желание подарить людям необычный мир человечности, доброты, справедливости, мудрости, стали символами мужества, бесстрашия и миропорядка.

## ЛИТЕРАТУРА


1. Александр Великий в легендах и исследованиях Востока и Запада. Сост. Е.В.Кособобова. М.: Алтейа, 2000, 384 с.
2. Н.П.Остроумов. Искандаръ Зуль-Карнайнъ. Алексанръ Македонскій. Ташкентъ. Типо-Литографія торгового дома «Ф. и Г.Бр.Каменскіе», 1899 г.
3. Низами Гянджеви. Избранное. Баку: Азернешр, 1989, 727 с.
4. Джамиля Гасанзаде. Агаселим Эфендиев. «Большое тебризское «Шах-наме» и тебризская живопись 1330-40 гг.» // Журнал «Искусство-IRS», №3 (51), 2011 г. (http://irs-az.com/new/pdf/201210/1350292236259541569.pdf)

Fəridə Mir-Bağırzadə

# TARİXDƏ VƏ TƏSVİRİ İNCƏSƏNƏTDƏ MAKEDONİYALI İSKƏNDƏR OBRAZI VƏ ONUNLA BAĞLI SİMVOLLAR


## XÜLASƏ

Qədim dünyanın ən qüdrətli sərkərdələrindən olan Makedoniyalı İskəndərin tarixi personajı 2000 ildən artıqdır ki, müxtəlif xalqların dillərində əsatir kimi dolaşır. Qədim tarixçi Plutarxdan başqa, bütün müəlliflər həqiqi tarixi hadisələri əfsanəyə çevirmişlər. N.Gəncəvinin "Xəmsə" toplusuna daxil olan "İskəndərnamə" poemasına da çəkilmiş miniatürlərdə İskəndər bir neçə müxtəlif məzmunda qəhrəmanlıq simvolu kimi göstərilir. Qeyd etmək lazımdır ki, rəssamlar "İskəndərnamə" ideyalarının mahiyyətini düzgün anlayaraq, İskəndər surətini istilaçı şah kimi, Butsefalo atını isə miniatürlərdə güc və hökmranlıq rəmzi kimi təsvir etmişlər.


Farida Mir-Bagirzadeh

# ALEXANDER MACEDONIAN IN HISTORY AND FINE ART, AND RELATED WITH THEM SYMBOLS


## ABSTRACT

This article tells the historical exploits and campaigns of Alexander the Great and related legends and symbols. They are reflected in the works of the great classics of Oriental and Azerbaijani literature. Among them: the work of the great Nizami Ganjavi «Iskender-name» and Abulkasim Firdousi «Shah-name». The author seeks to uncover the stories connected with the name of Alexander the Great and his actions. Mentioned are the names and contents of miniatures - illustrations from A.Macedonsky's life «Shah-name» A.Firdousi. To explore sought to reveal those important events that marked the fate of Alexander the Great.

# ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ QLOBALLAŞMA

***Elvüsal MƏMMƏDOV,***
*AMEA-nın akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Din və ictimai*
*fikir tarixi şöbəsinin aparıcı elmi işçisi,*
*AİI-nin Dillər və ictimai fənlər kafedrasının*
*dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,*
*elvusal.mammedov@gmail.com*

***AÇAR SÖZLƏR:*** *qloballaşma, əxlaq, dəyərlər, media.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *глобализация, мораль, ценности, медиа.*
***KEY WORDS:*** *globalization, morality, values, media.*

## Giriş

Qloballaşma və onun siyasi, iqtisadi, ictimai-mədəni sahələrdəki təzahür formaları bəşər tarixinin şahid olduğu ən böyük dəyişiklikdir. Qloballaşma nəticəsində dünya “kiçik kənd”ə çevrilmişdir. Bu nəhəng hadisə həyatın bütün sahələrində köklü dəyişikliklərlə müşayiət olunur.

Son vaxtlar qloballaşmaya belə bir münasibət forması geniş yayılıb ki, bu hadisə daha çox siyasi-iqtisadi sahələrdə təzahür etsə də, onun əsas hədəfi bəşər cəmiyyətinin mövcud ictimai-mədəni vəziyyətində, o cümlədən dəyərlər sistemi, davranış və yaşayış tərzində köklü dəyişiklik aparmaqdır. Təbii ki, qloballaşmaya münasibət onun tərəfdarları və əleyhdarlarına görə dəyişir. Məsələn, ona tərəfdarlarının verdiyi tərifləri belə ümumiləşdirmək mümkündür: qloballaşma həm dünyanın “sıxılması”, həm də bu “sıxılma”nı dərk edən fərdi və ictimai şüurun inkişafı prosesidir. Bu proses nəticəsində ictimai münasibətlər intensivlik kəsb edir, iqtisadi, siyasi, mədəni, ictimai sahələrdə ÖZlə ÖZGƏ birləşir [1, s.62]. Yaxud qloballaşma siyasi-iqtisadi, ictimai-mədəni, texnoloji sahələrdə müəyyən səciyyəvi xüsusiyyətlərin məhəlli və milli sərhədləri aşaraq bütün dünyaya yayılması prosesidir.

Bu prosesə qarşı çıxanların isə iddiaları budur ki, qloballaşma dövlət, millət və vətən anlayışları ilə hesablaşmır, müxtəlif nəhəng şirkətlər və qurumlar qarşısında əngəllərin ləğvinə çağırır, milli dövlətlərin əriməsi təhlükəsini yaradır, onların rolunu beynəlxalq kapitalist maraqların təminatçısı olmaqla məhdudlaşdırır [2, s.58]. Məsələn, müasir ərəb tədqiqatçılarından Təllal əl-İtrisi yazır: “Qloballaşma anlayışı bir-biri ilə əlaqəli üç səviyyədə özünü göstərir: siyasi, iqtisadi və mədəni. ...Mədəni müstəvidə qloballaşma qadın, ailə, istək, ehtiyac dəyərlərinin, zövqlərinin, yemək və geyim tərzlərinin birləşdirilməsidir. Həmçinin o, ÖZə və ÖZGƏyə baxış formalarının, davranış qaydalarının ümumiləşdirilməsidir” [3, s.44].

## Müsəlman dünyasında qloballaşmaya münasibət

Müsəlman dünyasında düşünürlər ki, qloballaşma Qərb, xüsusən Amerika mədəniyyəti nümunələrini, onun ideoloji, siyasi, mədəni-iqtisadi normalarını bütün dünyada yaymaq prosesidir [4, s.215]. Məsələn, mərakeşli mütəfəkkir Məhəmməd Abid əl-Cabirinin (1936-2010) qloballaşma ekspansiyası haqqında dedikləri maraq doğurur: “Qloballaşma dünyaya hegemonluq etmək və onu amerikalılaşdırmaq istəyini əks etdirən ideoloji prosesdir. Çünki o, bir ölkəyə – Amerika Birləşmiş Ştatlarına xas mədəni tərzin bütün dünyaya yayılmasına kömək edir” [5, s.32-33].

Qloballaşma proseslərinə təşviş məzmunlu münasibət bəsləyən müsəlman mütəfəkkirləri göstərirlər ki, bu qlobal təzahür, əslində, klassik müstəmləkəçiliyin Amerika (Qərb) ekvivalentidir. Qloballaşma dünyanın birtərəfli iqtisadi standartıdır; dini, mədəni fərqləri bəyənmir, milli, irqi və dini şüarlara ehtiyac qalmasın deyə milli maneələri dəf edir [6, s.143].

## Qlobal mədəni inteqrasiya proseslərinin əxlaq dəyərlərinə təsiri

Qloballaşma müxtəlif səviyyələrdə (siyasi, iqtisadi, sosial, mədəni...) ortaya çıxsa da, onun dağıdıcı tərəfi özünü daha çox ayrı-ayrı mədəniyyətlərə, mədəni-mənəvi və əxlaqi dəyərlərə münasibətdə göstərir. “Mədəniyyət (isə) bu ya digər cəmiyyətin, xalq və millətin identikliyini qoruyub-saxlayan xatirələr, hadisələr, dəyərlər, simvollar, ifadə üsulları və formaları, nailiyyətlər və yaradıcılıq məhsullarının həmahəng kompleksidir” [7, s.256]. Bu baxımdan mədəniyyət cəmiyyətin mövcudluğunun ifadəsidir; onun yox olması ilə cəmiyyət də yox olar. Məhz mədəniyyət bir cəmiyyəti digərindən fərqləndirən əsas cəhətdir; bu və ya digər ölkə, yaxud dövlət öz mədəniyyətinin başqa ölkələrdə yayılması və güclənməsinə cəhd göstərir. Bu səbəbdən mədəni “ekspansiya” tarix boyu hər bir cəmiyyət və dövlətin özünütəsdiq və özünüqəbuletdirmə şərti kimi çıxış etmişdir.

Qloballaşmanın tərəfdarları isə iddia edirlər ki, mədəni qloballaşma mədəni sərhədlərin olmadığı dünya yaratmaq məqsədi daşıyır. Belə bir dünyada milli mədəniyyətlərin, ideya və dinlərin beynəlxalq müstəviyə daşınması asanlaşır. Qloballaşmanın əsas hərəkətverici funksionerləri vahid ümumdünya mədəniyyəti yaratmağı qətiyyən fikirləşmirlər; əksinə, onlar mədəniyyətlərin qarşılıqlı fəaliyyəti üçün sağlam ab-hava formalaşdırmağı düşünürlər [7, s.217].

İlk baxışdan elə görünür ki, mədəni qloballaşma müxtəlif mədəniyyətlərə “xidmət” göstərmək üçündür, bu və ya digər mədəniyyətə özünü ifadə etmək, dar çərçivədən dünya arenasına çıxmaq imkanı yaradır; nəticədə mədəniyyətlər müəyyən mədəni tərz və normaların bir ərazidən digərinə asanlıqla keçidini təmin edən kommunikasiya inqilabı sayəsində bir-biri ilə qarşılıqlı münasibət yaradır. Amma reallıq bunun əksini deyir. Çünki informasiya axını birtərəflidir: bu axın Qərbdə başlayıb, Şərqdə qurtarır. Həmçinin mədəni mübadilə qeyri-bərabərdir, ona görə ki, mədəni qloballaşmanın əsas ideoloji təbliğat maşını sayılan media və informasiya vasitələri qloballaşmanın əsas aparıcı qüvvələri olan dövlətlərin inhisarındadır. “Təsadüfi deyildir ki, dünyadakı ən iri media şirkətinin üç yüzə yaxını ABŞ, Avropa və Yaponiyada toplaşmışdır. Bunların yüz qırx dördü ABŞ-ın, səksəni Avropanın, qırx doqquzu isə Yaponiyanın payına düşür” [8, s.116].

Qloballaşma məhz mədəni sahədə "səmərəli" olduqda iqtisadi, siyasi, təhsil sektorlarını da əhatə edə bilir. Mədəni qloballaşma, əslində, Qərb, xüsusən Amerika mədəniyyətinin, daha dəqiq desək, Hollivud mədəniyyətinin digər mədəniyyətlər üzərində hegemoniyasıdır: "Ümumdünya mədəniyyəti deyilən bir şey mövcud deyildir; əksinə, qloballaşma proseslərinə təkan verən hegemon tərəfin mədəniyyətinin yer üzünə hakim olması təmayülü mövcuddur. Çünki mədəniyyət bu və ya digər xalqla, dillə, dinlə əlaqəli məsələdir" [9, s.25].

Qloballaşma və onun mədəni qəsbkarlığı probleminə diqqət çəkən müsəlman ziyalıları bildirirlər ki, mədəni qəsbkarlıq həqiqi mənada İslam dünyası üçün təhlükədir. Onlar bu prosesə müqavimət göstərməyin zəruriliyinə çağırış edirlər. Söhbət mədəni İslam dəyərlərinin, müsəlman identikliyinin, daxildə və xaricdə İslam mədəniyyətinin qorunmasının zəruriliyindən gedir [10, s.138].

Qloballaşmanın mənfi nəticələrinə həsr olunmuş elmi tədqiqatlarda bu nəhəng fenomenin mədəni təzahürünün İslam mədəniyyətini təhdid etməsi haqqında danışılır. Xüsusi şəkildə vurğulanır ki, qloballaşma Qərb müstəmləkəçiliyinin vaxtilə yürütdüyü mədəni işğal siyasətini xatırladır. Lakin bu işğal fiziki güc vasitələri ilə – ordularla, top-tüfənglə aparılmır. Mədəni işğal bu dəfə iqtisadi qloballaşmanın, beynəlxalq ticarətin böyük hissəsinə nəzarət edən nəhəng şirkətlərin genişlənməsi nəticəsində baş verir. Bu da öz növbəsində Qərb dəyərlərinin yayılmasına səbəb olur, ənənəvi həyat tərzi və yerli mədəniyyət üçün təhlükə yaradır [10, s.115].

## Qloballaşma, yoxsa amerikalılaşma?

Qloballaşmanı amerikalılaşma kimi təqdim edən nöqteyi-nəzər də mövcuddur. Bu düşüncənin müdafiəçiləri iddia edirlər ki, Sovet İttifaqının dağılmasından sonra ABŞ dünyada siyasi, iqtisadi və ideoloji cəhətdən hegemonluq etməyə başlamışdır [10, s.119; 6, s.32]. Nəticə etibarilə, qloballaşma Amerika mədəniyyətinə dünyaya hakim olub, yerli mədəniyyətləri sıxışdırmaqda kömək edir. Bu baxımdan qloballaşma dünyaya hegemonluq etmək istəyini əks etdirən ideoloji prosesdir. Bu proses bir ölkəyə – Amerika Birləşmiş Ştatlarına aid mədəniyyət tərzi və normalarının ümumbəşəri məzmuna çevrilməsinə xidmət edir, milli-mədəni fərqliliklərin ləğvinə cəhd göstərir. Ümumiyyətlə, mədəni qloballaşmanın son məqsədi şüurlara nəzarətdir. Bununla da hiss və istəklər ikinci tərəfin nəzarətinə keçəcək, müstəqil düşünmə tədricən asılı təfəkkürlə əvəzlənəcək, dəyərlər təhrif olunacaq, xəyal və fantaziya kənardan idarə ediləcək, zövq və davranışlar "qəlibə" salınacaqdır. Bütün bunlar isə istehlakın, bilik və əmtəənin xüsusi növünü meydana gətirmək məqsədi daşıyır. Dünyanın digər hissəsinə qəbul etdirilən biliklər "nüfuz" bilikləri adlanır və qlobal hegemonluqla münasibətlərin normallaşdırılmasına, mədəni asılılıqla barışmağa xidmət edir. Qloballaşmanın meydana çıxardığı mədəniyyət istehlak zövqü yaradan, insana, cəmiyyət və tarixə xüsusi baxış formalaşdıran audio-vizual media mədəniyyətidir [5, s.32-34].

Mədəni qloballaşmanın ən çox diqqəti cəlb edən tərəfi budur ki, Qərb, xüsusən Amerika pop-mədəniyyəti zövqləri tənzimləyən başlıca amilə çevrilmişdir. Amerika və Avropa istehsalı olan filmlər, mahnılar, şou-verilişlər bütün dünyada yayılmış, özü ilə birlikdə dünya, insan və həyata Qərb sayağı baxış forması gətirmişdir.

## Qloballaşma və beynəlxalq narahatlıq

Qloballaşma prosesində Qərb mədəniyyətinin digər mədəniyyətlərə dağıdıcı təsir göstərməsi dünyanın bir çox ölkəsində fobiya və narahatlığın yaranması ilə nəticələnmişdir. Hətta ABŞ-la rəqabət aparmaq qüdrətində olan Avropa Birliyinin bəzi ölkələrində (Fransa, Yunanıstan) qloballaşmanın milli mədəniyyət və dilə təsiri barədə narahatlıq ortaya çıxmışdır. Məsələn, UNESCO-nun 1992-ci ildə Meksikada keçirdiyi Mədəni Siyasi Kurslar Beynəlxalq Konfransında Fransanın ovaxtkı mədəniyyət naziri Jak Lang (1939) öz çıxışında demişdi: "Maliyyə və ideoloji imperializmin bu forması əraziləri işğal etmir, amma o, vicdanları, düşüncə və yaşayış tərzini müsadirə edir" [11, s.50].

Qloballaşma hegemonluq praqmatizminin təzahürüdür. Belə bir hegemonluq arzusu Sovet İttifaqının süqut edib, liberal demokratiya və Qərb, daha doğrusu, Amerika düşüncə tərzinin qələbə çalmasından sonra ortaya çıxmışdır. Qərbdə hesab edirlər ki, liberal demokratiya beynəlxalq ideyaya SSRİ-nin yıxılmasından sonra çevrilib. Əslində, hegemonluq nəzəriyyəsi Frensis Fukuyamanın (1952) açıq şəkildə ortaya qoyduğu nəzəriyyədir. Bu ideya onun "Tarixin sonu" nəzəriyyəsinin əsas hissəsini təşkil edir [10, s.120]. Bu nəzəriyyə "... yeni dinin yaranacağı haqqında bizə müjdə verir. Bu qloballaşmadır. Qloballaşma zəminində Qərb bitərəf siyasətdən imtina etməklə dürüstlüyün və insan haqlarının üstündən xətt çəkib. Həmçinin o, elə bir zorakı qəlibə düşüb ki, heç kəs onun sarsılmaz qanunlarına "gözünün üstündə qaşın var" – deyə bilməz" [12, s.45].

Belə hegemonluq qeyri-rəsmi şəkildə, elan etmədən bu və ya digər ölkənin mədəni irsini, dini-milli kimliyini aşınmaya məruz qoymaq siyasəti yürüdür. Bu məqsədlə milli sərhədlərin, mədəni-ideoloji plüralizmin ləğvinə, qlobal müstəvidə vahid mədəni-sosial nümunənin təsis edilməsinə cəhd göstərilir.

## Qloballaşma və media

Qloballaşmanın vuran "əli" media və informasiya vasitələridir. Bu vasitələr cəmiyyətin müxtəlif sektorlarına güclü təsir imkanlarına, dəyərlərin məzmun "redaktə"si, yaxud bütövlükdə aşınmasına səbəb olacaq potensiala sahibdir. İnkişaf etmiş kommunikasiya və informasiya texnologiyası müəyyən norma və dəyərlər sisteminin formalaşmasında qloballaşma prosesinin ən mühüm vasitəsidir. İnternet və peyk kanallar vasitəsi ilə yayımlanan filmlərdəki zorakılıq və əxlaqsızlıq motivləri ilə zəngin səhnələr, xüsusən gənclərin nəzərində əxlaqi-aksioloji, ictimai dəyərlərin çəkisini azaldır.

Qloballaşma zəminində aşağıdakı proseslər daha qabarıq görünür:

a) Milli dövlətlərin hakimiyyətinin zəiflədilməsi və rolunun məhdudlaşdırılmasına cəhd edilir. Nəticədə vətəndaşların öz vətənlərinə aidliyi, dəyərləri, millilik və vətənpərvərlik şüuru zəifləyir.

b) Praqmatik, dünyəvi-materialist dünyagörüşü və həyat tərzinin qəbul etdirilməsinə cəhd göstərilir. Maddiyyatı əsas götürən mədəniyyətdə məqsədə çatmaq üçün hər bir vasitədən istifadə təşviq olunur [13, s.99-101].

## Nəticə

Deyilənlərdən bu nəticə hasil olur ki, qloballaşmanın dəyərlər sisteminə mənfi və dağıdıcı təsiri inkaredilməzdir. Bu məqsədlə media və kommunikasiya vasitələrinin gücündən istifadə olunur. Texnoloji inqilab və internetin meydana gəlməsi ilə təsvir mədəniyyətinin yaranmasından sonra mənəvi dəyərlərin faktiki aşınması prosesi başlanmışdır. Müasir televiziya və "ağıllı telefonlar" yanıldır, zehin üçün heç "qida" təqdim etmir, mənəvi dəyərlərin verdiyini vermir, amma buna baxmayaraq, cazibədardır, çünki özündə bir çox həzzi ehtiva edir: aydın təsvir, müxtəlif səslər və musiqi, düşünülmüş səhnələr.

Müasir ərəb mütəfəkkiri Təllal İtrisinin qloballaşmanın mənəvi dəyərləri aşındırmasına dair dediyi sözlərlə fikirlərimizi yekunlaşdıraq: "Dəyərlər mövzusunda qloballaşmanın tənqid olunması iki məsələ ilə əlaqəlidir:

Birincisi, media orqanları, beynəlxalq kino və hər bir evə daxil olmuş peyk kanallarda təbliğ edilən zorakılıq və seks dualizmidir. Bu dualizm iffət, namus anlayışlarının hələ də xüsusi önəm daşıdığı cəmiyyətlərdə nihilizm və əxlaqsızlığı yaymaq yolu ilə davranış və dəyərlərin deqradasiyasına səbəb olur.

İkincisi, yemək, içmək, ailə və qadın-kişi münasibətlərində, ümumiyyətlə, şəxsi və ictimai həyatla əlaqəli hər şeydə ümumi normaların, xüsusən də qlobal iqtisadiyyatın əsas komponenti sayılan istehlak prosesinə aid vahid dəyərlər sisteminin yaradılmasına cəhd göstərilir" [14].

# ƏDƏBİYYAT


1. Entoni Giddens. Üçüncü yol: sosial demokratiyanın yenilənməsi. Qahirə: 1999.
2. Şazli Əmmari. Ərəb dünyası və qloballaşma: illüziya və gerçəklik // "Müntədə əl-fikir əl-ərəbi" jurnalı, Əmman, 1997, № 140.
3. Təllal əl-İtrisi. Ərəblər və qloballaşma. Beyrut: Ərəb birliyi tədqiqatlar mərkəzinin nəşrləri, 1998.
4. Əli Abdullah. Qloballaşma: təhlükələr və əlaqəli ölçülər // "ən-Nəbə" jurnalı, çap yeri göstərilməyib, 2001, № 57.
5. M.A.Cabiri. Qloballaşma və mədəni kimlik // "Qloballaşma və yeni liberallıq böhranına dair on dissertasiya (kollektiv əsər), 1998.
6. Ömər Zərqavi. Sivilizasiyaların toqquşması: nəzəriyyə yoxsa ideologiya? // "əl-Kəlimə" jurnalı, Beyrut, 2003, № 39.
7. Süheyl Hüseyn əl-Fətlavi. Qloballaşma və Ərəb dünyasına təsiri. Əmman: 2009.
8. Məhəmməd əl-Xətib. Qloballaşma və informasiya "partlayışı" fonunda tərbiyə işi. Əmman: 2003.
9. Həsən Hənəfi. Reallıq və gerçəklik baxımından qloballaşma / "Qloballaşma nədir?" məcmuəsi. Dəməşq: 1999.
10. Məhəmməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası (ərəb dilindən tərcümə: Elvüsal Məmmədov). Bakı: 2011.
11. Ömər əl-Haci. Qloballaşma İslam şəriətinin cahanşümulluğu ilə üz-üzə. Dəməşq: 1999.
12. Xüzeyr Cəfər. Biz, Fukuyama və tarixin sonu // "əl-Müctəmə` əs-səqafi" jurnalı, Beyrut, 1998, № 1313.
13. Məhəmməd İbrahim Məbruk. İslam və qloballaşma. Qahirə: 1999.
14. Təllal əl-İtrisi. Dəyərlər və məfhumların qloballaşması. https://www.aljazeera.net/knowledgegate/opinions/2004/10/3/%D8%B9%D9%88%D9%84%D9%85%D8%A9-%D8%A7%D9%84%D9%82%D9%8A%D9%85-%D9%88%D8%A7%D9%84%D9%85%D9%81%D8%A7%D9%87%D9%8A%D9%85

Эльвусал Мамедов

## МОРАЛЬНЫЕ ЦЕННОСТИ И ГЛОБАЛИЗАЦИЯ


РЕЗЮМЕ

В статье автор исследует проблему влияния процессов глобализации на современную социокультурную ситуацию человеческого общества, включая систему ценностей, поведение и образ жизни. С этой целью явление глобализации рассматривается на основе утверждений сторонников и противников, отношения к нему в мусульманском мире, влияния культурных интеграционных процессов на систему моральных ценностей, утраты национальных ценностей и идентичности под влиянием глобализации и угрозы глобализации. Он затрагивает место и роль СМИ в глобализирующемся мире.


Elvusal Mammadov

## MORAL VALUES AND GLOBALIZATION


SUMMARY

In the article the author examines the problem of the influence of globalization processes on the modern socio-cultural situation of human society, including the value system, behavior and lifestyle. To this end, the phenomenon of globalization is considered on the basis of the statements of supporters and opponents, attitudes towards it in the Muslim world, the impact of cultural integration processes on the system of moral values, the loss of national values and identity under the influence of globalization and the threat of globalization. It touches upon the place and role of the media in the globalizing world.

# YƏHUDİLİKDƏ MƏBƏD ANLAYIŞI

***Şükür ƏNDƏLİFOV,***
*Dinşünas,*
*Dinlərin tarixi üzrə magistrant,*
*s.andalifov@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Din, Yəhudilik, Qüds, məbəd, Ağlama divarı.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Религия, иудаизм, Иерусалим, храм, стена плача.*
***KEY WORDS:*** *Religion, Judaism, Jerusalem, temple, wailing wall.*

## Giriş

Dinlər tarixində xüsusi mövqeyə malik Yəhudilik səmavi dinlərin birincisi olmasına baxmayaraq, ən az mənsubu olan dindir. Bir çox mütəfəkkirin fikirlərinə əsasən, Yəhudilik həm din, həm xalq, həm də irqdir. Burada dini irqdən ayırmaq mümkün deyil. Dünyanın bir çox yerində məskunlaşan yəhudilər öz inanc və əqidələrini bu günə qədər yaşadırlar. Süleyman məbədi dağıdıldıqda onlar vətənlərini itirdilər, amma dinlərini, mədəniyyətlərini, adət-ənənələrini qoruyub saxladılar və digər qövmlərin arasında assimilyasiya olunmadılar. Hər dinin müqəddəs saydığı məkanlar mütləq mövcuddur. Qüdsdə Həzrət Süleyman tərəfindən inşa edilən məbəd dinin mərkəzi sayılmaqla bərabər, eyni zamanda Yahovanın tək müqəddəs evi olaraq qəbul edilir.

## Yəhudi dininə tarixi nəzər

Bəşər tarixinin hər dönəmində, insanın olduğu hər yerdə dinin izlərinə rast gəlmək mümkündür. Bu da dinin bəşər övladının həyatında nə qədər önəmli bir faktor və onu ayaqda tutan təməl inanc sistemi olduğunun sübutudur. Dinlər tarixinə həsr olunmuş kitablarda Tövhidi, İbrahimi və ya Vəhy dinləri kimi tanıdılan Yəhudilik, Xristianlıq, İslam üçlüyü mərkəzi yer tutur [1, s.21].

Yəhudilik (İuadizm, Musəvilik) dünyanın ən qədim monoteist dinlərindən hesab olunur. Tarixi miladdan əvvəl XIII əsrə gedib çıxan Yəhudiliyin bu gün 14 milyon mənsubunun olduğu təxmin edilir. Yəhudilər başda İsrail, Amerika və Rusiya olmaq üzrə dünyanın müxtəlif ölkələrində yaşayırlar [2, s.19]. Bu gün Tövratın bəzi bölmələrinə baxdıqda tanrı inancının bir sıra antropomorfik xüsusiyyətlər daşıdığı, yəni Tanrıya insani xüsusiyyətlər şamil etmək cəhdləri aydın olur [3, s. 90].

Səmavi dinlərin iki əsas qaynağı vardır. Birincisi, canlı qaynaq adlandıra biləcəyimiz peyğəmbərlər, ikincisi isə yazılı qaynaq sayılan müqəddəs kitablardır [2, s. 27]. Yəhudi dininə görə, Tanrı öz istək və buyruqlarını insanlara çatdırmaq, onları gələcək barədə xəbərdar etmək məqsədi ilə xüsusi seçilmiş insanları, yəni peyğəmbərləri göndərmişdir. İudaizmdə bu çoxsaylı peyğəmbərlər arasında Musa, Davud və Süleymana daha çox ehtiram göstərilir [4, s.157]. Yəhudilikdən bəhs edərkən Musa peyğəmbər haqqında danışmamaq mümkün deyil. Qurani-

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Kərimdə adı ən çox çəkilən Həzrət Musa Həzrət Yusifdən sonra Allahın İsrailoğullarına göndərdiyi "ülul-əzm" peyğəmbərlərdən biridir. Onun barəsində Quranda, hədislərdə və israiliyyatda bir çox məlumat mövcuddur. Allahın seçilmiş bəndəsi və peyğəmbəri olan Həzrət Musa fironlar diyarı Misirdə doğulmuşdur, onun dünyaya gəlişi həm əfsanəvi, həm də hikmətlərlə dolu olmuşdur. O, doğulduğu dövrdə İsrailoğullarının adət-ənənələri, inancları yavaş-yavaş unudulurdu. Artıq Həzrət İbrahimin "Hənif" dininə laqeyd münasibət bəsləyirdilər. Allahın şərəfli bəndəsi Həzrət Musanı üç çətin vəzifə gözləyirdi:

a) Misirlilərin islahı;
b) İsrailoğullarının islahı;
c) İsrailoğullarının Fironun əsarətindən xilası və Ərzi-Müqəddəsə aparılması [5, s.25].

Musa peyğəmbər vəfat etdikdən sonra Allah İsrailoğullarına çoxlu elçi göndərmişdir. Quranda adı çəkilən və İsrailoğullarına göndərilən elçilərdən olan Davud peyğəmbər, rəvayətlərə əsasən, Qüds (Yerusəlim) şəhərində dünyaya gəlmişdir. Soyu Yaqubun oğlu Yəhudaya bağlıdır. Rəvayətlərə görə, Davud Fələstini, Suriyanı, Ərəbistan yarımadasının bir hissəsini özünə tabe edə bilmişdir. O, ölkənin baş şəhəri olan Qüdsdə tikinti işləri aparmış və bu işlər oğlu Süleymanın hakimiyyəti dövründə başa çatmışdır. Beləliklə, Qüdsdə böyük məbəd ucaldılmışdır [6, s.47].

Allah tərəfindən göndərilən elçilər içərisində ən çox səltənətə sahib olan peyğəmbərlərdən biri və birincisi Süleymandır. O, yəhudilərə göndərilən Həzrət Yaqubun nəslindən gəlir. Rəvayətlərə əsasən, Süleyman peyğəmbərin əmrinə insanlarla yanaşı, cinlər və heyvanlar da tabe olmuşdur. Onun 40 il hökmdarlıq etdiyi deyilir. Bir dəfə o, sarayın tikintisinə baxmağa getmişdi. Ustalar sarayın tikintisi ilə məşğul idilər. Tapşırıq verdi ki, heç kim onu narahat etməsin və əsasına söykəndiyi halda sarayın tikintisinə tamaşa etməyə başladı. Elə bu vəziyyətdə də dünyasını dəyişdi. Ancaq heç kimin bundan xəbəri yox idi. Çünki göstərişinə uyğun olaraq, heç kim onun yanına getməyə cürət edə bilmirdi. Yalnız qurd əsasının yeyib bitirdikdə və Süleyman yerə yıxıldıqdan sonra onun vəfat etdiyini anladılar [6, s.333].

Birinci məbəd dönəmində məbədin olduğu yerə "Sion" təpəsi adı verilmişdi. Eyni zamanda, Sion bütün Qüds şəhərini ifadə edir. Tanrı tərəfindən seçilən bir yer olduğu üçün Qüds məbədində sadəcə qurbanlar kəsilmir, həm də həcc ibadəti yerinə yetirilir. Yəhudilikdə həcc ibadəti uşaqlara, qadınlara, əqli və fiziki xəstəlikləri olanlara fərz deyil. Qadınlar və uşaqlar həcc ibadətindən azad olunsalar da, əksər qadınlar və valideynləri ilə birlikdə uşaqlar həcc ibadətini yerinə yetirə bilirlər [7, s.667]. Məbəd dağıdıldıqdan sonra bu ibadət tərk edilmişdir. Belə ki, bu gün dindar yəhudilər Ağlama divarını, Sion dağını və Qüds şəhərindəki digər yerləri ziyarət etməklə həcc ibadətini yerinə yetirirlər [2, s.112].

Yəhudi dininin təməl adətlərindən biri də qurban ibadətidir. Tarixə nəzər saldıqda qurban ibadətinə çox əhəmiyyət verildiyi görülür. Belə ki, ildə 3 dəfə (Pesax, Şavuot və Sukkot bayramlarında) hər yəhudi kişisi qurban ibadəti üçün buraya gəlməklə mükəlləfdir. Həzrət Süleymanın Qüds şəhərində tikdirdiyi məbədin daxilində qurban kəsməyə ayrılmış yer mövcud idi. Kəsilən qurbanların qanları hovuzlara axıdılır, ətləri isə yandırılırdı. Süleyman məbədi olmadığı üçün hazırda qurban və həcc ibadətləri yerinə yetirilmir [8, s.201].

## Qədim Qüds şəhəri

Tarixi Tunc dövrünə qədər uzanan, beş min il yaşı olan Qüds şəhərinin adına ilk dəfə qədim Misir mətnlərində e.ə. XIX-XVIII əsrlərdə rast gəlinir. Qədim Assuriya mənbələrində Urusilimmu, yaxud Ursalimmu kimi qeyd edilən şəhər Tövrat mətnlərində “Salam şəhəri” kimi qeyd olunur. Hər nə qədər əsrlərdən bəri münaqişə ocağı olduğu üçün paradoks kimi səslənsə də, Yerusəlimin mənası “Sülh şəhəri”dir. İslam qaynaqlarında isə şəhərin adı “Qüds” olaraq keçir ki, bu da müqəddəslik və mübarəklik ifadə edir. Yəhudi dini mətnlərində Qüds şəhərinin 70-dən çox adının keçdiyi qeyd olunur [9, s.323]. Qüds şəhərinin müqəddəsliyi və özəlliyi səbəbi ilə digər şəhərlərdən fərqli məkan kimi dəyərləndirilmiş və bəzi önəmli qərarlar bu şəhərdə verilmişdir (II. Krallar 21/4, Mezmur 132/13). Qədim şəhər olan Qüds 0,9 $km^2$ qalalarla əhatələnmiş bölgədən ibarətdir. Müsəlmanların müqəddəs saydığı Məscidül-Əqsa, eyni zamanda Qiblə məscidi və Qübbətüs Səhra məscidi, yəhudilərin Məbəd təpəsi və Ağlama divarı, o cümlədən xristianların Müqəddəs Məzar kilsəsi kimi dini əhəmiyyət kəsb edən bir çox tikili məhz bu ərazidə yerləşir. Şəhər 1982-ci ildən etibarən UNESKO tərəfindən “Ümumdünya İrs” siyahısına salınmışdır [10].

İbrahimi dinlərin müqəddəs şəhəri sayılan Qüds tarixən iki dəfə tamamilə yerlə-yeksan edilmiş, 23 dəfə işğal olunmuş, 52 dəfə hücuma məruz qalmış və 44 dəfə yenidən azad edilmişdir. Bu istilaların ən dəhşətlisi e.ə. 587-ci ildə baş verən Babil istilası, eramızın 70-ci ilində baş verən Roma talanı və Birinci Səlib yürüşü əsnasında Qüds şəhərinin ələ keçirilərək (1099-cu il) darmadağın edilməsidir. Qüdsün tarixdə əsaslı inkişafı Osmanlılar dövrünə təsadüf edir. Birləşmiş Millətlər Təşkilatının (BMT) 1947-ci il qətnaməsinə əsasən, tarixi Fələstin torpaqlarında iki dövlət – İsrail və Fələstin dövlətinin yaradılması və Qüds şəhərinə beynəlxalq status verilməsi elan edildi. Lakin 1948-ci ildə qurulan İsrail dövləti 1949-cu ildən buranı özünün paytaxtı elan etdi. Bu qərar bir çox dövlət tərəfindən tanınmır. Hazırda Qüds şəhərində müsəlman, xristian, erməni və yəhudi məhəllələri mövcuddur [9, s.325]. Fələstin torpaqlarında yaradılan Urşəlim şəhərinin qərb hissəsi BMT-nin qərarı ilə 1948-ci ildə İsrailə, iki məscidin yerləşdiyi şərq hissəsi isə İordaniyaya verildi. İsrail 1967-ci ildə baş vermiş altı günlük müharibədə Qüds şəhərinin şərq hissəsini də güc yolu ilə İordaniyanın əlindən aldı və həmin hissəni ixtiyarında olan qərb hissəsinə əlavə etdi. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 242 saylı qətnamədə İsrail dövlətindən altı günlük müharibə zamanı işğal etdiyi əraziləri geri qaytarmaq tələb olunsa da, İsrail dövləti hələ də bu qətnaməyə etinasızlıqla yanaşır [1, s.124].

## Məbəd

Ərəb dilində “ibadət” kəlməsinin məsdərindən törəyən və *“ibadət edilən yer”, “ibadətxana”, “ibadətə məxsus bina”* mənasına gələn *“məbəd”* kəlməsi hər hansı dinin mənsublarının müəyyən vaxtlarda həm toplu, həm də fərdi şəkildə ibadət etmələri üçün tikilmiş özəl bir məkanı ifadə edir. İbadət dinin təməl ünsürlərindən biridir. İbadətlər fərdi və toplu olaraq yerinə yetirilə bilir. Toplu ibadətləri yerinə yetirmək üçün məkana ehtiyac olur. Həmin məkanlar fərqli sözlərlə, kəlmələrlə ifadə olunsa da, eyni mənanı özündə birləşdirirlər. Məbəd anlayışının təməlində müqəddəs məkan inancı mövcuddur. Məbədlər ilk vaxtlar açıq yerlərdə

balaca çadır, kiçik bina olaraq inşa edilsə də, zaman keçdikcə böyük və geniş binalar şəklində inşa ediləcək qədər dəyişdi [9, s.276]. Dinlər tarixinə nəzər saldıqda görürük ki, istər səmavi olsun, istərsə də qeyri-səmavi dinlərdə ibadət (ziyarət) üçün inşa olunan müqəddəs yerlər vardır. Bunlara *"məscid", "sinaqoq", "kilsə", "zikkurat", "temenos", "çetiya", "qurdvara", "vimana", "jinja" və s. adlarla rast gəlinir. Yəhudi məbədləri "sinaqoq" adlanır.*

Yəhudi tarixinə nəzər saldıqda hər dönəmdə fərqli ibadət yerlərinə rast gəlinir. "Kitabi-Müqəddəs"ə görə, İsrailoğullarının tarixi Həzrət İbrahimlə başlayıb, oğlu Həzrət İshaq və nəvəsi Həzrət Yaqub ilə davam etmişdir. Bu dönəmdə dinin vacib əməllərini yerinə yetirmək üçün qaldıqları yerlərdə və ya önəmli saydıqları məhəllələrdə "məzbah" tikmişdirlər. Bunlardan "Şəkəm", "Beytəl", "Mamri", "Berşaba" xüsusi qeyd olunur. Həzrət Musa qövmünü Misir əsarətindən xilas etdikdən sonra səhra şəraitində 40 il onlarla birlikdə yaşamış və Tanrının əmri ilə ibadətlərini yerinə yetirə bilmələri üçün bir məkan (eyni zamanda bu məkan mişkan, çadır adlanır) tikdirmişdir. Tarixi qaynaqlarda "toplaşma çadırı" adlandırılan bu məkan Həzrət Musanın Yahvə ilə danışdığı və xalqla zaman-zaman görüşdüyü yer kimi qeyd olunur. O, çöl həyatı boyunca İsrailoğullarının bütün dini fəaliyyətlərini buradan yönləndirdiyi kimi, yəhudilər də başda qurban ibadəti olmaq üzrə bütün ibadətlərini burada yerinə yetirirdilər [11, s.176].

Yəhudilikdə məbəd ilahidir, vəhy məhsuludur və Tanrının əmri üzərinə inşa edilən bir yerdir. Belə ki, yəhudilərin müqəddəs kitabında *"Rəbbin evi", "Tanrının evi"* adlandırılan məbəd Yahvənin istəyi ilə Həzrət Süleyman tərəfindən tikilmişdi. Yəhudilik məbəd mərkəzli dindir. Yəhudi dini ədəbiyyatında məbəd eyni zamanda *"Beh Ha Miktaş"* (müqəddəs ev) adlanır. İslamın müqəddəs kitabı Qurani-Kərimdə həmin məbəd "əl-Mehrab" adı ilə xatırlanır: **"(Nəhayət, Zəkəriyyanın dili tutulduğu, ona danışmaq qadağan edildiyi üçün artıq zövcəsinin hamilə olduğunu başa düşdü və Allahın Öz əhdinə sadiq olduğuna bir daha əmin olub Ona cani-dildən şükür etdi). Sonra (Zəkəriyya) mehrabdan (məbəddən) öz camaatının qabağına çıxıb (əli ilə) onlara belə işarə etdi: "Səhər-axşam (Allahı) təqdis edib şəninə təriflər deyin! (Və ya namaz qılın!)"** [12, "Məryəm", 11]. **Yəhudilikdə məbəd deyildikdə "Süleyman məbədi" başa düşülür.**

"Beh ha Miktaş" yəhudi dini və sosial həyatının mərkəzini ifadə etdiyi kimi, eyni zamanda sonrakı məbədlər üçün də örnək olmuşdur. İnanca görə, bu məbədin necə tikiləcəyi, ölçüləri və hətta adı Tanrı tərəfindən bildirilmişdi (Tövrat, II Samuel 7:1-7; Krallar 6:1-14). Məbəd 13 ilə tikilmişdir. Bu məbəd vasitəsilə yəhudilər bir araya gəlmək və toplaşma yerinə qovuşmuşdur. Bayramları və müəyyən günləri xalq məbəddə toplaşaraq qeyd edirdilər. Məhz buna görə də Süleyman dönəmini yəhudilər üçün qızıl dövr adlandırırlar [13, s.293]. **Qüdsün yəhudilərin əlinə keçməsindən sonra miladdan əvvəl 586/587-ci ildə məbəd dağıdılmış və yəhudilər Babilə sürgün edilmişdir. Məbəd dağıdıldıqdan sonra tədricən xristianların əlinə keçmişdir. İslam dininin ortaya çıxmasından sonra ikinci xəlifənin zamanında sülh yolu ilə müsəlmanlara təslim edilmişdir. Müsəlmanlar Süleyman məbədinin qalıntılarını Ömər məscidi adı ilə bir məscidə çevirmiş və** *"Qübbətüs Səhra"* adlı günbəz tikmişlər. Qeyd edək ki, həmin günbəz sonradan qızılla örtülmüşdür. Daha sonra bu məscidin kənarında mavi günbəzli xırda bir məscid də inşa edilmiş və "Məscidül Əqsa" adlandırılmışdır. Həzrət

Süleymandan Babil əsarətinə qədər olan dönəmə, digər ifadə ilə, Musa peyğəmbərdən I məbədin dağıdılmasına qədər olan dövrə Yəhudi tarixində I Məbəd dövrü adı verilmişdir. Babil sürgünündən sonra Qüdsdə yeni dönəm başlamışdır [1, s.122].

Yəhudilər tərəfindən müqəddəs sayılan "Ağlama divarı", digər adı ilə "Qərb divarı" Süleyman məbədindən bu günə gəlib çatdığı iddia edilən yeganə divardır. Süleyman məbədinin bir parçası sayılan bu divarın hündürlüyü 18 metr, uzunluğu isə 485 metrdir. Divar daşlarının bəzisinin uzunluğu 12 metr, hündürlüyü 1 metrə çatır. Ağırlığı isə 100 tondan çoxdur. Yəhudilər buranı dua və ibadət məqsədi ilə ziyarət edirlər [9, s.474 ]. İslam inancına görə, Həzrət Məhəmməd (s) Meraca çıxarkən "Buraq" adlı atını bu divara bağlamışdır. Ona görə də müsəlmanlar həmin divarı "Buraq divarı" adlandırırlar. Osmanlı dövründə Qanuni Sultan Süleymanın əmri ilə yəhudilərə "Ağlama divarı"nın qarşısında ibadət etmək hüququ verilmişdir. Osmanlı Qüdsü fəth etdikdən sonra İspaniyadan qovulan yəhudilər Qüdsə köçməyə və buranı (Ağlama divarını) ziyarət edərək dua etməyə başlamışlar. 1520-ci ildən bu yana yəhudilər üçün "Ağlama divarı" dua yeri kimi ziyarət edilir. Başda İspaniya olmaqla Avropanın müxtəlif ölkələrindən qovulan yəhudilərə qucaq açan Osmanlı sultanları bu divarı bir neçə dəfə təmir etdirmiş və məhv olmaqdan qorumuşlar.

## ƏDƏBİYYAT


1. Hüseyn Tövfiqi. Böyük Dinlərlə Tanışlıq. Bakı: 2013.
2. Prof.Dr. Mehmet Bayrakdar. Üç Dinin Tarihi. İstanbul: 2016.
3. Osman Nuri Topbaş. Nəbilər Silsiləsi-2. Bakı: 2006.
4. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: 2019.
5. M.Necati Bursalı. Həzrəti Musa (Əleyhissalam). Bakı: 2010.
6. Qısa İslam Ensiklopediyası. Bakı: 2017.
7. Prof.Dr. Abdurahman Küçük, Prof.Dr. Günay Tümer, Doç.Dr. Mehmet Alparslan Küçük. Dinler Tarihi. Ankara: 2016.
8. Ahmet Kahraman. Mukayeseli Dinler Tarihi. İstanbul: 2016.
9. Diyanet İslam Ansiklopedisi // "Kudüs", "Mabed", "Ağlama duvarı" maddələri. Ankara: 2002.
10. https://whc.unesco.org/en/soc/1518
11. Prof.Dr. Salime Leyla Gürkan. Ana Hatlarıyla Yahudilik. Ankara: 2016.
12. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Bünyadov Z.M, Məmmədəliyev V.M). Bakı: 2008.
13. Prof.Dr. Mahmud Aydın. Ana Hatlarıyla Dinler Tarihi. İstanbul: 2015.

Шукур Андалифов

# ХРАМ В ИУДАИЗМЕ

## РЕЗЮМЕ

Религия - это система веры и поклонения со своими собственными принципами, традициями и духовными ценностями, святыми. Святость и божественность являются важными атрибутами религии. Основная причина проведения исследований по каждой теме заключается в том, что люди интересуются такими вопросами. Религия является одной из трех крупнейших и наиболее распространенных сфер деятельности в нашем современном обществе, которая объединяет людей и оказывает огромное влияние на них. Религия сыграла решающую роль в распространении письменности и грамотности, в развитии образования. В истории религий небесные религии относятся к религиям, основанным на откровении от Бога. К ним относятся иудаизм, христианство и ислам. Есть места, которые каждая религия считает священными. Сегодня эти места посещаются не только для поклонения, но и для туризма.

Shukur Andalifov

# TEMPLE IN JUDAISM

## SUMMARY

Religion is a system of faith and worship with its own principles, traditions and spiritual values, saints. Holiness and divinity are important attributes of religion. The main reason for conducting research on each topic is that people are interested in such issues. Religion is one of the three largest and most common areas of activity in our modern society, which unites people and has a huge impact on people. Religion played a decisive role in the spread of writing and literacy, in the development of education. In the history of religions, heavenly religions refer to religions based on revelation from God. They include Judaism, Christianity and Islam. There are places that every religion considers as sacred. Today these places are visited not only for worship, but also for tourism.

# QURANİ-KƏRİM MÜSTƏVİSİNDƏ KÖNÜLLÜLÜK MƏSƏLƏSİNƏ KİÇİK BAXIŞ

***Yeganə MİRZƏYEVA,***
*BDU-nun İslamşünaslıq Elmi Tədqiqat*
*Mərkəzinin aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*yeganemirzeyeva72@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Quran, yaxşılıq, könüllülük, filantropiya, təfəkkür.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Коран, доброта, волонтерство, филантропия, размышления.*
***KEY WORDS:*** *Quran, kindness, volunteering, philanthropy, reflection.*

İnsanların qəlbinə, ruhuna, vicdanına xitab edən Müqəddəs Kitablar onları xeyrə, ədalətə, mərifətə və digər gözəlliklərə könüllü xidmətə dəvət edir. Buna görə də qarşılıqsız yaxşılıq edərək heç bir təmənna güdməyən işıqlı insanları nümunə göstərir. Uca Yaradan insandan düşünmək, təfəkkür etmək, ibrət götürmək və öyrəndiklərinə müvafiq fəaliyyət gözləyir. Bütün ilahi müraciətlər insanı özü, ətraf aləm və Yaradan ilə gözəl ünsiyyətə dəvət edir. İlahi həqiqəti idrak edə bilmək üçün insan, ilk növbədə, ağıl adlı nemətdən istifadə edərək, onu doğru istiqamətə yönəltməlidir. Ağılla həqiqətin zahirini qavrayan insan sonradan ilahi həqiqəti qəlbi ilə idrak edir. Əbəs yerə deyil ki, Yaradan buyurur: **"...Qəlblər yalnız Allahı zikr etməklə aram tapar"** [1, "Rad", 28]. Beləliklə, könlünü ilahi nura yönəldən insan həqiqi missiyasını anlamağa başlayır. Zaman, ağıl, qəlb... Qəlb və ya könül insanın daxili dünyasının paytaxtı hesab olunur. Qəlb ünsiyyətdə olduqlarının rənginə boyanır. Könlü zəngin olan insan zamanını da, ağlını da gözəlliklə zənginləşdirməyə çalışır. Gözəlliyə şahid olmaq üçün yaranan könül işləri öz fəaliyyəti ilə zamanını zənginləşdirməklə yanaşı, ilahi nura, kamillik müstəvisinə doğru istiqamət götürür. İnsan artıq könlü, qəlbi ilə görür, eşidir. O, sosial varlıq olduğu üçün öz daxili dünyası, düşüncələri, məqsəd və amalı üzərində islahat aparmaqla, ətrafını da islahata, yəni saleh işlərə cəlb etməlidir. O, özünü inkişaf etdirməklə, öz həyatını doğru qurmaqla yanaşı, ətrafını da buna təşviq etməlidir. **"...Bir insanı dirildən bütün insanlığı diriltmiş kimi olar..."** [1, "Maidə", 32]. Odur ki, başqasına həyat vermək üçün insan özü diri olmalıdır.

Bütün ilahi kitabların tövsiyəsi yardımlaşma, anlayış və dəstək üzərində qurulmuşdur. Qaranlıqdan işıqlığa, darlıqdan genişliyə, çətinlikdən rifaha yol göstərən kitab və elçilər insanların məsuliyyət hissinə sahib olduğunu təsdiqləyir. Allah Ona doğru gedən yolda heç bir məcburiyyət olmadığını bildirir: **"Dində məcburiyyət yoxdur..."** [1, "Bəqərə", 256]. Digər tərəfdən, O, Öz Kitabında əmrinə könüllü tabe olan kainatı misal gətirir. **"...Səmaya və yer üzünə: «İstər-istəməz vücuda gəlin!» Onlar da: «İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!» - deyə cavab verdilər"** [1, "Fussilət", 11]. Və səmanın, Yer kürəsinin,

Günəşin könüllü fəaliyyətlərini bizə davamlı ibrət olaraq göstərir. Günəş, Ay, bütün ulduzlar, səma və kainatlar könüllüdür. Çünki könüllü olmaq Günəş və Ay tək başqalarına faydalı olmaqla ölçülür. İslam dininin müqəddəs kitabı Quranda sədəqə, zəkat, infaq kimi sosial ibadətlərdən bəhs olunur. Maddi-mənəvi paylaşımın ecazına daxil olan insan artıq bunun bir məsuliyyət olduğunu dərk edir. *"Möminlər bir-birinə olan sevgi və mərhəmətdə, qayğıda bir bədən kimidirlər. Bədənin bir üzvündə problem yaranarsa, digər üzvlər də yuxusuzluq və qızdırma ilə həmin dərdə şərik olar"* [2, "Ədəb", 27; "Birr", 66]. Hədisdən də göründüyü kimi, insanların bir-birinin dərdinə şərik olması sevgi və mərhəmətdən doğur və könüllülük prinsipinə əsaslanır. Bu baxımdan könüllülük bir əhddir. **"Biz yalnız Sənə ibadət edir, biz yalnız Səndən yardım istəyirik"** [1, "Fatihə", 5]. "Fatihə" surəsinin öyrətdiyi həm əhd, həm birlik dəlili həqiqətlərə işıq salır. Könüllülərin birliyini - dua və axtarışlarına cavab kimi müəyyən bir sistemə birlikdə tabe olaraq fəaliyyətlərini təşkil edən ittifaq adlandıra bilərik. Könül işlərində müttəfiq olan xeyirxahlar vahid bir bədən kimi birləşirlər. Tək başına öz istəyi ilə kiməsə yardım etmək və dəstək verməklə könüllülük arasında böyük fərq var. Bütün rəsullar insanları birləşib yaxşılıq etməyə, mərifəti yayıb, pisliklərdən çəkindirməyə dəvət etmişlər. **"...Allah yolunda mənim köməkçilərim kimdir?..."** [1, "Saff", 14], - deyə silahdaşlarına müraciət edən Allah Rəsulu (s) bizə böyük örnəkdir. **"Siz insanlar** üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız**..."** [1, "Ali-İmran", 110] və ya **"O kəslərlə birlikdə səbr et ki, səhər-axşam rizasını diləyərək Rəbbinə dua edirlər..."** [1, "Kəhf", 28] kimi ayələr də insanları birlikdə, vəhdət halında yaxşılığa dəvət edirlər.

Könüllü şəxslər sosial istiqamətdə inkişafa açıq olduqları üçün ilahi qanuna müvafiq olaraq istədiyi mükafatı əldə edirlər. Onlar həm fərdi, həm də kollektiv surətdə fəaliyyətlərinin məsuliyyətini, önəmini anlayırlar. Könüllülük fədakarlıq üzərində qurulur. Hər könüllü bilir ki, onun missiyası ehtiyac duyulan yerdə olmaqdır. O, mövcud problemin həlli yollarını düşünməli, bu istiqamətdə bilik və bacarığını səmərəli istifadə etməlidir. Fədakar könüllü boş deyil, ən qiymətli zamanını fəda edir. Altruizm məfhumunun mahiyyətinə varan könüllü artıq başqa cür xoşbəxt ola bilmir. Beləliklə, fədakar könüllü böyük empatiya duyğusuna sahib olmaqla yanaşı, altruistdir. İşini minnət deyil, böyük sevgi, şövqlə edir və xeyirxahları da bu işə sövq etməyin xoşbəxtliyini əldən vermir. Könüllü xeyir və yaxşılıq, gözəllik və insanilik fədaisidir. Həqiqətən, malı, canı, biliyi, gücü, hər şeyi ilə özünü qurban verir. İnsanın kimliyini özünə xatırladan və insaniliyi öyrədən "İnsan" surəsi onları belə təsvir edir: **"Onlar, özləri istədiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər"** [1, "İnsan", 8].

Qarşılıq gözləmədən çalışan könüllü istəsə və ya istəməsə belə, hər bir işdə, əlbəttə, özü də fayda götürür. Amma bu, maddi fayda deyildir. İnsanın ruh halı, daxili dünyasının genişliyi ona yüksək əhval-ruhiyyə verir. Sevdiyi və xüsusi zövq aldığı könüllü fəaliyyətdən yaranan yorğunluğun dadı da əvəzedilməzdir. Könüllü öz işinə olan inam və sevgisi sayəsində başqalarını da inandırmağı bacarır.

Həyatını insanlara xidmət etməklə keçirən Həzrət İbrahimin (ə) həyatına nəzər salaq. Görəsən büt düzəldən zəngin və tanınmış şəxslərindən birinin oğlu olan İbrahimi heç bir şeyə ehtiyacı olmadığı halda atasının mal-dövlətindən imtina etməyə hansı duyğu vadar edib?

Zəngin ailənin oğlunu əvvəlcə suallar və sonra axtarışları gündəlik həyat tərzindən ayırır. O, atasının düzəltdiyi bütlərin aləmin, yaradılmışların sahibi ola bilməyəcəyini idrak edir. Yeri-göyü, bildiyi və bilmədiyi hər şeyi yaradan ilahi qüvvəni axtarır. Suallar, axtarışlar onu ilahi gücü kəşf etməyə yönəldir. İbrahim təfəkkür yolu ilə mərifətin, hikmətin ecazını idrak edir. Mərifət mərtəbəsinə yüksəldikdən sonra artıq rutin həyat tərzinə davam edə bilmir. İbrahimin içində nə baş verir ki, rutin həyat tərzini dağıdıb, naməlum gələcəyə özünü atmağa hazır olur? İbrahim həqiqəti anladıqdan sonra ən böyük yaxşılığın həqiqətin paylaşılmasında olduğunu görür. Əlbəttə, zehni rüşeym halından inkişaf etməyən birinin qorxuları vardır, gündəlik məişətinin dağılmaması üçün düşünməməyə üstünlük verər. Lağ-lağı, bayağı həyat tərzi ona görə, daha rahatdır. Düşünmək azad zehniyyət, yenilik tələb edir, məlum doqmaları dağıdıb, yeni nizam yaratmaq isə çox mürəkkəbdir. Həzrət İbrahim (ə) mənəvi azadlığa qovuşur və onun insanlara ən böyük yaxşılığı bütləri sındırmaqdan başlayır. Çünki ən böyük yaxşılıq mərifəti öyrətməkdir. Mərifət bilməkdir, həqiqətdir, elmdir, seçimdir.

İbrahimin könüllülüyünü doğuran səbəb nə idi? O, hansı səbəb idi ki, İbrahim qorxularından əmin şəkildə alışdığı nizamı dağıtmışdı. Çünki İbrahim müşahidə və kəşf yoluyla ali həqiqətə çatmış, qəlbinin necə, harada, nə ilə məşğul olarkən hüzur və sükunətə çatacağını öyrənmişdir. Onun tanıdığı, öyrəndiyi ali güc sahibi heç bir qarşılıq gözləmədən yaxşılıq edir. Günəşi və Ayı tanıyan İbrahim Allahı da onların vasitəsilə tanıyır və özünü bilir, insanın missiyasını öyrənir. **“Mən cinləri və insanları Mənə ibadət üçün yaratdım”** [1, “Zəriyət”, 56] ayəsini yaşayır. Təbiət hadisəsi və qanunlarına şahid olan İbrahim onların mərifət və yaxşılıq üzərində qurulduğunu görür. Təbiətdə ən böyük dəyər faydalılıqdır. Düşünən insan düşünməyi öyrədəcək. Beləliklə, İbrahimin axtardığı və kəşf etdiyi həqiqət könüllülüyün dinamikasının səbəbi kimi dəyərləndirilir.

Könüllülük fəaliyyəti insanda empatiya duyğusunun oyanması ilə başlayır. Könüllü ətraf aləmə, insanlara qarşı biganə deyil, əksinə, çox mərhəmətlidir. Mərhəmət duyğusu insanın mənəvi zənginliyinin qapısı, empatiya isə bu qapının açarıdır. O, daxilən əziyyət çəkən insana xas olan eqoizm duyğusundan təfəkkür edən insana xas olan empatiya duyğusuna keçid edir. Belə bir insanın daxilində özünü unudub, başqasının dərdi ilə dərdlənmək kimi möcüzəvi qabiliyyət yaranır və maarifləndikcə qəlbdə laqeydlik, nifrət buzları əriyir, yerini rəsullara yaraşan altruistik duyğular tutmağa başlayır. O, artıq başqa cür yaşaya bilmir, alova atsalar belə, həqiqəti çatdırmaq, həqiqət naminə var olmaq bütün duyğularına hakim kəsilməyə başlayır. Kimsədən qarşılıq almadan, təmənnasız zəhməti və əməyi insanın həm fiziki, həm də mənəvi qidalanmasına (təfəkkür edə bilmək üçün zehninə aydınlıq gəlir) yardım edir. Beləliklə, könüllü fəaliyyət insanın ruhuna azadlıq bəxş edir. Könüllülük fəaliyyətinin hərəkətlilik sürəti isə kollektiv, mütəşəkkil fəaliyyət zamanı qarşılıqlı sevgi, anlayış və daxili inancın verdiyi motivasiyadan doğur.

Könüllülük insana yeni həyat fəlsəfəsi aşıladığı üçün axtarış və kəşf insanlarının müştərək keyfiyyəti olaraq onları bir-birinə bağlayır. Beləliklə, **“...Razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni öz mərhəmətinə saleh bəndələrinin zümrəsinə daxil et!”** [1, “Nəml”, 19] duası icra olunmağa başlayır. Eyni amal, məqsəd üzrə birləşən ailə, mühit, birlik

yaranır. Sosial varlıq olan insan ünsiyyət və sosiallaşma ehtiyacını da ödəyir. Könüllü insanlar öz istedad və bacarıqlarını kəşf etməklə yanaşı, bunları bölüşmək, paylaşmaq istəyirlər. Çünki bu paylaşma mənəvi dəyərlərə sahib insanın ehtiyacıdır. Öyrətmək də paylaşmaq kimi mənəvi ehtiyacdır. İbrahim hənif idi və tövhidi insanlara öyrətmək üçün canını ortaya qoymuşdu. Hər könüllü anlayır ki, ehtiyac sahibinə yardım etməklə, özünün də mənəvi, daxili ehtiyaclarını ödəmiş olur. Beləliklə, könüllü fəaliyyəti öz hədiyyəsini içində daşıyan bir hadisədir.

*Könül insanının devizi belə olur: "Xoşbəxt olmaq üçün xoşbəxt et!"*

Könüllünün çətinlikləri və sıxıntıları olurmu?

Könüllü çalışanlar xarici və daxili maneələrlə, əlbəttə, qarşılaşırlar. Bədr savaşında könüllü döyüşə gedən kimsənin qəlbində qənimət məqsədi yox idi. Savaş nəticəsində döyüş meydanında çoxlu sayda qənimətə şahid olan könüllü əsgərlərin məqsədlərində çat yaranır. Allah Rəsulunun (s) xəbərdaredici və ruhlandırıcı söhbətləri, təlimatları olmasaydı, səhabələr altruizmin verdiyi zövqdən məhrum ola bilərdilər. Uhud məğlubiyyətinin səbəblərindən biri də döyüş zamanı qənimət ola biləcəyini düşünən əsgərlərin mühafizə etməli olduqları yeri tərk etmələri idi. Beləliklə, təmənnasız çalışan könüllü daha sonra müvəffəqiyyət, məşhurluq, qısqanclıq və bu kimi nəfsani hisslərin ortaya çıxması ilə yanlış addımlar ata bilər. Əlbəttə, xeyirdə yarış fəaliyyət üçün önəmli faktordur. Yuxarıda qeyd etdiyimiz kimi, maddi maraq deyil, mənəvi həzz əsas hədəf olduğu üçün könüllü işi peşəkarlıq səviyyəsini ötür.

"Bir qrup könüllü arasında apardığımız sorğular zamanı məlum oldu ki, könüllülər könüllü olmayanlarla müqayisədə daha xoşbəxtdirlər. Həyatlarından razı olmaları, bu xoşbəxtlik həzzi maddi qarşılıqdan daha çox, başqalarına faydalı olmağın insana yaşatdığı özəl duyğudan irəli gəlir. Məhz elə bu duyğu – heç bir könüllü bunu sözlə ifadə edə bilməyəcəyini bildirir – insanın qazandığı ən böyük hədiyyədir.

Beləliklə, başqalarına yardım etmək insanın daxilindəki ilahi duyğudan qaynaqlanır. Deyirlər ki, xoşbəxtliyin sirri etdiyin yaxşılıqları və sənə olunan pislikləri unutmaq, sənə olunan yaxşılıqları və sənin etdiyin pislikləri unutmamaqdır. Bu, əlbəttə, bir koddur, ilahi başlanğıca aparan ruh halıdır.

"Mərifəti əmr etmək", "yaxşılıqda yarışmaq" kimi ilahi çağırışlar insanın mayası, özünəqayıdış, fitrətinə dönüş, daxili dünyada gizlədilmiş gövhər xəzinəsinin xəritəsidir. Xəzinənin xəritəsini əldə edənlər fayda verdikləri insandan əvəz gözləməz, təşəkkür hissindən də həya edərlər. Bununla bağlı insanın dəyərini və vəzifəsini anladan "İnsan" surəsi belə bir ismarış verir: **"Sizi ancaq Allahın razılığı üçün yedirdirik. Sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik"** [1, "İnsan", 9].

Allah vicdan adlı bir gövhər bəxş etdiyi insanı gözəl yaratmışdır. **"Biz insanı ən gözəl biçimdə yaratdıq!"** [1, "Tin", 4]. Gözəllikdən yaranmış insan gözəlliklər bəxş etdikcə özü də gözəlliyin fərqində olur. Necə ki yaxşılıq edə-edə insan yaxşılığa çevrilir və başqa cür yaşaya bilmir. Çünki insanın daxilinə gözəllik ehtiyacı yüklənmişdir. Bu ehtiyac insanda gözəl ideyalar, məqsədlər, zövqlər, baxışlar, duyğular, həyəcanlar, istəklər, arzu və xəyallar doğurur. Gözəl görmək, gözəlliyə can atmaq. Əlbəttə, vicdanın və ağlın inkişafına, azadlığına uyğun olaraq gözəllik də nisbi məfhum daşımağa başlayır. Zahiri gözəlliklə batini gözəlliyin nisbəti yaranır.

Beləliklə, gözəlliyi yaymaq, yaxşılığa çağırmaq, xeyir işlərdə nümunə ola bilmək "mərifət nədir" sualına axtarılan cavabdır.

İnsan yaradılış etibarilə çox zəngindir. Onun ən böyük ehtiyacı içindəki zənginliyi ortaya çıxarmaqdır. Mərifət limanına şahid olan insan nəinki buradan ayrılmır, hər kəsi buraya dəvət etməklə, ali xoşbəxtliyin dadından xəbərdar olur və bunun üçün İbrahim kimi alova atılmağa hazır vəziyyətə gəlir. Könüllülük fəaliyyəti insanın fitrətindəki xəzinəni kəşf etmək üçün ən böyük fürsətdir. Gözəllik yaratmaq uğrunda bir yerə toplaşmış könüllü insanlar bir könüldə birləşirlər. Bunu da İlahi Kitab bu şəkildə təsvir edir: **"Ey Rəbbim! Mənə hikmət bəxş et və məni salehlərlə qovuşdur!"** [1, "Şuəra", 83].

Beləliklə, qəlbləri Yaradan könül insanları arasında da ülfət bağı yaradır. **"...O sizin qəlblərinizi birləşdirdi..."** [1, "Ali İmran", 103]. Özləri də bilmədən qəlbləri bir-birinə bağlanır, bir bədən kimi formalaşırlar. Və **"İman gətirib yaxşı işlər görənlər üçün Rəhman (qəlblərdə) bir sevgi yaradacaq"** [1, "Məryəm", 96] ayəsində deyildiyi kimi, onlar sevgiyə şahid olub insanlığa salam və sevgi yayırlar. İnsanlar anlamasa belə, onlar öz yaxşılıqlarından əl çəkmirlər. "Hər kəs özündə olandan xərcləyər" prinsipinə görə sınmadan sevgi, yaxşılıq, gözəllik, mərifət, elm, salam fədailərinə çevrilirlər. Salam olduqları üçün İbrahim kimi onlara da atəş sərin gəlir. **"Biz də dedik: Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!"** [1, "Ənbiya", 69].

Könül insanının düşüncə tərzinin hərəkətə keçməsi üçün doğrunu görən, bilən və nümunə olan insana ehtiyac var. Mənəvi dəyərlərdən başlayaraq yaxşılıq fəlsəfəsini anladan və həyatında əks etdirən insanlar cəmiyyətin lokomotivi, elçisi və carçısıdır. Hər kəs öz içindəki gövhəri kəşf etməli, gözəllik və mərifət carçısı vəzifəsilə yüklənməlidir. Daxili nizam-intizam və məsuliyyət duyğusu ilə öyrənməli, tədqiq etməli, araşdırmalı, kəşf etməli və könül işinin dinamikasını daha geniş müstəviyə çatdırmalıdır. Yer kürəsi silkələnməsin deyə, dağlarla onu sabit tutan Yaradan insanı dağların belə qaldıra bilməyəcəyi yüklə yükləsə də, onlar qəlblərinə enən mərifət və həqiqət adına yorulmadan, geri çəkilmədən, yükləri daşıyaraq ibrət olmuşlar. Xoşbəxtlik üçün yaranan insanlar dünya buxovunu qıraraq düşüncə tərzini dəyişmiş və həqiqi xoşbəxtliyi dadmışlar. Beləliklə, "əsl xoşbəxtlik - başqalarının xoşbəxtliyində öz xoşbəxtliyinə şahid olmaqdır" şəklində tərif edilmişdir.

İbrət üçün göndərilənlərdən ibrət alan insan araşdıracaq, tədqiq edəcək, suallar verəcək, sualların cavabının təbiətdə mövcudluğuna şahid olaraq, xəzinəni taparaq, "mən bunu etməliyəm" – deyərək insanlığın rifahına çalışacaqdır.

İnsan əməllərinin müsbət nəticəsinə şahid olduqca həvəsi artır, əzmi güclənir. Daha əzmli qəlb insanı isə fəaliyyətinin cəmiyyətdə necə dəyişiklik yaratdığına şahid olduqca qorxuları onu tərk edir, müqaviməti güclənir. İlahi kitabların məntiqinə görə, yaxşı işlər görənlərin mükafatı verilir və onlar qorxu, fobiya kimi duyğulardan xilas ola bilirlər. **"**İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin Rəbbi yanında mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!**"** [1, "Bəqərə", 277].

Nəticə olaraq belə qənaətə gəlirik ki, insanın şüurlu surətdə ədaləti, gözəlliyi təsdiq edə bilməsi üçün ilahi əmrlərə itaət etməklə, könlünü doğru müstəviyə yönəldə biləcək. Beləliklə, İslam dininin ana qaynağı olan Qurani-Kərim insanların könlünə sirayət etməklə mənəvi

zənginliyə can atan insanlara diqqət çəkir. Könüllülük insanın daxili ehtiyacı olduğu üçün Yer üzündə yaxşılığın, gözəlliyin yayılmasında əvəzedilməz rol oynayır. Qurani-Kərim insanı düşünməyə dəvət edir, odur ki, könüllülük düşüncə, yanaşma tərzi olduğu üçün insan, ilk növbədə, düşünməyi öyrənməli və öyrətməlidir. Həqiqi missiyasını anlamaq üçün könüllü öz hərəkətləri üzərində hər an dərindən düşünməli, müşahidə aparmalı, öz qabiliyyət və bacarıqlarını kəşf edə bilmək üçün başqalarına bu istiqamətdə faydalı olmalıdır. Bütün məqsəd və niyyətlər ilk düşüncə və müşahidə ilə başladığından könüllü insan hər addımına görə vicdanına hesabat verməlidir. Çünki könülü diri saxlayan dirilik suyunun yerini təfəkkür, müşahidə, mütaliə ilə diri qalan vicdan göstərər.

## ƏDƏBİYYAT


**1.** Qurani-Kərim. Tərcümə edən: Əhməd Didin. İstanbul, 2012. 610 s.

**2.** Buxari Əbu Abdullah Məhəmməd ibn Əbülhəsən İsmayıl. Səhih əl-Buxari.

Егяна Мирзоева

## ВЗГЛЯД НА ПРОБЛЕМУ ДОБРОВОЛЬЧЕСТВА В КОНТЕКСТЕ КОРАНА

### РЕЗЮМЕ

С момента сотворения человечества человек находится в духовном поиске. История волонтерства также начинается с самосознания. Волонтерство присуще человеческой натуре. Коран также указывает, что создание вселенной основано на принципе добровольчества. Если человек, который является частью вселенной, следует общему порядку и занимается волонтерской работой он станет свидетелем любви и счастья.

Yegana Mirzayeva

## A VIEW ON VOLUNTEERING IN THE CONTEXT OF KORAN

### SUMMARY

From the moment of humanity's creation man is in a spiritual quest.The history of volunteering also begins with self-awareness.Volunteering is inherent in human nature. Quran also indicates that universe's creation is based on the principle of volunteering. If a person, who is a part of the universe, follows the general order and does volunteer work, he will witness love and happiness.

# АЗЕРБАЙДЖАН, КАК НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ИСЛАМСКОЙ ЦИВИЛИЗАЦИИ

***Самира МИР-БАГИРЗАДЕ,***
*Доцент (культурология и религиоведение),*
*кандидат филологических наук, ведущий*
*научный сотрудник отдела «Культурология»*
*Института Архитектуры и искусства НАНА*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, Арабский халифат, символы, Албания (Арран), Ширваншахи, исламская культура, цивилизация.*
***AÇAR SÖZLƏR:*** *Azərbaycan, Ərəb xilafəti, rəmzlər, Albaniya (Arran), Şirvanşahlar, İslam mədəniyyəti, sivilizasiya.*
***KEY WORDS:*** *Azerbaijan, Arabian khalifat, symbols, Albaniya (Arran), Shirvanshakh, Islamic culture, civilization.*

Арабские завоевания в Азербайджане укрепили новую религию - ислам (в Южном Азербайджане большинство составляли зороастрийцы, Албания исповедовала христианство, а на севере хазары - иудаизм), который исповедуется и по сей день в этой стране. Главной целью арабов в начале их завоевания было признание политической власти, т.е. политическое подчинение, регулярная выплата налогов и идеологизация ислама. По сообщению анонимного сирийского христианина, первый халиф Абу Бакр приказал своим воинам перед началом похода: «Когда вы войдёте в эту землю, не убивайте ни старого, ни малого, ни женщины, не обижайте отшельников, потому что они предали себя Богу, чтобы работать ему… Всякий город и народ, который примет вас, заключайте с ним договор, будьте верны в обещаниях им, пусть они живут по своим законам и по установлениям бывшим у них до нашего времени. Установите подать как границу, которая есть между вами, чтобы они оставались в своей религии и в своей земле. Те, что не примут вас, ведите в ними войну» [1, с.274]. При заключении договора чётко указывалось на право покорённых сохранять свою веру; арабы уважительно относились к людям Писания (иудеям и христианам). Терпимое отношение к местным религиям содействовало в VII-VIII вв. мирному распространению ислама, особенно среди зороастрийцев, т.к. очень многое сближало его с исламом (пятикратная ежедневная молитва, обязательность подаяния). Принимая ислам, зороастриец разом освобождался от многих и сложных церемоний и обязательств, которые от колыбели и до могилы регламентировали его жизнь и привязывали к жрецам. «С завоёванными зороастрийцами, исходя из большой численности, приходилось обращаться как с зиммии (покровительство мусульманами «людям писания»)» [2, с.175-176]. Но процесс исламизации в Азербайджане был длительным, это было связано с тем, что арабы

вели свои наиболее ожесточённые сражения с нападавшими с территории Дагестана хазарами.

Междоусобицы в период начальных завоеваний Арабского халифата заставили феодалов Закавказья принять византийскую направленность. Джаваншир (635-669) проводил очень тонкую политику, защищая интересы Албании от посягательств Византии, а также Арабского халифата. Племянник и преемник Джаваншира - князь Вараз-Трдат (670-699), продолжил его идеи. С самого начала он стал оберегать свою страну от нашествий хазарского кагана, послав в ответ кагану - албанского каталикоса Елизара, сумевшего установить дружеские отношения с ним. Но в 681 г., когда Закавказье подверглось очередному опустошению со стороны хазарских войск, Вараз-Трдат вновь направил посольство, прошедшее через труднодоступные ущелья Дагестана и прибывшее в столицу савиров в феврале 682 г., к князю савиров, вассалу хазарского кагана - Али-Илитверу, и заключило с ним мирный договор. Страна нищала от постоянных поборов: налогов Хазарскому кагану, Византии и Арабскому халифату. В самом начале VIII в. арабы стали полноправными хозяевами Албании, уничтожив всех сторонников Византии, и расправились с самими византийцами, забрав в плен албанского князя, а в 713 г. полководец халифа Маслама оттеснил хазар от албанских границ и взял Дербент. Албания вошла в состав административной единицы провинции халифата. Арабские авторы называли Албанию *Арран.* Местные правители и в Атропатене, и в Албании назначались халифом.

Важнейшие стратегические пункты Азарбайджана были заняты арабскими гарнизонами. Здесь создавались поселения арабских ветеранов, содержавшихся за счёт окрестного населения. Самый большой гарнизон-24 тыс. арабов из Сирии, находился в Дербенте. Арабы поселялись и в других местах северного Азербайджана. Одновременно арабы создавали отдельные военные лагеря, которые превращались со временем в города.

В Северном Азербайджане существовало государство Ширваншахов, которое процветало в эпоху исламской цивилизации. Государство Ширваншахов, возникнув в III веке, играло важную роль в эпоху Средневековья. Каждый правитель Ширвана внёс свой вклад в процветании государства Ширваншахов.

О предыдущих царях Ширвана практически нет источников - полное сведение о них можно встретить у арабских учёных средневековья (Табари, Ибн-Хаукаль, Балазури, Аль-Истахри, Худуд – ал-Алем, ал-Масуди, Абу-Дулаф, Аль-Бируни, Абу Хамид ал-Андалузи ал-Гарнати).

Первое имя, сохранившееся до арабских завоеваний - это Ширваншах Шахрияр, который в 643 году принял ислам. Жители Ширвана, отказавшись от зороастризма, также приняли религию арабов. Шахрияр покорился арабам и попросил мира при условии, если не будет платить дань, а употребит её на содержание войска для защиты границ от набегов кочевников, идущих с севера. Это требование Шахрияра было отослано через военачальника Сураке ибн Амра второму халифу Омару, который согласился на это условие. Во времена владычества арабов Ширваншахи не платили дань - об этом

пишет Табари [3, p.2663-2664; 4, c.12; 5, c.37] в конце IX - начале X вв. Исходя из фактов, можно предположить, что и в период правления Сасанидов Ширваншахи также могли не выплачивать дань. В период правления Шахрияра строятся первые мечети на месте старых зороастрийских храмов.

Ширваншах Йезид бин Мазьяд положил начало новому роду Ширваншахов – *Мазьядидов.* Ширваншах Хайсам бен Халид, как и все Ширваншахи, был прекрасным полководцем. Столицей его владений были Шемаха и Дербенд. Ширваншах Фарибурз I ибн Саллар был великим государственным деятелем, объединившим весь северный Азербайджан, включая Карабах и Гянджу, а также Дагестан – Кумык, Сулвар и Осетию. Он был основателем и покровителем Ширванской Академии, в которой работали известные учёные Востока, в продолжение ему Ширваншах Манучехр III усилил деятельность этой Академии. Он собрал вокруг себя известных поэтов, учёных, философов и богословов Ближнего Востока, была создана азербайджанская школа поэзии во главе с Абу-л-Ула Гянджеви, Хагани Ширвани, Фелеким Ширвани. Золотым веком Ширвана называют правление Манучехра III и его сына Ахситана I. Во времена шаха Манучехра III была построена крепостная стена города Баку, об этом свидетельствует надпись на её стенах «Приказал построить эту городскую стену царь возвеличенный, премудрый, справедливый, победоносный, побеждающий, воитель за веру, гордость религии и державы, опора ислама и мусульман, Хакан, величайший Ширваншах Манучихр ибн..» [6, c.136]. Сын Манучехра III - Ахситан I (он основал род *Кесранидов*) также был меценатом науки и искусства, его период правления характеризовался высоким экономическим взлётом. В 1192 году после землетрясения в столице Шемахе и разрушения этого города, который был резиденцией Ширваншахов, шах переносит столицу в город Баку. С того времени этот город становится столицей Ширваншахов, одноимённого Ханства, Азербайджанской Республики. Особое внимание Ахситан I уделяет укреплению города Баку. Известный поэт Хагани, работавший при дворе Ахситана I, отмечает в своей касыде значение города Баку, как неприступной крепости:

«Благодаря его благословению Баку сегодня
Подобен Бестаму в Хаваране (Хорасан)»
(перевод *С.Ашурбейли)* [6, c.114].

В период его владычества строятся башни и крепости, он достраивает в 1175 году Девичью башню, а в 1187 году строит четырёхугольную башню в Мардакянах.

Государство Ширваншахов достигло своего расцвета в XII веке, в период исламской культуры, когда процветали во всех уголках исламской цивилизации медресе, университеты, академии наук, в том числе и Даруль-улум в Ширване, где на самом почётном месте была медицина, химия, фармакология, философия, история, музыка, изобразительное искусство, политическое искусство - сиясятнаме, военное искусство, астрономия, математика, строительство.

Ширванская Академия процветала во времена царей Ширвана Ферибурза I ибн Салари, Манучехра и Ахситана I. Во времена Ширваншаха Фарибурза I Ширванской

академией заведовал и управлял видный учёный Ширвани - Кафиаддин Омар ибн Осман. Он изучил научные достижения турецкой, арабской, фарсидской науки, обобщил взгляды греческой и римской философии, византийской политики, исследовал литературные и научные достижения соседних государств. Деятельность учёных Ширвана сыграла огромную роль в укреплении государства Ширваншахов в период исламской цивилизации. Во времена шаха Ферибурза I (1063-1096) в стране главенствовал мир, были построены дороги, мосты, проведены каналы, мощные и стойкие здания, появилась профессиональная кадровая база, обеспечивающая население высоким и качественным образованием, лечением, дающая возможность учёным развиваться и приносить пользу стране - всё служило интеллектуальному развитию общества. В Медицинской академии Ширвана, возглавляемой Кафиеддином Ширвани, работали учёные и врачи, внёсшие немалый вклад в медицинскую науку: были изучены около 8 тысяч растений, в том числе до 4 тысяч цветов, и употребление их в качестве лекарственных растений. В народной медицине было известно более 3500 видов лекарств. Сам Кафиеддин Ширвани написал фундаментальную работу «Тибб-е набави», не дошедшую до нас. Он, совместно с Вахтаддин Садигом, доказали лечебную роль минеральных вод в Ширване, а также о способах их применения [7, с.56-84]. Омар Осман в результате своих исследований пришёл к выводу о том, что источником многих болезней служит неправильное питание, он считал, что в лечении сердечных болезней необходимо держать диету (шербет, сладкое вино, мёд, фруктовые соки, дошаб), а при заболевании почек необходимо питаться вареной тыквой, морковью на меду или дошабе, пить сок винограда. В Медицинском центре Ширвана работали такие учёные, как Ширвани Махмуд ет-Тебиб, Ширвани Гасан Рза. В произведении Ширвани Гасан Рза «Сираджут-тибб» представлены разнообразные лекарства и их применение на практике.

Несмотря на ограниченный материал, благодаря монетам, сохранившимся в период их правления, можно сделать вывод о том, что эти правители, если даже они выступали вассалами всесильных государств, сохранили свою независимость и смогли просуществовать на протяжении более 1000 лет до 1549 года (когда наступает эпоха Сефевидов). Они имели свой собственный монетный двор, армию, флот, были прекрасными дипломатами, дальновидными политиками, оберегали свой народ от разрушительных набегов, вступая в союз с арабами, тимуридами, объединяя разрозненные государства в единое целое.

«Во время завоевания Азербайджана Арабским халифатом, правителями области Ширван, куда входили Баку, Шемаха, Дербенд и другие города, были Ширваншахи, сведения о которых у арабских авторов имеются, начиная с IX века. (Ибн-Хордадбек (Ширьян шах)), Аль-Базури и Ма’суди (царь Ширвана, именуемый Ширван шахом). Титул «шах», которым он (Хосроф Анушириван) наделил правителей пограничных областей, свидетельствует о значительной самостоятельности этих феодалов, владеющих крупной земельной собственностью. Эта группа могущественных феодалов участвовала в собраниях при дворе сасанидского царя - Шахиншаха» [8, с.571].

Титул «Ширван-шах» с персидского языка (*перс.* شروانشاه) обозначает «львиный шах». Символы Ширваншахов – львы - встречаются на различных постройках древнего Баку: башенные камни с надписями из затопленного города Сабаил, где изображены различные звери, в том числе и лев с арабскими надписями; изображение четырёх львов геральдического характера на минарете Джума-мечети, а также на стене, разрушенной в 1886 году, в которой изображены два льва, между ними – голова быка.

При арабах и монголо-турецких правителях Ширваншахи занимали важную позицию и охраняли свое государство, породнившись с главенствующими правителями, смешивая свой род и с фарсами, и с арабами, и в дальнейшем с турками - Мазьядиды, Кесраниды, Дербенди - они просуществовали до XVI века, пока другая власть не сменила их. Несмотря на набеги и войны, они оберегали жителей Ширвана своей дальновидной политикой и держались длительное время на своём посту.

Государство Ширваншахов во все времена своего существования стремилось быть независимым, несмотря на вассальное положение. Ширваншахи были прекрасными политиками и дипломатами в период завоеваний и нашествий формировавшихся империй исламской цивилизации.

В XI-XII вв. в Азербайджане тюркский язык стал доминирующим, сменив повсеместно древние наречия. Если при арабах часть населения перешла в мусульманство, то в период правления сельджуков ислам распространился повсеместно, где главенствующую позицию занимал сунизм.

Сохранению ислама как религии во времена монголов принадлежит суфиям – их авторитет был очень высок среди мусульманского населения и даже у самих монголов. В период монгольских завоеваний суфии спасли ислам и дали толчок для его дальнейшего развития [9, с.63-65].

В Азербайджане распространение ислама проходило с самого начала в мирных условиях, как отмечалось выше, путём мирных договоров. Культура ислама, вводимая в разные страны, была миролюбивой, что отмечалось и в работах У.М.Уотта, А.Метса, В.В.Бартольда. В Грузии и Армении не были тронуты церкви, а в Азербайджане албанские христианские церкви просуществовали вплоть до XIX века.

Распространение ислама в Азербайджане привело к политической стабильности. Начинает развиваться городская культура, мусульманские города превращаются в культурные и политические центры, развивается искусство, земледелие, торговые связи, создаётся превосходная иррагационная система, расширяется морское дело. Развитие экономики приводит к ускоренному развитию таких наук в Азербайджане, как география, математика, геометрия, астрономия. Деятельная культурная жизнь приводит к расцвету научной деятельности в мечетях и медресе при мечетях. Здесь ведутся исследования в области естественных наук, религии и философии. В целом, исламская культура объединяет в себе и эллинскую, и зороастрийскую, и тюркско-хазарскую (пророк Хизр) и сасанидскую культуры в этом регионе.

В средние века в период исламской цивилизации в Азербайджане развиваются три

языка: арабский, фарсидский и турецкий (азербайджанский). Среди местного населения и в деловой сфере был распространён турецкий язык, в литературе был утверждён статус фарсидского языка, который долго держался; в пропаганде религии и его изучения использовался арабский язык. Научные работы писались на арабском и фарсидском языках. Это объяснялось интеграцией культур. В Азербайджан приезжали арабы и персы, а из Азербайджана: Гянджи, Барды, Бейлагана, Ширвана, Нахичевана, Дербенда - выезжали в Дамаск, Багдад, Каир, Александрию, Медину - большое количество учёных, поэтов, архитекторов, теологов. Во времена Сефевидов усилилась такая миграция в целях освоения новых и передачи собственных знаний, потому что Азербайджан был неотъемлемой частью исламской цивилизации. В этот период в Азербайджане была развита философия, среди известных философов были Шихабеддин Марагаи, Шихабеддин Яхья Сухраверди, Афзаяддин Хунаги, Сираджаддин Махмуд, Ибн Абу Бекр Урмави, Наджиеддин ибн Омар ибн Али Газвини, Авхади Марагаи, Махмуд Шабустари и др.

В Азербайджане широкое развитие получило книжное искусство. В составлении книги принимали участие каллиграфы, художники, мастера узоров (лаввахи), составители таблиц, переплётчики и др. специалисты. Азербайджанцы применяли в своём творчестве различные виды арабского письма - куфи, насх, рейхани, рукаи, та’лиг, наста’лиг. Почерк наста’лиг (XIV-XV вв.) был изобретён азербайджанским каллиграфом Мирали Тебризи на основе соединения почерков та’лига и насха. В тебризской миниатюре одним из лучших представителей были азербайджанцы Султан Мухаммед, Садиг Бек Афшар.

Известные поэты Азербайджана Хагани, Низами, Насими и Физули в своих произведениях отразили целостность исламской культуры. Культура Азербайджана обогатила исламскую цивилизацию неповторимыми индивидуумами.

Влияние мусульманской культуры оказало огромное воздействие на культурный уровень Азербайджана. Ислам объединил в себе различные пласты национальных культур, его влияние сказывается и в архитектуре, и в искусстве, и в других отраслях человеческой деятельности, в частности, науки Азербайджана. Ярким примером тому могут быть такие имена, как Наср ад-Дин Туси, Абульгадир Марагаи и другие. Пройдя столетия, исламская цивилизация оставила свой неизгладимый след в культуре Азербайджана, сохранив свой неизменный статус - это отражается и в государственной атрибутике (одна из полос, изображённая на флаге азербайджанской республики, окрашена в зелёный цвет, что символизирует цвет ислама (цвет флага фатимидов - потомки пророка Мухаммеда и его дочери Фатимы, которые заселились в Азербайджане, и в частности, на Апшеронском полуострове, их могилы считались святыми местами и охранялись властями на протяжении многих столетий: во времена Ширваншахов - мавзолей (тюрбе) Сеид Яхья Бакуви (Ичери-Шехер), в дальнейшем - мечети Биби Эйбат (недалеко от Баилова), Мир Мовсума (Шувелен) - это отголоски тюрко-монголо-китайской культуры, где почитается поклонение предкам и их душам), и в мышлении, и в сфере деятельности.

# ЛИТЕРАТУРА


1. Пигулевская Н.В. Византия и Иран на рубеже VI и VII веков. М.-Л.: 1946.
2. Мэри Бойс. Зороастрийцы. Верования и обычаи. М: «Наука», 1988.
3. Tabari. Annales, ed. De Goeje, s.1, Lugduni Batavorum,1893.
4. Ибн ал-Асир. Тарих ал-Камиль. Пер.: П.К. Жузе. Баку: 1940.
5. Бакиханов А.А. Гюлистан-Ирам. Баку: 1926.
6. Ашурбейли С. Очерк истории средневекового Баку. Баку: Изд-во Академии Наук Азербайджанской ССР, 1964.
7. Эфендиев И. История медицины в Азербайджане с древнейших времён до X1X в. Баку: Изд-во Академии Наук Азербайджанской ССР, 1964, 270 с.
8. Ашурбейли С. История города Баку. Изд-во Абилов, Зейналов и сыновья, 2006.
9. Юнусов А. Ислам в Азербайджане. Баку: 2004.
10. Мир-Багирзаде С.А. Культура исламской цивилизации (Средние века). Баку: Элм, 2011, 250 с.
11. Мир-Багирзаде Ф.А. Роль, место и значение символов в познании. Баку: Элм, 2011, 300 с.

Samirə Mir-Bağırzadə

# AZƏRBAYCAN - İSLAM SİVİLİZASİYASININ AYRILMAZ HİSSƏSİ KİMİ

## XÜLASƏ

Tədqiqatın əsas məqsədi İslam mədəniyyətinin Azərbaycan mədəniyyətinin formalaşmasındakı tarixi əhəmiyyətini açmaqdır. Bu baxımdan məqalə İslam sivilizasiyasının ayrılmaz hissəsi kimi Azərbaycanın öyrənilməsi məsələsinə həsr edilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycanın görkəmli mədəniyyət, ədəbiyyat, elm nümayəndələri İslam sivilizasiyasını zənginləşdirmiş, öz növbəsində, müsəlman mədəniyyəti də Azərbaycanın mədəni səviyyəsinə çox böyük təsir göstərmişdir.

Samira Mir-Bagirzadeh

# AZERBAIJAN, AS AN INTEGRAL PART OF AN ISLAMIC CIVILIZATION

## SUMMARY

Article is devoted to a problem of research of Azerbaijan, as to an integral part of an Islamic civilization. The culture of Azerbaijan has enriched an Islamic civilization unique Individuality.

The islam has united in itself various layers of national cultures, its influence affects both in a science, and in art, and in other branches of human activity of Azerbaijan. Vivid example to that can be such names, as Nasr ad-Din Tusi, MirAli Tebrizi, AbulGadir Maragai and others.

The basic purpose of research - to open the historical importance of an Islamic civilization in formation of culture of Azerbaijan.

# ŞƏRQ FƏLSƏFƏSİNİN DÜHASI

***Afaq İMANOVA,***
*AMEA-nın Fəlsəfə İnstitutu*
*"Davamlı inkişafın fəlsəfəsi"*
*şöbəsinin kiçik elmi işçisi*

***AÇAR SÖZLƏR:*** *Nəsimi, Nəsimi fəlsəfəsi, kamil insan, Allahla insan vəhdəti, Həqiqət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Насими, философия Насими, совершенный человек, единство человека с Аллахом, Правда.*
***KEYWORDS:*** *Nasimi, philosophy of Nasimi, complete man, unity of man with Allah, Truth.*

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir-şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu mənada dünya mədəni sərvətlər xəzinəsində xüsusi yeri olan Nəsimi yaradıcılığı elmi-fəlsəfi fikrin diqqət mərkəzindədir.

"Zərrədə günəş" axtararaq varlığın bir vücuddan yarandığını deyən Nəsimi insanı və onun qüdrətini bənzərsiz şəkildə tərənnüm etmişdir. Bu barədə Mixael Hess öz tədqiqatlarında yazır ki, "alman fəlsəfə tarixində Nitsşenin özünəməxsus yeri var. Bu baxımdan, onu Nəsimi ilə müqayisə edə bilərik. Nəsimi də Azərbaycan təfəkkür tarixinin böyük şairidir. O, dövrü üçün təhlükəli olan yeni üsyankar təfəkkür, düşüncə gətirdi. Nitsşedə də eyni hadisə təkrarlandı. Lakin fərqli tərzlərdə…"

İnsan haqqında düşüncənin zaman və məkan çərçivəsinə, qəfəsə sığa bilməməsini şair-filosof gur səslə bütün dünyaya elan edir. "Cisim və can" mücəssəməsini yerdən göyə ucaldaraq onun surətində, varlığında böyük mənaların gizləndiyini bildirir [1, s.6].

2017-ci ilin may ayında Parisdə UNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə "Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı" təntənəli şəkildə keçirilmişdir. Festivalın keçirildiyi dörd gün ərzində Bakı və Şamaxıda ölməz şairin həyat və yaradıcılığına həsr edilmiş müxtəlif tədbirlər - sərgilər, ədəbi-bədii gecələr, musiqili kompozisiyalar, simpoziumlar, mühazirələr, seminarlar və s. təşkil olunmuşdur. Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə 2018-ci il noyabr ayında Moskvada da "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" təşkil edilmişdir. Festival çərçivəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) Nəsiminin büstünün açılış mərasimi olmuş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda (MDU AAÖİ) "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi - praktiki konfrans keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il noyabr

ayının 15-də "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu il yanvar ayının 11-də "Azərbaycan Respublikasında 2019-ilin "Nəsimi ili" elan edilməsi haqqında" imzaladığı sərəncamlar dövlət başçısının ədəbiyyata, mədəniyyətə verdiyi yüksək dəyərin növbəti parlaq nümunəsidir.

Akademik Teymur Kərimli "Nəsiminin humanizmi" adlı məruzəsində qeyd edir: "Antik fəlsəfi-sosial fikrin təsiri altında İslam aləmində yüksək səviyyəyə çatmış humanist istiqamətli bədii-fəlsəfi yaradıcılıq XII yüzillikdə Azərbaycanda Nizami irsi ilə özünün zirvə nöqtəsinə yetişdi. XIV yüzillikdə İslam filosof və şairləri insanların itirilmiş ümidlərini özlərinə qaytarmağa, onların taleyin əlində köməksiz oyuncaq olmadıqlarını, əksinə, öz talelərinin hakimi olduqlarını təlqin etməyə və inandırmağa başladılar. İslam Şərqinin hər üç hakim dilində - ərəb, fars və türk dillərində humanist ruhlu əsərlər qələmə alan ən böyük sənətkarlardan biri də dahi İmadəddin Nəsimi oldu".

Berlin Azad Universitetində "İmaddədin Nəsimi irsi" fundamental araşdırmasını apararaq 2005-ci ildə doktorluq dissertasiyasını müdafiə edən nəsimişünas alim, filologiya üzrə elmlər doktoru Maykl Reynhard yazır: "Nəsiminin, demək olar ki, əksər şeirlərində Quran, hədislər kimi islami mənbələrdən sitatlar var, hər qəzəlində İslam ənənəsindən nümunələr var. Lakin "Nəsimi "İslamı"nın haradan başlayıb harada bitdiyini söyləmək, məncə, o qədər asan iş deyil..."

"Ayətim bundan öncədir, ayəti-şana sığmazam" – deyən şairin təbliğ etdiyi təlim insana yönəlmişdir. Humanizm, insana məhəbbət, mükəmməl insan konsepsiyası bu təlimin əsasını təşkil edir. Nəsiminin nəzərində insan fəal yaradıcı qüvvədir. Ali mərtəbəyə çatmış kamil insan şairin gözündə Tanrının Yer üzərindəki bir nümayəndəsi kimi cilvələnir və böyük mütəfəkkir fəxrlə deyir ki, insanlar onu – kamil insanı yalnız qorxduqlarına görə, Tanrıya şərik çıxarmamaq üçün Haqq (Allah) adlandırmırlar. Bütün insanlar Tanrı dərgahında bərabərdirlər, dini-ideoloji baxışlarına və əqidəsinə görə heç kimin başqasından üstünlüyü yoxdur [2, s.3].

Cəmi 48 il ömür sürmüş, Azərbaycan, fars və ərəb dillərində böyük və zəngin ədəbi irs yaratmış İmadəddin Nəsiminin şeirlərində ifadə olunan yüksək humanizm, dünyəvilik, mənəvi kamillik, ictimai ədalət və ilahi eşq ideyaları zamanı daha da irəli aparan çağırışlardır [3, s.6].

Dini təlimin əsas tələblərindən kənara çıxan fikirləri təbliğ etdiyinə görə Nəsimi Suriyanın Hələb şəhərində edam edilmişdi. O, əslində qatı dindar olub. Nəsimi Allahı nəinki inkar etməyib, əksinə, öz varlığını Allaha qovuşduraraq yox etməyə çalışıb. Onun dünyagörüşünə məşhur ilahi eşq şairi Mənsur əl-Həllacın (859-912) "Ənəlhəq" (Mən Həqiqətəm) təliminin həlledici təsiri olmuşdu. Nəsimi göstərirdi ki, insan öz mənliyindən imtina edib Allahla birləşəndən sonra yalnız bir Mən - Allah qalır. Onun əsərlərində "Haqq" (Allah) ilə "cümlə aləm" arasındakı vəhdət üçün "İnsan" (Mən) anlayışı vasitə olur. İnsan ən geniş mənada Allah, həm də "cümlə aləm"dir. Lakin hər insan yox, ən kamil, təmiz mənəviyyata sahib olub, ilahiyyata qovuşan insan belə çıxış edə bilər. Belə "Mən" Haqq" (Allah) ilə eyniləşdirilir [4, s.116-117].

Etiraf edək ki, Nəsiminin yaşadığı dövrdə İslam dini adı altında insanların ağlı, zəkası, dünyagörüşü alt-üst edilir, korlanırdı. İslam pərdəsi arxasında fanatizm, xurafat və cəhalət yayılırdı. Nəsimi öz fəlsəfəsində insan şəxsiyyətinin azadlığına xüsusi qiymət, ağıla, idraka daha çox önəm verir, insanı hər şeydən uca tutur, bununla da Allahla insanın vəhdəti ideyasını

irəli sürür. Dahi mütəfəkkir-şairin şagirdləri, təliminin davamçıları insan azadlığını, onun mənəvi sərbəstliyini, fikir hürriyyətini, ideya saflığını hər şeydən uca tuturdular.

*"Gərçi bu gün Nəsimiyəm, həşimiyəm, qureyşiyəm,*
*Haqq mənəm, Haqq məndədir, Haqq söylərəm..."*

Bu misra müqəddəs Qurani-Kərimdəki "Mən sizi özümə bənzər xəlq etdim" [5, s.3] ayəsi ilə tam şəkildə uzlaşır.

İnsan və onun idrakı, təfəkkürü fövqündə əsl həqiqətə yüksəliş böyük əqidə sahibi, filosof İmadəddin Nəsimi yaradıcılığının qayəsini təşkil edir. Nəsimi fəlsəfəsinin konsepsiyası kamil insanın keçdiyi 4 mərhələnin (şəriət, təriqət, mərifət və həqiqət) sonunda – ali zirvədə isbatlanır.

*"Ki, insandır deməz kimsə sənə ya Xaliqük-insan..."*

Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirimizin özülünü qoymuş, söz sənətimizi forma və məzmunca zənginləşdirmiş, özündən sonrakı nəsillər üçün ədəbi irs qoyub getmiş Nəsimi çox incə ruhlu insan olub. Şeirlərində insan və Allah arasındakı münasibət barədə danışıb. "Məscud" (yəni Allah) və "sacid"in (yəni insanın) "vahid" (bir) olduğunu yazıb. Nəsimi həqiqi din ilə insanlıq arasında fərqin qalmadığına inanıb. Bu, nikbinlik və güc mənbəyini ilhamlandıran əqidədir.

Nəsimi humanizmi təbiətdəki harmoniyaya və insan gözəlliyinə vurğun olan böyük bir şairin humanizmidir. Bu humanizmdən danışarkən, şübhəsiz, şairimizin müasirlərindən olan Əbdürrəhman ibn Xəldunun yaradıcılığı yada düşür. Əlbəttə, İbn Xəldun da öz fikirlərində antik fəlsəfəyə, İbn Sina, İbn Rüşd, Biruni kimi orta əsrlər Şərq fəlsəfəsinin böyük nümayəndələrinin əsərlərinə, zəngin Şərq poeziyasına əsaslanırdı. Ancaq bu ümumi kontekstdə Nəsiminin bir sıra qiymətli orijinal fikirlər irəli sürdüyü də böyük həqiqətdir. Nəsimi humanizminin başlıca fərqləndirici özəlliyi onun insana böyük məhəbbət duyğuları ilə yoğrulmasıdır. Məhz bu cəhətinə görə Nəsimi özündən əvvəlki Azərbaycan poeziyasının birbaşa varisi kimi çıxış edərək ona qədər irəli sürülmüş bədii-obrazlı düşüncələri, əldə edilmiş poetik nailiyyətləri daha da inkişaf etdirmişdir [2, s.2].

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yeri tutması, bu irsin sistemli tədqiqi və təbliği Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESKO-nun tədbirləri siyahısına daxil edilmişdi. Bu barədə akademik Rafael Hüseynov Nəsiminin yaradıcılığı haqqında verdiyi müsahibəsində qeyd edir: "Həmin illərdə Nəsiminin Azərbaycan xalqına yenidən və bütöv qayıdışı istiqamətində böyük işlər görüldü. Nəsimi haqqında çox gözəl bir film yarandı. Bədii filmlərin tarixi hadisə və şəxsiyyətlərin geniş ictimaiyyətə çatdırılmasında çox böyük rolu var. Monoqrafiya və elmi məqalələr tarixi şəxsiyyətləri xalqa, geniş kütləyə olsa-olsa dar bir çərçivədə çatdıra bilər".

Nəsimi şeirində aşiq haqqı tapmış insandır. Dərin düşüncələrdən sonra o, haqqı, ideyanı kənarda deyil, özündə axtarıb tapır. Haqqın göylərdə deyil, özündə olduğunu dərk edir. Buna görə də öz varlığında Yaradanla insanın birləşdiyi qənaətinə gəlir.

Nəsimi yaradıcılığının mahiyyətinə dərindən nəzər saldıqda bunu söyləmək mümkündür ki, "ənəlhəq" kəlməsi təkcə XIV əsr üçün deyil, yaşadığımız XXI əsrin özündə belə möcüzə

sayılmalıdır. Əslində, bu ideya XIV əsrin İslam dünyası üçün sözün həqiqi mənasında, bir inqilab idi. İdrakda, təfəkkürdə görünməmiş bir inqilab. Lakin təəssüflər olsun ki, bu günün özündə belə Nəsiminin böyüklüyü, fəlsəfi vüsəti, fikir genişliyi lazımi səviyyədə öyrənilməmişdir.

Nəsimiyə görə, dünyanın sirlərini o kəs dərk edə bilər ki, o özünü dərk etmiş, özünün mövcudluğunun məqsəd və vəzifələrini başa düşmüş, mənəvi kamilliyə çatmış olsun. Yalnız bundan sonra insan Tanrı obrazına çevrilir və deyir: "Ənəlhəq" (Haqq mənəm). Nəsimi yaradıcılığınm tədqiqatçısı Z.Quluzadənin qeyd etdiyi kimi, şair Allahın və Onun yaratdığı hər şeyin insanda mövcud olmasına, insanın hər şey demək olduğuna şübhə etmirdi. Hürufilər "Ənəlhəq" formulunu özlərinin mistik təmrinlərinə daxil etmişdilər. Onlar öz nəfəslərinə nəzarət edərək, onu müəyyən bədən hərəkətləri, tarazlaşma və təzimlər ilə əlaqələndirərkən bu formulu təkrar etməklə ekstatik trans vəziyyətinə düşür, bu vəziyyətdə hürufi Allahla "görüşür", Ona qovuşurdular. Onlar əmin idilər ki, insan Tanrının təcəssümüdür. Deməli, haqqı zaman və məkan hüdudlarından kənarda deyil, təbiətdə, mükəmməl insanın mənəviyyatında axtarmaq lazımdır [6, s.186-187].

T.Kərimliyə görə, orta əsrlərin Şərq və Avropa humanistləri kimi, Nəsimi yaradıcılığında da kainatın antroposentrist strukturu başlıca yer tutur. Şairin əsərlərindən alınan ümumi təəssürat budur ki, kainatın mərkəzində o dövrün elm adamlarının geosentrik nəzəriyyəyə əsasən təsəvvür etdiyi kimi, cansız daş-torpaqdan, yanar qazlardan ibarət olan Yer kürəsi, ya da Günəş planeti deyil, məhz yaradılmışların ən şərəflisi olan İNSAN dayanır.

Yuxarıda qeyd olunanları ümumiləşdirsək, görərik ki, Nəsimi fəsləfəsi, əslində, hələ dərin və geniş şəkildə açılmayıb, tam obyektivliyi ilə tanıdılmayıb. O, dünya səviyyəsində araşdırılmalı olan çox böyük mütəfəkkirdir, haqqında yeni, daha səhih kitablar yazılmalıdır.

## ƏDƏBİYYAT


1. Əliyeva N. Ədəbiyyat tarixinin bahar nəsimi // "Azərbaycan" qəzeti, № 66 (8089), 29 mart 2019-cu il.
2. Hüseynov R. İnsanlıq mərtəbəsini ucaldan şair // "Mədəniyyət" qəzeti, 18 dekabr 2009.
3. Həbibbəyli İ. Cahana sığmayan Azərbaycan şairi // "Azərbaycan" qəzeti, 16 yanvar, 2019-cu il.
4. Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 504 səh
5. Rzayev F. Azərbaycan şairi Nəsimi yaradıcılığında dördlük fəlsəfəsi / Nuhçıxan.az. 24.03.2019.
6. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: "Şərq-Qərb", 2010, 360 səh.
7. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005.
8. Кули-заде З. Хуруфизм и его представители в Азербайджане. Баку: "Элм", 1970.
9. Nəsimi Kəlamının işığında (Azərbaycan elm və mədəniyyət xadimlərinin Suriya səfərindən notlar). Bakı: "Elm", 2008.

Афаг Иманова

## ГЕНИЙ ВОСТОЧНОЙ ФИЛОСОФИИ

### РЕЗЮМЕ

Имададдин Насими считается первым великим представителем политической и философской поэмы в истории азербайджанской поэзии. В своей философии Насими высоко ценит свободу личности, придает важность разуму и интеллекту, обожествляет человека, возвышает его и поднимает до уровня Бога. Таким образом он создает идею единства человека с Богом. Новое отношение к человеку - основа философии Насими. В его произведениях сочетаются поэтическая и философская мысль. Мысль и суждение преобладают над чувствами. У поэта новое отношение к человеку. Он ищет социальной справедливости и правды в обществе - истины, который достигает целостный человек...

Afag Imanova

## A GENIUS OF THE EASTERN PHILOSOPHY

### SUMMARY

Imadaddin Nasimi is considered to be the first great representative of a political and philosophical poem in the history of Azerbaijani poetry. In his philosophy Nasimi highly appreciates the freedom of the individual, attaches importance to the mind and intellect, deifies the man, puts him high and raises him up to the level of Allah. Thus he creates the idea of the unity of man with Allah. New attitude towards man is the basis of Nasimi's philosophy. In his works poetic and philosophical thought are combined. Thought and judgment prevails over the senses. The poet has a new attitude towards man. He is looking for social justice and truth in society - the truth that the complete man achieves...

# ƏHMƏD BƏY AĞAOĞLUNUN İSLAMDA MEHDİLİK İNANCI İLƏ BAĞLI DİNİ-FƏLSƏFİ DÜŞÜNCƏLƏRİ

**_Elnur MUSTAFAYEV,_**
*AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsinin elmi işçisi,*
*elnur.mustafayev88@mail.ru,*

***AÇAR SÖZLƏR**: din, fəlsəfə, İslam həmrəyliyi, türkçülük, siyasət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:** религия, философия, исламская солидарность, пантюркизм, политика.*
***KEY WORDS:** religion, philosophy, islamic solidarity, pan-turkism, politics.*

## Giriş

Əhməd bəy Ağaoğlu (1869-1939) XIX əsrin sonu-XX əsrin əvvəllərində təkcə vətəni Azərbaycanda deyil, Yaxın Şərq, o cümlədən türk-İslam dünyasında xüsusi yer tutan və tanınmış şəxsiyyətlərdən biridir. Onun Azərbaycan, Türkiyə və Avropada sərgilədiyi siyasi və dini-fəlsəfi ideyaları XX əsrin əvvəllərində türk-İslam dünyasının ictimai-siyasi düşüncəsinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir etmişdir. Ensiklopedik biliklərə sahib olan Ə.Ağaoğlu özündən sonra siyasi, nəzəri və zəngin elmi irs qoymuşdur. İslam birliyi və türkçülüyün ideya cərəyanı kimi meydana gəlməsi, inkişafı və yayılmasında onun müstəsna rolu olmuşdur. Siyasi elmlər sahəsində tanınmış məşhur türkiyəli alim Fəxrəddin Gülsevən Əhməd bəy Ağaoğlunu hərtərəfli inkişaf etmiş dəyərli ziyalı kimi təqdim etmişdir: "O, heysiyyətli və möhtəşəm bir mütəfəkkirdir. Mərd və cəsur mübarizə adamı, professor və maarifçi, yazıçı-publisist, dürüst siyasətçidir. Hürriyyət və demokratiya aşiqi bir insan, milliyyətçi və inqilabçı ziyalı, etibarlı və vəfalı dost, yaxşı ailə başçısı, şəfqətli atadır. Deyə bilərik ki, o, insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini öz simasında toplamış böyük insan, heykəlləşmiş şəxsiyyətdir" [1, s.4].

Mehdi (xilaskar) fenomeni, demək olar ki, bütün din və bəzi dini-fəsləfi düşüncə sistemlərində mövcuddur. Cahanşümul xilaskarın gəlişi, ədalətli dövlətin qurulması, qanlı müharibələrin sona çatması, bütün dünyanın sülh və əmin-amanlığa bürünməsi təkcə dinlərin deyil, həmçinin fəlsəfi və siyasi düşüncə məktəblərinin diqqətə aldığı ən önəmli mövzulardan biri olmuşdur. Əhməd bəy Ağaoğlu da bu mövzudan yan keçməmiş, mehdilik məsələsinə öz elmi və publisistik yaradıcılığında geniş şəkildə toxunmuşdur. O, xüsusilə İslam dininin iki əsas məzhəbindən biri olan şiəlikdə mehdilik məsələsinə münasibət bildirərək özünəməxsus düşüncələrini dini-fəlsəfi və siyasi cəhətdən izah etmişdir. Ə.Ağaoğlu 1892-ci ildə Londonda keçirilən Avropa Şərqşünaslarının IX Beynəlxalq Konqresində iştirak etmiş və "Şiəlik və onun qaynaqları" mövzusunda mühazirə oxumuşdur. O, həmin mühazirədə şiəliyin tarixi, meydana

çıxma səbəbləri və sairə mövzularla yanaşı şiəlikdə mehdilik məsələsinə toxunmuş və öz dini-fəlsəfi düşüncələrini qeyd etmişdir.

***Əhməd bəy Ağaoğlunun həyat və fəaliyyətinə qısa baxış***

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Qarabağda, Şuşada ziyalı ailəsində doğulmuşdur. Babası Mirzə İbrahim o dövrün məşhur ilahiyyatçılarından biri kimi tanınırdı. Əhməd bəy gənc yaşlarında atası Mirzə Həsən və əmisi Mirzə Məhəmməddən dini elmləri əxz etmiş, həmçinin ərəb və fars dillərini mükəmməl şəkildə öyrənməyi bacarmışdır. Bu illər ərzində müəyyən qədər rus dilini mənimsəmiş və dini elmlərlə yanaşı, dünyəvi elmlərlə də yaxından maraqlanmışdır.

O, 1881-ci ilə Şuşada altı siniflik real məktəbi açıldıqdan sonra təhsilini həmin məktəbdə davam etdirir. Ağır məşəqqətlərə və çətinliklərə baxmayaraq, Əhməd bəy Ağaoğlu VI sinifi bitirdikdən sonra son sinifləri Tiflisdəki 1 saylı gimnaziyada bitirir [2, s.144]. 1887-ci ildə ali təhsil üçün Peterburqa gedən Ağaoğlu haqsızlıq səbəbilə imtahanlardan uğur qazana bilmir, bu hadisə Ağaoğluya pis təsir etsə də, qarşısına qoyduğu məqsəddən geri dönmür və biliklərini artırmaq üçün Fransaya getməli olur [3, s.69]. 1888-ci ilin yanvar ayında Fransaya çatan Əhməd bəy Ağaoğlu əvvəlcə "College de France və École des Hautes Études Pratiques"də (Tətbiqi Tədqiqat Ali Məktəbi) təşkil edilən mühazirələrə qatılmağa başlayır. Həmin müddətdə məşhur filosof, tarixçi Ernest Renan və digər tarixçi alim Ceyms Darmsteterin mühazirələrində iştirak edərək Şərqlə bağlı bilik və düşüncələrini inkişaf etdirir. 1888-ci ildə Sarbonna Universitetinin hüquq fakültəsinə daxil olan Ə.Ağaoğlu 1894-cü ildə oranı müvəffəqiyyətlə bitirir [4, s.116]. Tələbəlik illərində "La Nouvelle Revue" jurnalında "İran cəmiyyəti" adı altında silsilə yazılar çap etdirir. Bununla yanaşı, 1891-1893-cü illər ərzində "Jurnal de Debat", "Revü Been", "Nouvye Revyü" kimi fransız mətbuat orqanlarında ictimai-siyasi mövzularda məqalələr nəşr etdirir [5, s.31]. 1896-cı ildə Əhməd bəy Tiflisə gedir və iki ilə yaxın orta məktəblərdə fransız dilindən dərs deyir. 1897-ci ildə Hacı Zeynəlabidin Tağıyevin dəvəti ilə "Kaspi" qəzetində fəaliyyətə başlayır, İslam dünyasını geri salan səbəblər haqqında silsilə yazılar çap etdirir. 1905-ci ildə Bakı Dumasının üzvü seçilən Əhməd bəy şəhərdə mövcud olan bir çox problemin həllində nailiyyətlər qazanır. Bununla yanaşı, o, 1905-ci ildə Hacı Zeynalabdin Tağəyevin dəstəyi ilə "Həyat" qəzetini və İsa bəy Aşurbəylinin yardımı ilə "İrşad" qəzetini təsis edir. 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi silsilə soyqırımı və cinayətlərdən sonra müdafiə məqsədilə 1906-cı ildə bir neçə ziyalı ilə birlikdə "Difai" partiyasını yaradır. Əhməd bəy siyasi və ictimai fəaliyyətinə görə təqiblərə məruz qalır və 1908-ci ildə İstanbula mühacirət etməli olur. Osmanlı dövlətinin son illərində, Azərbaycan Xalq Cümhuriyyəti və yeni qurulmuş Türkiyə Cümhuriyyətində istimai-siyasi proseslərdə fəal iştirak edən Əhməd bəy 1939-cu ildə İstanbulda qara ciyər iltihabından vəfat edir. O, Feriköy qəbiristanında həyat yoldaşının yanında dəfn olunmuşdur.[1]

1 Əhməd bəy Ağaoğlunun yaradıcılığı və pantürkizmlə bağlı düşüncələri haqqında AMEA-nın Z.M.Bünyadov adına Şərşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsinin müdiri Həsənova Esmeralda Yusub qızının "1908-1914-cü illərdə Türkiyə Burjua Millətçiliyi İdeologiyası" kitabında geniş məlumat verilmişdir.

### Əhməd bəy Ağaoğlu Şərqşünasların IX Beynəlxalq Konqresində

1892-ci ilin sentyabr ayında Parisdə təhsil alan 23 yaşlı Əhməd bəy Ağaoğlu Londonda keçirilən elmi-praktiki əhəmiyyətli Avropa Şərqşünaslarının IX Beynəlxalq Konqresində iştirak edir. Həmin konfransda "Şiəlik və onun qaynaqları" adlı məruzə və məqalə ilə çıxış edir. Bu konfrans Ə.Ağaoğlunun həyatında ilk elmi fəaliyyətin başlanğıcı hesab edilir. O, öz məruzəsində şiə məzhəbinin tarixi, təşəkkülü və İran tarixi və mədəniyyəti ilə əlaqələri, İran milli dinlərindən Məzdəkilik ilə ortaq nöqtələri barədə məlumatlar verir. Məruzənin fransızca mətni ilk dəfə "Les Croyances mazdeennes dans la religion chiite" adı altında Londonda çap edilir [1, s.386].

Həmin dövrdə Tiflisdə çıxan "Kavkas" qəzeti ilə sıx əməkdaşlıq edən Əhməd bəy Konqres və oradakı mühazirəsi barəsində geniş məlumatlar vermiş, təəssüratlarını həmin qəzetdə paylaşmışdır. Qızı Süreyya Ağaoğlunun yazdığına görə, elmi mühazirədən məmnun qalan Qacarlar dövlətinin hökmdarı Nəsrəddin şah Əhməd bəy Ağaoğluna bahalı brilyant qaşlı üzük hədiyyə etmişdir.

Konqresdə səslənən mühazirənin məzmununa gəlincə isə Ağaoğlunun qeydləri və mülahizələri bəzi aspektlərdən keçərli olsa da, bir sıra düşüncələri kəskin tənqidə məruz qalmış və iddiaları yetərsiz hesab edilmişdir. Xüsusilə şiəliyin bir məzhəb və ya təriqət deyil, "milli din" olması kimi mülahizələri isbatlama və tarixi gerçəklik baxımından o qədər də qüvvətli hesab edilməmişdir. Belə ki, şiəlik İranda rəsmi məzhəb mövqeyinə Ağaoğlunun qeyd etdiyi dövrlərdən sonra yüksəlmişdir. Bundan əlavə, şiəliklə Məzdəkiliyi eyniləşdirməsi və müxtəlif istiqamətlərdə müqayisələri də yetərsiz hesab edilmişdir. Türkiyəli alim Ufuk Özcan özünün "Ahmet Ağaoğlu ve rol değişikliyi" əsərində Əhməd bəyin şiəliklə bağlı bəzi müddəalarını tənqid edərək bu mövzu ilə əlaqədar əks arqumentlər gətirmişdir.

Əhməd bəy Ağaoğlu mühazirəsində şiəliyi İranın milli ruhu və Məzdəkiliyin yeni formada təzahürü kimi qiymətləndirərək demişdir: *"O, İran milli ruhunun sintezidir, uzun əsrlərdən bəri keçmişlə və indi, Məzdəkilik və İslam arasında yaranmış bir uzlaşmadır"* [6, s.68]. İran ilə Ərəbistan arasında münasibətlərə aydınlıq gətirən Əhməd bəyə görə, ərəblər İslam sayəsində yeni kimlik qazandıqdan sonra iranlılar buna qarşılıq olaraq öz tarixi ənənələri ilə İslamı sintez etdilər və yeni inanc sistemi yaratmağı bacardılar. Ə.Ağaoğlu şiəliyi ərəb istilasına qarşı müdafiə sistemi kimi qiymətləndirir. O, şiəliyin formalaşmasında Məhəmməd peyğəmbərin (s) ən yaxın səhabələrindən biri - farsmənşəli Salman Farsinin rolunu xüsusilə vurğulayır. Onun qənaətinə görə, İran mədəniyyətinin və qədim ənənələrinin təmsilçisi Salman Farsi şiəliyin əsas cəhətlərini təyin etməklə yeni dini sistem yaratmışdır. Əhməd bəy onun bu addımlarını İranın xilası kimi qiymətləndirir. Bununla yanaşı, Əhməd bəy şiələrin üçüncü imamı Hüseyn ibn Əlinin sonuncu Sasani şahının - Yezdəgirdin qızı Şahrabanu ilə izdivacını İran hakimiyyətinin Əli və övladlarına keçirilməsi kimi dəyərləndirərək yazır: *"Bundan başqa, məlumdur ki, Əli oğlanlarından birini - Hüseyni ərəblərə əsir düşmüş Yezdəgird Şahrabanu ilə evləndirib. Düşünmək olmazmı ki, bu siyasi izdivac ancaq Sasani ailəsinin hüquqlarının Əli ailəsi üzərinə keçməsi məqsədilə qurulub?"* [6, s.71].

Əhməd bəy Ağaoğlu mühazirəsində həmçinin Məzdəkiliklə şiəlik arasında əlaqələr

mövzusunda xalq bayramları və mövsümi mərasimlər barəsində də bəhs edir. O bu mənada Novruz bayramını misal çəkərək bu bayramın İslam məzhəbləri ilə müqayisədə şiəlikdə daha təntənəli şəkildə qeyd edildiyini vurğulayır. Əhməd bəyə görə, şiələr İranın milli bayramı olan Novruza dini rəng qataraq  xüsusi anlam verirlər*: "Şiə dini bu bayramı yaşadacaq, amma həmin gün Firdovsi ilə Cəmşidin deyil, Əli və övladlarının təntənəsi gününə çevriləcək. Xalq rəvayətində deyilir ki, Əli öz düşmənlərinə, xalqın yaddaşında pis xatirəyə dönmüş əvvəlki üç xəlifəyə qalib gəldikdən sonra həmin gün taxta çıxıb"* [6, s.75].

Əhməd bəy ərəb istilası və İran dövlətçiliyinin tənəzzülü vaxtında İranın xilasını yalnız şiəlikdə görürdü. O, belə hesab edirdi ki, yeni ərəb dini və düşüncəsi fonunda İran öz kimliyini yalnız İslam libasına geyinmiş, əslində isə qədim İran inanc sistemini və tarixini özündə daşıyan şiəlik vasitəsilə qoruya bilər. *"İranın xoşbəxtliyindəndir ki, özünün mənəvi, intellektual həyatından ötrü qüvvə əldə etmək üçün şiəlik dini kimi toxunulmaz mənbəyi qalmaqdadır. Millətdə fəal, ziyalılıq nə varsa, ondan doğur, bir an kənarda heç bir şey baş vermir"* [7, s.21].

Əhməd Ağaoğlu mühazirəsində şiəlikdə Mehdi inancına toxunmuş və məzdəki dini ilə müqayisələr aparmağa çalışmışdır.

## Mehdi inancı ilə bağlı dini-fəlsəfi düşüncələr

Dinşünasların apardığı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yer üzərində mövcud olmuş və hazırda mövcud olan dinlərdə ortaq cəhətlər vardır. İnsanlar arasındakı milli və mədəni fərqlərə baxmayaraq, onları birləşdirən nöqtələr çox olduğu üçün bu faktor dinlərdə də öz izini qoymuşdur. Uca Tanrıya inam, fövqəladə varlıqlara ibadətlərin icrası, öz dini ayinlərini keçirmək üçün xüsusi məkanların ayrılması və inşa edilməsi kimi cəhətləri dinlərdə təzahür edən müştərək cəhətlərə misal göstərmək olar. Dinlərdə mövcud olan ortaq inanclardan biri də məhdəviyyət (xilaskarlıq) inancıdır. Böyük Britaniyalı mütəfəkkir Bertran Artur Uilyam Rassel öz çıxışlarının birində belə qeyd edirdi: "Dünya əhalisi onları bir bayraq və şüar altında birləşdirəcək "xilaskarın" intizarındadır". Digər məşhur böyük alim, nisbilik nəzəriyyəsinin banisi Albert Eynşteyn isə "Bütün dünyaya sülhün hakim kəsiləcəyi və insanların sevgi və qardaşlıq duyğuları içində yaşayacağı gün uzaqda deyil" fikirlərini qeyd edirdi. Məşhur irlandiyalı yazıçı və filosof Bernard Şou da dünyanı xilas edəcək bir liderin gələcəyinə və bütün dünyaya hakim kəsiləcək ideal, ədalətli dövlətin qurulacağına inanırdı. İrlandiyalı filosof yazdığı "Man and Superman" əsərində xilaskarı bu cür vəsf edirdi: "İdeal insan sağlam bədənə və qeyri-adi, əqli potensiala sahib birisidir. O, uzunömürlüdür və onun yaşı hətta üç yüz ili də ötüb keçə bilər. O, yaşadığı əsrlərdən və uzunömürlülüyündən əldə etdiyi məlumat və təcrübələr əsasında problemlərin həllində, islah işlərində məharətlə istifadə etməyi bacarır" [8, s.333].

Məhdəviyyət (xilaskarlıq) əqidəsi demək olar ki, bütün dinlərdə müxtəlif formalarda təzahür etməklə xüsusi yer tutur. Bəzi dinlərdə və məzhəblərdə xilaskar inancına səthi yanaşılsa da, bəzilərində bu məsələ kifayət qədər ciddiyə alınmış və iman əsaslarından birinə çevrilmişdir. Bu inancı müqayisəli şəkildə araşdırsaq, ümumi və fərqli cəhətlərini müəyyən etmək mümkündür. Ümumi cəhətlərə misal olaraq, xeyir və yaxşılığın təbliği, xoşbəxt və firavan

həyatın qurulması, zülm və ədalətsizliklə mübarizəni görmək mümkündür. Fərqli cəhətləri isə xilaskarın kimliyi, onun bioloji və ya mistik varlıq olmasındadır.

İslam dinində də digər səmavi dinlər kimi məhdəviyyət (xilaskarlıq) inancı xüsusi yer tutmaqdadır. Mehdi, xilaskar inancı təfərrüatlarında fərqlər olmasına baxmayaraq, ümumən İslam dininin əsas məzhəbləri tərəfindən qəbul olunmuş əqidə sistemidir. İslam dinində xilaskar mehdi adlandırılır. Bu kəlmə ərəb mənşəli söz olub "hə", "dəl" və "yə" kökündən düzəlmişdir. Tərcüməsi isə düzgün yola yönəldilmiş, hidayət edilmiş mənalarını daşımaqdadır. İslam məzhəbləri içərisində mehdi inancına daha çox yer ayıran və əqidə əsaslarından biri kimi hesab edən şiə məzhəbidir. Mehdi ilə bağlı məlumatlara İslam dininin əsas qaynağı olan Quranda və Məhəmməd peyğəmbərin (s) hədislərində rast gəlinməkdədir. Quranda Mehdi ilə bağlı ayələr İslam məzhəbləri arasında birmənalı qarşılanmır və məzhəblərin sahib olduqları düşüncələrə görə fərqli izahlar verilir. Bəzi məzhəblər, xüsusilə şiələr həmin ayələrin Mehdi ilə bağlı olduğunu qeyd etdiyi halda, digərləri həmin ayələrin ümumi məna daşıdığını və konkret hər hansı bir şəxsə aid olmadığını qeyd edirlər. Misal olaraq, şiə məzhəbinə görə, Quranın "Ənbiya" surəsinin 105-ci ayəsində - **"Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da (cənnət torpağına, yer üzünə və ya müqəddəs) yer üzünə Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq"** - saleh bəndələr ilə Mehdi və onun tərəfdarları nəzərdə tutulur [9, s.7, 167]. İslam dininə görə, xilaskar hesab edilən Mehdi Yer kürəsi zülmə və müharibələrə büründüyü vaxt İslam peyğəmbərinin nəslindən zühur edəcək, zülm və pislik xəstəliyinə yoluxmuş dünyanı sülh və ədalətlə dolduracaqdır. Mehdinin İslam peyğəmbərinin nəslindən olması məzhəblər arasında qəbul olunmuş ortaq görüşdür. Lakin onun şəxsiyyətinin konkret təyinində fərqli fikirlər mövcuddur. Əhli-sünnə məzhəbinə görə, Mehdi İslam peyğəmbərinin nəvəsi Həsən ibn Əlinin (ə) nəslinə mənsub Məhəmməd ibn Abdullah adlı bir şəxsdir. Əhli-sünnə məzhəbi onun hələ dünyaya gəlmədiyi və böyük qiyamətdən öncə doğulacağı görüşündədir.

Şiə məzhəbinə görə, Məhəmməd peyğəmbərin (s) vəfatından sonra müsəlmanların dini və siyasi rəhbərləri onun nəslindən olan Əhli-beyt imamları hesab edilir. Şiələrə görə, müsəlmanlara rəhbərlik edəcək imamların sayı on ikidir və bu şəxslər Peyğəmbərin (s) dili ilə öz sağlığında Allah tərəfindən təyin edilmişdir. Məhz bu səbəbdən bəzi mənbələrdə şiələri "İmamiyyə" və ya "İsnə aşariyyə" ("On iki imamçı") də adlandırırlar. Əhli-sünnə məzhəbindən fərqli olaraq, onlar hesab edirlər ki, Mehdi Peyğəmbərin digər nəvəsi Hüseyn ibn Əlinin nəslindən olan on birinci imam Həsən ibn Əli əl-Əskərinin oğlu Məhəmməd ibn Həsən əl-Məhdidir [10, 2; 477]. O, hicrətin 255-ci ilində dünyaya gəlmiş və beş yaşında Abbasi xəlifələrinin təzyiqi səbəbilə ilahi möcüzə sayəsində gözlərdən itərək qeybə çəkilmişdir. Digər İslam məzhəbləri olan ismailiyyə, zeydilik və sufi təriqətlərinin bu mövzu ilə bağlı fərqli fikirlərinə rast gəlmək mümkündür.

## Əhməd bəy Ağaoğlunun İslamda (şiəlikdə) Mehdi inancı ilə bağlı düşüncələri

Ağaoğlu şiəliyin iki şəkildə İran milli kimliyini mühafizə etdiyini düşünür. Belə ki, şiəlikdə imamət anlayışı və hakimiyyətin atadan oğula keçməsi məsələsi bu məqamda böyük

əhəmiyyət kəsb edir. Şiələrin Məhəmməd peyğəmbərdən (s) sonra siyasi və dini hakimiyyətin İmam Əliyə (ə) keçməsi barədə inancı, xüsusilə Əlinin oğlu İmam Hüseynin (ə) sonuncu Sasani şahı Yezdəgirdin qızı ilə evlənməsi İranın tarixi dövlətçilik ənənələrinin qorunmasına xidmət edir. Bildiyimiz kimi, imamət zənciri Hüseyn ibn Əli (ə) ilə Yezdəgirdin qızı Şahrabanunun izdivacından dünyaya gəlmiş İmam Zeynulabidin Əli ibn Hüseynin (ə) vasitəsi ilə davam etməkdədir. Şiələrin üçüncü imamı Hüseyn ibn Əli (ə) son Sasani Kisrası (hökmdar) Yezdəgirdin kürəkəni olduğundan, gələcəkdə İran xalqı İmam Hüseynin soyundan gələnləri dəstəkləməklə onları istila edən ərəb axınına qarşı müqavimət, daxili immunitet əldə etmiş olur [11, s.133].

Əhməd bəyə görə, şiəliyin İran milli kimliyi üçün ikinci əhəmiyyətli tərəfi isə mehdilik inancıdır. Onun fikrincə, Mehdi inancı İran tarixi və düşüncələrinin qorunması və ümid yerinin saxlanılması üçün inam yeridir. O, öz mühazirəsində bildirir ki, İran tarixinin fərqli dövrlərində fərqli siyasi qruplar tərəfindən Mehdi inancından istifadə edilmiş və siyasi-dini hadisələrin əsas müddəasına çevrilmişdir. Buna misal olaraq o, Səfəvilərin hakimiyyətə gəldiyi illərdə Mehdi inancından istifadə edildiyini vurğulayır: *"On ikinci İmam Əbul-Qasim*[2]*, gələcəyin Mehdisi yoxa çıxana qədər davam etmişdir. Onunla birgə hakimiyyətin və krallığın mövcud prinsipləri yer üzündən yoxa çıxıb. Çünki şiə iranlının fikrincə, krallıq zülm, kral isə zalım deməkdir. Elə ki, haqsızlıq həddini aşdı, qədim İran mifologiyasında həmişə ölkəni xilas etmiş varlıq indi Mehdi qayəsində çıxır. Öz seyidlik bacarıqlarından məharətlə istifadə edən Səfəvilər taxta gələndə bütün İranda şayiə yayılmışdı ki, İsfahan yaxınlığında bir quyuda dünyada haqq-ədaləti bərpa etmək üçün Mehdinin gəlməsini gözləyən Rüstəm öz quyusundan çıxmışdır və vaxtın çatdığına inanır. Amma o, ümidinin boşa çıxdığını görüb, dünyanın sahibini gözləmək üçün öz yerinə qayıtmışdır"* [6, s.73].

Yuxarıdakı sitatdan göründüyü kimi, Əhməd bəy Mehdi inancının psixo-siyasi və fəlsəfi tərəfinə toxunaraq bu inanc sisteminin İran tarixi ənənələrinin qorunması və gələcək mövcudluğunu saxlanması üçün bir qarant olduğunu qeyd edir. Əhməd bəyə görə, Mehdi inancı İran xalqı siyasi, sosial və psixoloji problemlər yaşadığı dövrlərdə onlara stimul verir və gələcəyə qarşı ümid hissini yaradır. Daha sonra Əhməd bəy Mehdi inancının uzantısı olan müctəhidlik institutuna toxunaraq Mehdinin qeybdə olduğu vaxt bu vəzifəni xüsusi təhsil almış və məsuliyyəti özündə daşıya biləcək müctəhidlər tərəfindən həyata keçirildiyinə diqqət çəkir. Belə ki, Mehdinin zühuruna qədər şəriət hökmlərinin öyrənilməsi və praktiki cəhətdən tətbiqi kimi məsuliyyət həmin müctəhidlər zümrəsinə həvalə olunur. Əhməd bəyin qeydlərinə görə, müctəhidlər qeybdə olan İmam Mehdinin göstərişləri ilə dindarlara rəhbərlik edir və dini özünəməxsus şəkildə və tam sərbəstliklə yozmaq imkanına malikdirlər: *"Lakin dünya sahibinin gəlməsinə və Rüstəmlə birgə yer üzündən zülm və haqsızlığın silinəcəyi günə qədər dindarları doğru yolla aparacaq, heç olmasa dini qoruyacaq adamlar lazım idi. Bu adamlar müctəhidlər idi, onlar hər cür dini və dünyəvi hakimiyyətə malik olan imamlar qrupu tərəfindən idarə olunurdular. Ancaq onlar dindarlara rəhbərlik edə bilər və imamlar tərəfindən idarə olunduqlarına görə dini özünəməxsus şəkildə və tam sərbəstliklə yozmaq imkanına malik idilər... Ona xidmət etmək İmama xidmət, etiraz isə İmama etiraz sayılır"* [ 6, s.74].

2 Əbul-Qasim, şiələrə görə, on ikinci İmam Məhəmməd ibn Həsən əl-Əskərinin künyəsidir.

Əhməd bəy Ağaoğlu şiəlikdəki imamət, məhdəviyyət və müctəhidlik məfhumlarını üç körpü adlandıraraq Allahla bəndə arasında boşluğu dolduran konsepsiya kimi qiymətləndirir. Sünniliyin əksinə, o, şiəlikdə bu üç körpü konsepsiyasının mövcudluğunu müsbət qarşılayır. Ona görə, bu konsepsiya zamanın tələb və şəraitinə uyğun olaraq böyüyə və genişlənə bilər: *"Burada dayanıram; mən şiəlikdə üç körpü --- imamlığı, mehdini və müctəhidliyi göstərmək istəyirdim. Bu üç körpü sünn üçün Allahla bəndə arasında geniş bir məkandır, şiəliyin isə əsas əlamətidir. Bilirsiniz ki, yeni fikir və biliklərin meydana çıxması ilə əlaqədar bu üç körpü böyüyə, genişlənə bilər, hətta ilahiyyatla bəşəriyyət arasında boşluğu doldura bilər"* [6, s.74].

Əhməd bəyin mühazirədə şiəlik və mehdiliklə bağlı qeydləri birmənalı deyildir və tənqidə açıqdır. Onun şiəlik və mehdiliklə bağlı düşüncələri elmi müstəvidə müzakirə və mübahisələrə yol aça bilər. Tarixi və dini qaynaqlara görə, onun irəli sürdüyü müddəalar bəzi məqamlarda həqiqəti əks etdirmir. Xüsusilə, şiəliyi və mehdiliklə bağlı inancı İranın milli din müstəvisinə qaldırmasını qeyd edə bilərik. Onun bu iddiaları Ağaoğlu irsini araşdıran bəzi alimlər tərəfindən tənqidə tuş gəlmişdir. Hilmi Ziya Ülken bu məsələyə toxunaraq belə qeyd edir: "Şiəlik ilə iranlılıq arasında nə eyniyyət, nə də bir səbəb-nəticə əlaqəsi vardır" [12, s.85-89].

Əhməd bəy həm də şiəliklə İranın milli dinləri olan Zərdüştilik və Məzdəkilik arasında müqayisələr aparmış və bəzi aspektlərdən şiəliyin bu iki dinin yeni formada təzahürü kimi qiymətləndirmişdir. O, öz mühazirəsində şiəlik və onun qaynaqları mövzusuna teoloji cəhətdən deyil, şərqşünaslığın problemi kimi toxunmuş və öz düşüncələrini paylaşmışdır.

## Nəticə

Əhməd bəy Ağaoğlunun "Şiəlik və onun qaynaqları" adlı məqaləsində mehdiliklə bağlı dini-fəlsəfi düşüncələri diqqətəlayiq və unikaldır. Belə ki, Əhməd bəy Ağaoğlu mehdilik məsələsinə ilahiyyat elmlərinin prinsipləri əsasında deyil, şərqşünaslığın problemi kimi yanaşmışdır. Bu cür yanaşmanı mehdiliklə bağlı tədqiqatlarda ilk addım kimi hesab etmək mümkündür. Əhməd bəy Ağaoğludan əvvəl bu mövzuda tədqiqatlar daha çox dini-sxolastik prinsiplər əsasında aparılmışdır. Lakin sələflərindən fərqli olaraq, Ağaoğlumehdilik məsələsini həm tarixi, həm də dini-fəlsəfi, ələlxüsus siyasi nöqteyi-nəzərdən izah etməyə çalışmışdır.

Sonda belə bir nəticəyə gəlmək olar ki, Əhməd bəy Ağaoğlu öz məqaləsində şiəliyin və şiəlikdə mehdilik məsələsinin qədim İran dini-fəlsəfi düşüncə sisteminin və mədəniyyətinin qorunması kontekstində əhəmiyyətli rol oynadığını düşünür.

# ƏDƏBİYYAT


1. Əhməd bəy Ağaoğlu. Seçilmiş Əsərləri. Bakı: 2007.
2. Yusif bəy Akçuralı. Türkçülüyün Tarixi. Bakı: 2006.
3. Dilqəm Əhməd. Şuşa, Peterburq və Paris xatirələri. Bakı: 2019.
4. Həsənova Esmeralda. 1908-1914-cü illərdə Türkiyədə Burjua Millətçiliyi İdeologiyası. Bakı: 1966.
5. Əziz Mirəhmədov. Əhməd bəy Ağaoğlu. Bakı: 2014.
6. Mübariz Süleymanlı. Şiə dinində məzdəki inancları. Bakı: 2007.
7. Fransua Jorjon. Azərbaycanlı intellektualın ilk addımları: Əhməd Ağaoğlu Fransada (1888-1894) // Mədəniyyət Dünyası, VII buraxılışı, Bakı, ADMİU.
8. Elnur Mustafayev. Dünya dinlərində Mehdi inancının təzahürləri // "Müasir şərqşünaslığın aktual problemləri", Bakı, 2018.
9. Şeyx Təbərsi. Məcməul-Bəyan. Tehran: 2010.
10. Şeyx Müfid. əl-İrşad. Tehran: 2009.
11. A.Holly Shissler. İki İmparatorluk Arasında. Ahmet Ağaoğlu ve Yeni Türkiye (çeviren: Taciser Ulaş Belge). İstanbul: 2005.
12. Hilmi Ziya Ülken. İslam Düşüncesi. Türk Düşüncesi Tarihi Araşdırmalarına Giriş. İstanbul: 1995.

Эльнур Мустафаев

# РЕЛИГИОЗНО - ФИЛОСОФСКИЕ МЫСЛИ АХМЕД БЕКА АГАОГЛУ О МАХДИСТСКИХ ВЕРОВАНИЙ В ИСЛАМЕ

## РЕЗЮМЕ

В статье рассматривается лекция «Шиизм и его источники», прочитанная Ахмадом бек Агаоглу на IX Международном конгрессе европейских востоковедов в Лондоне в 1892 году. Говорят, что в этой лекции он затронул историю шиизма, причины его появление и проблема Махди в шиизме, и выразил свои религиозные и философские мысли. Автор приходит к выводу, что в своей статье Ахмад бек Агаоглу считает, что проблема шиизма и Махди в шиизме играет важную роль в контексте сохранения древней иранской религиозно-философской системы и культуры.

Elnur Mustafayev

# RELIGIOUS - PHILOSOPHICAL THOUGHTS OF AHMED BEY AGHAOGLU ON THE MAHDIST BELIEFS IN ISLAM

## SUMMARY

The article deals with the lecture «Shiism and its sources» delivered by Ahmad bey Aghaoglu at the IX International Congress of European Orientalists in London in 1892. It is said that in that lecture, he touched upon the history of Shiism, the reasons for its emergence and the issue of the Mahdi in Shiism, and expressed his religious and philosophical thoughts. The author concludes that in his article, Ahmad Bey Aghaoglu believes that the issue of Shiism and the Mahdi in Shiism plays an important role in the context of preserving the ancient Iranian religious and philosophical system and culture.

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA SİYASİ-İDEOLOJİ MÜHİT

**Turan BABAŞ,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı,*
*BDU-nun Tarix fakültəsinin doktorantı,*
*turan.babash@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *İkinci Dünya Müharibəsi, Sovet İttifaqı, şeyxülislam, Qafqaz müsəlmanları Ruhani İdarəsi, milli-mənəvi vəziyyət, ruhanilər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Вторая Мировая Война, Советский Союз, шейхулислам, Духовного управления мусульман Кавказа, национально-нравственная ситуация, священнослужител.*
***KEY WORDS:*** *II World War, Soviet Union, sheikhulislam, the Caucasian Muslims Spiritual Administration, national-moral situation, clerics.*

Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, müharibə illərində ölkəmizdəki ictimai-siyasi, iqtisadi, mədəni-maarif, milli-mənəvi vəziyyət, xalq kütlələrinin müharibəyə münasibəti, onları müharibədə canfəşanlıqla döyüşməyə vadar edən səbəblər, sovet hökumətinin müxtəlif yollarla vətənpərvərlik ideologiyasını zehinlərə yeritməsi, təbliğat-təşviqat metodları, Azərbaycanın Böyük Vətən müharibəsindəki roluna düzgün tarixi qiymətin verilməməsi və s. məsələlər daim diqqət mərkəzindədir.

Ötən əsrin 30-cu illərinin sonunda üçün dünyada siyasi vəziyyət çox mürəkkəb və ziddiyyətli hal almışdı. Müstəmləkələr, dünya ağalığı, yeni xammal mənbələri, bazarlar ələ keçirmək uğrunda mübarizə artıq dinc siyasi vasitələrlə davam etdirilə bilmirdi. İngiltərə və Fransa öz müstəmləkələrini qoruyub saxlamağa, yeni torpaqlar, nüfuz dairələri ələ keçirməyə, Almaniyanı və SSRİ-ni qarşı-qarşıya qoymağa, onların hər ikisini zəiflətməyə, həm faşizmə, həm də dünya inqilabına can atan kommunizmə öldürücü zərbələr vurmağa çalışırdılar. Lakin bütün bu planların çoxu öz məcrasından çıxaraq böyük güclərin planlarının alt-üst olmasına, nəticədə bəşər tarixində ən böyük hərbi-siyasi münaqişə sayılan, 1 milyard 700 milyon nəfər əhalisi olan 61 dövlətin iştirak etdiyi və təqribən 30 milyon insanın həyatına son qoyan İkinci Dünya müharibəsinin başlamasına gətirib çıxardı [1, s.326].

Müharibənin ilk dövründə SSRİ təhlükəni özündən uzaqlaşdırmaq və ölkənin müdafiəsini gücləndirmək siyasəti yürüdürdü. O, Almaniya ilə diplomatik və iqtisadi əlaqələri davam etdirir, eyni zamanda hərbi-siyasi potensialını və sərhədlərini gücləndirirdi. Lakin faşistlər 23 avqust 1939-cu ildə imzalanmış on il müddətinə hücum etməmək, dostluq və əməkdaşlıq haqqında müqaviləni pozaraq, 1941-ci il iyun ayının 22-də bütün sərhəd boyu SSRİ üzərinə hücuma keçdilər. Beləliklə, sovet tarixində Böyük Vətən müharibəsi adlandırılan Almaniya-SSRİ müharibəsi başladı.

SSRİ həm ideoloji, həm də texniki baxımdan hələ müharibəyə tam hazır deyildi və ölkədə arxayınlıq hökm sürürdü. Üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi siyasi repressiyalar - ordunun komanda heyətindən 43 min nəfərin repressiyaya məruz qalması, ali rütbəli heyətindən 1800 nəfərin həbs olunması orduya böyük zərbə vurmuşdu. Məhz bunlara və bir sıra digər səbəblərə görə müharibənin ilk dövründə yaxşı silahlandırılmış çoxlu sayda canlı qüvvəyə, hərtərəfli təcrübəyə və yüksək hərbi texnikaya malik faşistlər böyük qələbələr qazandılar, ölkənin içərilərinə doğru irəlilədilər. Güclü hücuma qarşı davam gətirə bilməyən sovet ordusu böyük itkilər verərək, sürətlə geri çəkildi.

Müharibənin ilk mərhələsində faşizm əleyhinə 50 dövləti – kapitalizm və sosializm sistemlərini vahid şəkildə birləşdirən, daha sonralar isə Moskva, Kasablanka, Vaşinqton, Qahirə, Tehran, Yalta və Potsdam konfransları ilə daha da möhkəmləndirilən anti-Hitler koalisiyası yaradıldı. 1942-ci ilin iyunundan 1944-cü ilin yanvarına qədər olan dövr II Dünya müharibəsi tarixinə əsaslı dönüş mərhələsi kimi daxil oldu. Müttəfiqlər bütün cəbhələrdə təşəbbüsü öz əllərinə almışdılar. Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu oldu.

1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt olunmuş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi.

1941-ci ilin iyunundan Sovet Azərbaycanı da SSRİ-nin tərkibində faşizmə qarşı müharibədə iştirak etmişdir. Ölkəmizdən 1941-1945-ci illər müharibəsinə kişilərlə yanaşı, qocaların və qadınların da olduğu 600 mindən çox döyüşçü göndərilmişdi ki, onlardan 40 mini könüllülər idi [2, s.28]. Təyyarəçi Züleyxa Seyidməmmədova, snayper Ziba Qəniyeva, gəmi kapitanı Şövkət Səlimova və başqa qadınların şücaətləri dillər əzbəri olmuş, tarixə düşmüşdür. Bundan əlavə, azərbaycanlıların 77, 223, 271, 402 və 416 saylı milli diviziyaları yaradılmışdı ki, onlar ən çətin döyüşlərdə iştirak edərək qəhrəmanlıq göstərmişdilər. Hətta əsir düşmüş həmyerlilərimiz partizan dəstələri tərkibində vuruşaraq faşistlərə qan uddurmuşdular. Azərbaycandan cəbhəyə səfərbər olunan 600 min adamdan yarıdan çoxu həlak olmuş və itkin düşmüş, 123 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Həmin dövrdə Azərbaycandakı vəziyyətə gəlincə, məlum məsələdir ki, 1920-ci ilin 28 aprel işğalından sonra Azərbaycan xalqı müstəmləkə halına salınmış, xalqımızın azadlığı və bir çox hüquqları əlindən alınmış, milli-mənəvi dəyərlərimiz assimiliyasiyaya məruz qoyulmuş, ölkədə ictimai-siyasi şüurun bütün sahələrində kommunist ideologiyası hakim kəsilmişdi.

Kütləvi informasiya vasitələrinin, ictimai şüurun daha asan qavranılan formalarından olan incəsənət, xüsusən, teatr, kino, musiqi sənəti, monumental rəssamlıq, heykəltəraşlıq, memarlıq və bir çox sahənin rəsmi ideologiyanın inhisarı altına düşməsi bolşevik ehkamlarını şüurlara yeritməyin, xalqı öz tarixinə, soykökünə, milli dəyərlərinə özgələşdirməyin mühüm yollarından biri idi.

Məktəblərin başlıca vəzifəsi mərkəzin maraqlı olduğu sahələr üçün savadlı, mövcud quruluşa sadiq icraçı kadrlar hazırlamaq idi.

20-ci illərdən tədris proqramlarından, dərsliklərdən türkçülük, islamçılıq ideyalarını, xalqın mənəvi dəyərlərini təbliğ edən mövzular çıxarıldı. Tarix dərslərindən ideoloji silah kimi istifadə olunmağa başlanıldı. Burada sovet cəmiyyəti ideal bir cəmiyyət kimi təqdim edilirdi. Ədəbiyyat dərsliklərində də sovet reallıqları kobud surətdə saxtalaşdırılır, ideallaşdırılırdı.

1920-ci il işğalından sonra sovet əsarəti dövründə xalqımızın zehnindən dini sıxışdırıb çıxarmaq, əvəzində isə Allahın və axirətin yoxluğunu, dinin mövhumat və xurafatdan başqa bir şey olmadığını aşılayan materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sisteminin yaradılması məqsədilə çox iş görülmüşdü. İşğaldan cəmi 15 gün sonra – mayın 12-də Şeyxülislam Axund Ağa Əlizadə vəzifəsindən azad edilmiş, üç gün sonra yaradılan Xalq Maarif Komissarlığının vicdan azadlığı haqqında verdiyi dekretə əsasən, bütün şəxsi və dövlət məktəblərində dini təlimin tədrisi, dini ayinlərin icrası ləğv olunmuşdu. Məhz bu dekretdən sonra ruhanilər, din xadimləri mövcud quruluşun düşməni elan edilmişdi. 1944-cü ilədək Axund Ağa Əlizadə ev dustaqlığına məhkum edilmiş, ona dini fəaliyyətlə məşğul olmağa icazə verilməmiş, hətta evindəki zəngin dini kitablar müsadirə edilərək yandırılmışdır. Onun evində axtarış aparan çekistlər kitab rəfində Hegel və Feyerbax kimi Avropa filosoflarının əsərlərinə rast gəldikdə təəccüblənmişdilər.

Mənəvi həyatda güclü təsirə malik olan din sonrakı illərdə də ardıcıl surətdə sıxışdırılmış, din xadimlərinə, ruhanilərə qarşı zorakı tədbirlər görülmüşdür. Xalqın əsrlərlə etiqad etdiyi din və dini ənənələr, məhərrəmlik mərasimlərinin keçirilməsi, pirlərin ziyarət edilməsi qadağan olunmuşdur. Ölkəmizdə mövcud olan 2800-dək məscid bağlanmış, Bakıdakı məşhur Bibi Heybət məscidi, Nuxada və Maştağada qədim minarələr, yüzlərlə başqa müqəddəs ocaqlar, o cümlədən Bakıdakı Aleksandr kilsəsi dağıdılmışdır. Yalnız 20 məscid saxlanılmışdı ki, onlar da təyinatı üzrə fəaliyyət göstərmirdi. Şəhər və kəndlərdə “Allahsızlar Cəmiyyəti” yaradılmışdı.

1937-1938-ci illərdə Azərbaycan SSR-də həyata keçirilmiş repressiyalar nəticəsində ölkənin bir çox ictimai-siyasi xadiminin, milli ruhlu ziyalısının həyatına son qoyulmuşdur.

Müharibə başlayan kimi sovet imperiyası rəhbərliyi əhalini, xüsusən milli respublikalarda yaşayan xalqları düşmənə qarşı səfərbər etmək, təsərrüfatı müharibənin tələbləri əsasında yenidən qurmaq üçün mövcud inzibati-amirlik üsul-idarəsini daha da sərtləşdirdi. İdeoloji iş sahəsində də qarşıda duran vəzifələr dəyişdi. SSRİ XKC və ÜİK(b) P MK-nın 29 iyun 1941-ci il tarixli direktivində deyilirdi: “Bu hücumun məqsədi sovet quruluşunu məhv etmək, sovet torpaqlarını işğal etmək, Sovet İttifaqı xalqlarının birliyini parçalamaq və dağıtmaq, ölkəni qarət etməkdir. Faşist Almaniyası ilə cəlb olunduğumuz müharibədə sovet dövlətinin olum və ya ölüm məsələsi həll olunur” [3, s.413].

1941-ci il iyunun 30-da ölkədə bütün hakimiyyət Dövlət Müdafiə Komitəsinin, onun sədri İ.V.Stalinin əlində cəmləşdirildi. Bir ay sonra Arxa cəbhə Baş İdarəsi yaradıldı. Siyasi və ideoloji təbliğat orqanları yenidən quruldu. Sovet imperiyasının hər yerində olduğu kimi, Azərbaycanda da M.Bağırovun başçılığı ilə inzibati idarəçilik sistemi daha da möhkəmləndirildi. Bu işdə partiya komitələri, onların yeni yaradılmış sahə şöbələri, habelə MTS-lər yanındakı siyasi şöbələr, dövlət təhlükəsizlik və daxili işlər orqanları mühüm rol oynadılar.

Mədəniyyətin bütün sahələri, ictimai elmlər, ədəbiyyat və incəsənət, kütləvi informasiya

vasitələri – mətbuat, radio, kino, teatrlar, mədəni-maarif müəssisələri – kitabxanalar, klublar ideoloji işin təbliğatçılarına çevrildilər. Müharibə günlərində əsgərlərimizin ön cəbhədəki şücaəti, arxa cəbhədəki zəhmətkeşlərinin fədakarlığı Azərbaycan kütləvi informasiya vasitələrinin baş mövzusu olmuşdur. Kütlələr arasında aparılan ideya siyasi işdə arxa cəbhənin möhkəmliyini, bütün müəssisə və idarələrin, kolxoz və sovxozların normal işləməsini, cəbhə üçün metal, silah, təyyarə, tank, neft, benzin və ərzaq istehsal olunmasını təmin etmək partiya və sovet təşkilatlarının başlıca vəzifəsinə çevrildi [4, s.342].

Dövlət rəhbərlərinin, ordu sərkərdələrinin həyat və fəaliyyətindən bəhs edən kitabların, qəhrəmanlıq, mərdlik, mübarizlik mövzularında yazılmış klassik və müasir əsərlərin, folklor materiallarının nəşri ön plana çəkilmişdi.

Müharibə illərində radio verilişlərinə maraq xüsusilə artdığından bu sahədən də təbliğat vasitəsi kimi istifadə edilmişdir. Həmin illərin ən maraqlı verilişlərindən biri “Azərbaycan cəbhəyə” adlı verilişi idi. Üzeyir Hacıbəyov Azərbaycan Radio Komitəsinin musiqi verilişlərini yaxşılaşdırmaq üçün rəhbərliyə məktubla müraciət edərək “Qatar”, “Bayatı Qacar”, “Şüştər” kimi dinləyicilərə qəm-qüssə gətirən muğamların əvəzinə, “Rast”, “Mahur”, “Segah” və s. yüksək əhval-ruhiyyəli, coşqun muğamların səsləndirilməsini məsləhət görmüşdür [3, s.426].

Yeni ideoloji ehkamlar mürəkkəb olduğundan, onların dərk olunması savad, müəyyən bilik səviyyəsi tələb edirdi. Həm də Azərbaycanın böyük iqtisadi və mənəvi potensialından imperiyanın mənafeyi üçün yararlanmaq məqsədilə burada məhsuldar qüvvələri inkişaf etdirmək, müəyyən bilik və bacarıqları olan işçilər hazırlamaq lazım idi.

Respublikada ümumtəhsil məktəblərinin inkişafına böyük diqqət göstərilirdi. 1940-cı ildə ölkəmizdə 91 orta ixtisas məktəbi var idi ki, orada 17 min tələbə təhsil alırdı. Ali təhsil də xeyli inkişaf etmişdi. 1940-41-ci dərs ilində Azərbaycan SSR-də 15 minə qədər tələbənin təhsil aldığı 16 ali məktəb fəaliyyət göstərirdi.

Respublikanın xalq təsərrüfatı qısa müddətdə hərbi qaydada yenidən quruldu. İyunun 26-dan fəhlə və qulluqçular üçün iş günü 11 saata qaldırıldı, məzuniyyətlər ləğv edildi. Əmək intizamı möhkəmləndirildi. İşdən özbaşına çıxıb getməyə görə 5 ildən 8 ilə qədər azadlıqdan məhrumetmə cəzası müəyyən olundu.

İrəli sürülmüş vacib məsələlərdən biri də Sovetlər Birliyinə daxil olan xalqlar arasında dostluğun möhkəmləndirilməsi, insanların vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyəsi olmuşdur. Vətənpərvərlik tərbiyəsinin yenidən qurulmasında xalqın inqilabi ənənələrinə, qəhrəman tarixi keçmişinə müraciət ön plana keçdi [3, s.414].

Sovet hökumətinin dinimizə qarşı düşmən münasibəti II Dünya müharibəsinə qədər davam etmişdir. Müharibə başlayanda SSRİ rəhbərliyi yerlərdə ruhanilərin, din xadimlərinin yardımına ehtiyac hiss etdi. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi təşkil olundu. Mayın 25-də Qafqaz Müsəlmanları Ruhani İdarəsinin birinci qurultayı çağırıldı. İdarəyə sədr olması üçün danışıq aparılan Axund Əlizadə bu şərtləri irəli sürmüşdü: Sovet hakimiyyət sisteminin əleyhinə olmayacaq təqdirdə, din xadimlərinə sırf dini işlərlə məşğul olmağa, mərasimlər keçirməyə icazə verilsin, təqiblərə və cəzalara son qoyulsun. Bu şərt dinə azadlıq gətirməsə də, dağılmış məscid və mədrəsələri

bərpa etməsə də, repressiyalara son qoyduğu üçün Axund Əlizadəni qismən qane edirdi. Bu şərtlər həm də İslam dinindən tamamilə uzaqlaşma prosesinin qarşısını almağa, əhaliyə elementar dini qaydaları öyrətməyə imkan verirdi.

Mayın 28-də qurultayda keçirilmiş səsvermə zamanı – 24 ildən sonra Axund Ağa Əlizadə yenidən Qafqazın Şeyxülislamı seçildi. İdarənin yaradılmasına və A.Əlizadənin şeyxülislam təyin edilməsinə baxmayaraq, sovet hökuməti Qafqaz Müsəlmanları Ruhani İdarəsinə önəm vermədiyindən idarə bina ilə təmin edilmədi. Şeyxülislam özünə məxsus üçmərtəbəli evin birinci və ikinci mərtəbələrini idarəyə çevirdi.

Beləliklə, xalqın faşizmə qarşı mübarizəyə səfərbər olunmasında ruhanilər də fəal iştirak etdilər. İdarə sədri şeyxülislam Ağa Əlizadə Təzəpir məscidindəki ilk moizəsində dindarları hökumətin qanunlarına itaət göstərməyə, bu yolla "dini hifz etməyə" çağırmışdı [4, s.345].

Müharibə illərində fəaliyyətini davam etdirən şeyxülislam vətəni qorumağa gedən gənclərə xeyir-dua verir, onları Quranın altından keçirir, arxa cəbhədə çalışanları Allahın adı ilə yeni qələbələrə ruhlandırırdı.

1945-ci ildə İrana dəvət edilən A.Əlizadə Təbriz, Tehran və başqa şəhərlərdə jurnalistlərlə görüşərək onların çoxsaylı suallarını lazımi şəkildə cavablandırmış, sülhün tərəfdarı və təbliğatçısı kimi çıxış etmişdir [5, s.89].

Həmin dövrdə xüsusi maraq doğuran suallardan ən başlıcası bu idi: Azərbaycan xalqını Böyük Vətən müharibəsində SSRİ uğrunda yüksək canfəşanlıqla ön və arxa cəbhələrdə vuruşmağa vadar edən nə idi?

Mənbələr göstərir ki, faşizmə qarşı müharibəyə xalq kütlələrinin bütün təbəqələrində münasibət eyni deyildi. Güclü ideoloji təzyiqlə əhalinin bir hissəsində uzun illər rəhbərlərə, "kommunizm işinə", "dünya kommunist inqilabına" inam, habelə mexaniki icraçılıq adəti tərbiyə olunmuşdu. Beləlləri sidq ürəklə SSRİ-ni zəhmətkeşlərin xoşbəxtliyi üçün hər cür şərait yaratmağa çalışan bir ölkə hesab edir, onu qorumağı şərəf işi sayırdı. Minlərlə adam ön və arxa cəbhədə, həqiqətən, fədakarlıq göstərirdi [4, s.344].

Elm və mədəniyyət xadimlərinin bir çoxu yaxşı başa düşürdü ki, Azərbaycan xalqının azadlığı faşizmin qələbəsində deyil. Çünki bütün dünyanı istila etməyə çalışan faşist Almaniyası Azərbaycana istiqlal, hürriyyət gətirə bilməz. Həmçinin də, almanların digər iri dövlətlər kimi zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycana, xüsusilə də, Bakıya və onun neftinə göz dikməsi, bunun üçün planlar qurması hər kəsə məlum idi. Belə ki, Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı. Buna görə də, xalqımız düşünürdü ki, özünü daha böyük bəlalardan qorumaq, nəyin bahasına olursa-olsun faşizmə qalib gəlmək lazımdır.

Yüzlərlə azərbaycanlı döyüşçü, sərkərdə, komandir - Həzi Aslanov, Aslan Vəzirov, Mehdi Mahmudov, Həbibulla Hüseynov, Yaqub Quliyev, Akim Abbasov və başqaları xalqı yeni, daha dəhşətli faşizm bəlasından qurtarmaq amalı ilə parlaq hərbi rəşadət göstərmişdilər.

Azərbaycanın bütün iqtisadiyyatı və sənayesi müharibə tələblərinə uyğun qurulmuş, cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-

75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-45-ci illərdə Bakı SSRİ-yə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi [6, s.14]. "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal etməklə, "YAK-3" qırıcı təyyarəsi yığmaqla, 130-dan çox silah və hissələri hazırlamaqla Bakı ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Geoloqlardan Mirəli Qaşqay, Şamil Əzizbəyov və başqaları yeni strateji xammal mənbələri, nadir metalları əvəz edən materiallar kəşf etdilər. Mustafa Topçubaşov və onun tələbələri hərbi cərrahiyyədə yeni, səmərəli metodlar işləyib hazırladılar, minlərlə döyüşçünü həyata qaytardılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Y.H.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, V.H.İsmayılov, V.S.Əliyev, M.A.Qoreliq və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtkü yağları növləri alınmışdır: 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdır: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı" [1, s.345].

Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Məmməd Rahim, Mehdi Hüseyn, Rəsul Rza, Mirzə İbrahimov kimi şair və yazıçılar, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov kimi bəstəkarlar, habelə Əzim Əzimzadə, Salam Salamzadə, Tağı Tağıyev, Maral Rəhmanzadə kimi rəssamlar, Fuad Əbdürəhmanov, Cəlal Qaryağdı və s. xalqı qələbələrə ruhlandıran əsərlər yaratmış, ictimai elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yazmışlar.

Azərbaycanlılar arasında sovet vətənpərvərləri, habelə faşizmi bolşevizmdən daha böyük bəla hesab edib, ona qarşı mübarizəyə qoşulanlarla yanaşı, Azərbaycanın imperiya daxilində müstəmləkə olmasını, hakimiyyətin xalqdan qəsb edildiyini dərk edənlər, Almaniyanın Sovet imperiyası üzərində çalacağı qələbədə vətəninin istiqlalını görənlər də vardı. Sovet ordusunda xidmətə cəlb edilənlər arasında da belə düşünənlər az deyildi. Xalqın arasında milli ləyaqətin tapdanılmasına, ədalətsizliyə, ayrı-seçkiliyə qarşı etiraz səsini ucaldanlar get-gedə artmaqda idi. 1937-ci ilin dəhşətli repressiya terrorundan çox keçməsə də, mövcud quruluşa qarşı mübarizə məqsədi ilə xalq kütlələri, xüsusilə, gənclər qüvvələrini birləşdirməyə, öz təşkilatlarını yaratmağa çalışırdılar. Gizli antisovet, milli azadlıq uğrunda mübarizə qrupları meydana gəlirdi. Hələ 1941-ci ilin yazında sovet quruluşuna, partiyanın milli ayrı-seçkilik siyasətinə qarşı mübarizə aparmaq, müstəqil dövlət yaratmaq məqsədilə vətənpərvər qüvvələri birləşdirmək üçün tələbə Süleyman İsgəndərovun rəhbərliyi ilə anti-sovet millətçi qrup fəaliyyətə başlamışdı. Lakin bu qrup çox yaşamadı, aşkara çıxarılıb dağıdıldı, fəalları güllələndi. Bütün bunlar mübarizəniləngidə bilmədi, mübarizə davam edir, yeni gizli qruplar yaranırdı. 1943-cü ildə tələbələr arasında Gülhüseyn Abdullayev tərəfindən yaradılmış və gizli fəaliyyət göstərmiş "İldırım" təşkilatı da onlardan biri idi. Bu təşkilat kommunist partiyasının milli siyasətini, Azərbaycan dilinin sıxışdırılmasını ciddi tənqid edir, geniş təbliğat üçün imkan və vasitələr axtarırdı. Bu işdə İsmixan Rəhimov, Hacı Zeynalov, Aydın Vahidov və başqaları da fəal iştirak edirdilər.

1944-cü ildən Bakının Sabunçu fəhlə qəsəbəsində bir qrup gənc fəhlə gizli beynəlmiləl təşkilatı yaradaraq mövcud siyasi rejimi qeyri-xəlqilikdə ifşa etmək, üsyan qaldırıb onu devirmək çağırışları ilə təbliğat işi aparırdılar [4, s.353].

Azərbaycan əhalisinin sovet ordusu arxasında almanlarla əməkdaşlıq edəcəyindən ehtiyat edən SSRİ rəhbərliyi azərbaycanlıların Mərkəzi Asiya və Qazaxıstana köçürülməsi planını hazırlamışdı. Lakin respublika rəhbərliyi – M.Bağırov İ.V.Stalini inandıra bildi ki, azərbaycanlıların Azərbaycandan köçürülməsi nə iqtisadi, nə də siyasi baxımdan qələbəyə xidmət edə bilər. Əksinə, orduda vuruşan azərbaycanlı əsgərlərə pozucu təsir göstərər, respublikada neft və pambıq kimi strateji məhsulların istehsalını azaldar. 1941-ci ilin oktyabrında köçürmə məsələləri üzrə dövlət komitəsinin rəhbəri, erməni mənşəli A.Mikoyanın xüsusi səyləri ilə Bakının minalanaraq təhlükə yaranarsa, darmadağın edilməsini nəzərdə tutan xüsusi əməliyyat planı da tərtib olunmuşdu. Nəhayət, sovet ordusunun cəbhələrdəki müvəffəqiyyətləri bu planların pozulmasında əhəmiyyətli rol oynadı [4, s.346].

Azərbaycan zorla sovetləşdirildikdən sonra təqiblərdən yaxa qurtarıb siyasi mübarizəni davam etdirmək üçün xaricə üz tutmuş siyasi xadimlərin bir çoxu səhvən Almaniyanın kommunist imperiyasına son qoyacağına, Azərbaycan xalqının milli azadlığının bərpasına münasib şərait yaranacağına ümid edirdilər.

Sovet imperiyasına qarşı fəal mübarizə aparmaq üçün cəbhələrdə bəziləri qəsdən əsir düşür, almanların tərəfinə keçirdilər. Hərbi mütəxəssis, Moskvada hərbi akademiya bitirmiş mayor Əbdürrəhman Fətəlibəyli Düdənginski müharibənin əvvəllərində Pribaltikada elə ilk döyüşlərdə almanlara əsir düşmüş, onların tərəfinə keçərək azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq təşəbbüsü ilə 1941-ci ilin avqustunda A.Hitlerə müraciət etmişdi. Döyüşlərdə xüsusilə fərqlənən Fətəlibəyli Düdənginski böyük şücaət göstərən azərbaycanlı və qafqazlı türk dəstələrinə belə müraciət etmişdi: “Qardaşlarım, bu qarlı dağların ardında bizi səbirsizliklə gözləyən milyonlarca gözləri yaşlı əsir türk qardaşlarımız vardır. Onları qurtarmaq bizə namus borcumuzdur, irəli...” [7].

Faşistlər müharibənin ilk aylarında əsir aldıqları 3,6 milyon sovet, o cümlədən 150 mindən çox azərbaycanlı əsgər və zabitdən öz istilaçılıq planlarını həyata keçirmək üçün istifadə etməyi qərara almışdılar. Əsirlərlə iş aparmaq, onları almanlara sədaqətlə xidmət etməyin öz xalqlarının mənafeyinə uyğun olduğuna inandırmaq, hərbi hissələrdə birləşdirmək üçün faşist hökuməti siyasi mühacirlərin nüfuz və bacarığından istifadə etməyə çalışırdı. Bu məqsədlə Məhəmməd Əmin Rəsulzadə 1941-ci ilin payızında Xarici İşlər Nazirliyi tərəfindən Almaniyaya dəvət olundu. Hökumət nümayəndələri ilə aparılan danışıqlarda Azərbaycan tərəfinin mövqeyi xüsusi 12 maddəlik memorandumda ifadə edildi: Azərbaycanlıların alman hərbi əsir düşərgələrindən xilas edilməsi, onların əsasən mülki işlərdə işlədilməsi, eyni zamanda Azərbaycan ordusunun yaradılması, ordu başçılarının azərbaycanlılardan təyin edilməsi, azərbaycanlıların yalnız Şərq cəbhəsində vuruşması, alman qoşunlarının Azərbaycana girəcəyi zaman, ilk növbədə, milli ordunun daxil olmasına təminat verilməsi və s.

1941-ci il dekabrın 22-də Hitler başqa milli hərbi hissələrlə bərabər, Polşadakı hərbi əsir düşərgəsindəki Qafqaz müsəlmanlarından, o cümlədən azərbaycanlılardan da xüsusi hərbi

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

hissə yaradılması haqqında əmr verdi. Hərbi əsirlərin 70 faizi fiziki cəhətdən hərbi xidmətə yararlı idi. Onların bir hissəsi milli hərbi hissələrdə sovet imperiyasına qarşı vuruşmaq istəyirdilər. Stalinin əsirləri "vətən xaini" adlandırması, onların və ailələrinin təqib olunması da buna mühüm təsir göstərmişdi. Milli hərbi hissələrdəki əsgərlər arasında M.Ə.Rəsulzadənin "Üç rəngli bayraq" kitabı əldən-ələ gəzirdi. Əbdüləli bəy Əmircan (AXC-nin maliyyə naziri olub), İsrafil bəy İsrafılbəyov, Nuru Paşa (Türkiyənin keçmiş hərbi ekspedisiya korpusunun komandanı olub), Məryəm xanım Əmircan və başqaları əsgərlər arasında fəal təbliğat işi aparırdılar.

Faşistlər isə üzdə özlərini müsəlmanların, türklərin dostu kimi qələmə verirdilər. Müsəlmanlarla işi daha səmərəli qurmaq üçün məşvərətçi kimi Qüds müftisi Əl-Hüseyn Almaniyaya dəvət olunmuşdu. Hərbi hissələrə göstəriş verilmişdi ki, Qafqaz alınarkən yerli əhalinin milli və dini hisslərinə toxunacaq əməllərə yol verilməsin, Qafqazda hərbi əməliyyatlarda iştirak edən tank ordusunun komandanı olmuş general Fon Makizen nümayişkaranə şəkildə İslamı qəbul etmiş, məsciddə namaz qılmağa başlamışdı.

1942-ci ilin yayında Qafqaz müsəlmanlarından təşkil olunmuş hərbi birləşmə Qafqaz cəbhəsindəki döyüşlərdə iştirak etdi. 7 min nəfərdən çox azərbaycanlı döyüşçüsü olan "Cavad xan", "Vətən", "Boz qurd", "Aslan", "Dönməz", "Qorxmaz" və başqa hərbi hissələr Qafqazın sovet imperiyasından alınması uğrunda igidliklə vuruşurdular. Alman baş komandanlığı onların şücaətini yüksək qiymətləndirmiş, əsgər və zabitlərin bir çoxu "İnfantri Sturmabsixen" medalı ilə təltif olunmuşdu. Qafqazda bu hərbi hissələri sevinclə qarşılayanlar, onlara xeyir-dua verənlər, sovet ordusundan onlar tərəfə keçənlər də az deyildi.

Hitler hökuməti yerli xalqların yaxından köməyi olmasa, bu əraziləri ələ keçirməsin mümkünsüzlüyünü anlayaraq onlara müstəqillik vəd etməyi düşündü. Beləcə, Sovet ordusunda döyüşən müxtəlif millətlərə vətənlərinin müstəqilliyinin təmin olunacağı haqqında ümidlər verməklə təsir göstərmək, bu ordunun mənəvi gücünü sarsıtmaq olardı. Hitler bəzi güzəştlərə getməyə razı oldu. 1942-ci ilin sonlarında Berlində həmin xalqların xaricdəki nümayəndələrinin yığıncaqları keçirildi. Almaniyanın Azərbaycan barəsində öz planları vardı. Şimali və Cənubi Azərbaycan gələcəkdə yaradılacaq Almaniyadan asılı oyuncaq - "Böyük Türküstan" dövlətinin tərkibində bir əyalət olmalı idi [1, s.335].

Bütün həyatını Azərbaycanın istiqlalı uğrunda mübarizəyə həsr etmiş M.Ə.Rəsulzadə vətəninin gələcəkdə almanlardan asılı dövlətin tərkibində müstəmləkə olaraq qalacağı fikri ilə razılaşa bilməzdi və razılaşmadı. 1943-cü il avqustun əvvəllərində M.Ə.Rəsulzadə Azərbaycan legionu döyüşçüləri qarşısında çıxış edib, onlardan öz azadlığı uğrunda mübarizə aparan xalqlara qarşı istifadə olunduğunu bildirdi: "... almanlardan kömək umurdum, istiqlalımız üçün onlara bel bağlayırdım. Amma əfsus! Artıq onların iç üzü mənə aydın oldu. Müstəqil dövlətləri işğal edib, özünün köləsinə çevirən bir ölkənin köləlik altında qəhr olan bir məmləkəti azad edəcəyinə bel bağlamaq sadəlövhlükmüş". Onun belə möhkəm mövqeyi, açıq anti-faşist çıxışları Hitler hökumətini qəzəbləndirdi, göstəriş verildi ki, M.Ə.Rəsulzadə ölkəni tərk etməlidir.

SSRİ-ni xalqların süni birliyi hesab edən və ordusunun asanlıqla dağılacağına ümid bəsləyən faşistlər özləri də bu xalqları kölə vəziyyətində saxlamaq niyyətində idilər. Buna

görə də ölkədə xalqları geniş şəkildə azadlıq hərəkatına qaldırmaq, çoxmillətli sovet ordusunu mənəvi və maddi cəhətdən sarsıtmaq planları baş tutmadı.

SSRİ müharibədən qalib çıxdı. Bunun əsas səbəbi o idi ki, totalitar rejim imperiyaya birləşdirilmiş xalqları qələbə üçün səfərbər edə bilmişdi. Əhali içərisində və ordu sıralarında həqiqi sovet vətənpərvərləri, faşizmi bolşevizmdən daha böyük bəla hesab edənlər alman faşistlərinə qarşı fədakarlıqla mübarizə aparırdılar.

Böyük Vətən müharibəsi sovet xalqlarının sıx birliyinin və vətənə məhəbbətinin nümayişinə çevrilmişdi. Müharibədə qələbə milliyyətindən asılı olmayaraq, xalqların kütləvi qəhrəmanlığının məntiqi nəticəsi idi. Azərbaycan xalqı faşist işğalçılarından azad edilən rayonların əhalisinə yardım işində yüksək vətənpərvərlik və beynəlmiləlçilik nümunəsi göstərdi. 1943-cü ilin payızında həmin rayonlarda respublika yardım komitəsi və onun rayon komissiyaları yaradıldı.

Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakının müharibə illərində cəbhə üçün həm yanacaq verməsinə, həm də hərbi texnika istehsal etməsinə baxmayaraq, Tiflis və Yerevan şəhərləri I dərəcəli şəhər kimi ən yüksək dərəcə ilə təmin edildiyi halda, Bakıya "qəhrəman şəhər" statusu deyil, II və III dərəcəli status verildi.

1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra Ümummilli Lider Heydər Əliyev II Dünya müharibəsində Azərbaycanın iştirakını, müharibə veteranlarının xidmətlərini çox yüksək qiymətləndirmiş, 1994-cü ildə onlara dövlət qayğısının göstərilməsi ilə bağlı Fərman imzalamışdır. O deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər". 9 may 1997-ci ildə II Dünya müharibəsində alman faşizmi üzərində qələbənin 52-ci ildönümü münasibətilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru olmuş Həzi Aslanovun məzarı önündə söylədiyi nitqində H.Əliyev demişdir: "Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin hitlerçilərdən azad edilməsində, Qərbi Avropada genişlənən müqavimət hərəkatının uğur qazanmasında həmyerlilərimiz mühüm rol oynamışlar".

Ümummili Liderimiz xüsusilə vurğulamışdır ki,  "İkinci dünya müharibəsi, əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə, motorların, tankların, qırıcı və bombardmancı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər... O dövrdə Sovet İttifaqında hasil edilən neftin 70 faizindən çoxu respublikamızın payına düşmüşdür".

Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir. Bunu dövlət başçımızın "1941-1945-ci illər müharibəsində Qələbənin 60 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqram"ın təsdiq

edilməsi haqqında 2004-cü ildəki Sərəncamı, 1941-1945-ci illər müharibəsi veteranlarına, əlillərinə, həlak olmuş və sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının artırılması haqqında verilmiş Fərmanı, Qələbə günü münasibətilə hər il müharibə veteranlarının təbrik edilməsi və onlara verilən birdəfəlik yardımlar haqqında sərəncamları, "1941-1945-ci illər müharibəsində Qələbənin 65 illik yubileyinin qeyd edilməsi barədə" 22 iyul 2009-cu il tarixli, "1941-1945-ci illər müharibəsində Qələbənin 70 illik yubileyinin qeyd edilməsi barədə" 23 fevral 2015-ci il tarixli sərəncamları və s. kimi tədbirlər sübut edir [8]. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan xalqı və onun igid övladları müharibənin qələbə ilə başa çatdırılmasında həlledici rol oynamışlar.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı, 2010, 545 səh.
2. İsmayılov İ.Z. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı: 2000.
3. Əmrahov M.İ. İkinci Dünya müharibəsi.1939-1945. Bakı: "Mütərcim", 2010, 552 səh.
4. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı: "Təhsil", 2009, 560 səh.
5. Nurullayev F.İ. Şeyxülislamlıq zirvəsi: Şeyxülislam Allahşükür Paşazadə. Bakı: "Nurlar", 2014.
6. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: "Elm". 2008, 608 səh.
7. Yaqublu N. Azərbaycan legionerləri. Bakı: "Çıraq", 2005, 336 səh.
8. http://e-qanun.gov.az/alpidata/framework/data/5/f_5790.htm
9. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı: 1965.
10. Məmmədli H. Qafqazda İslam və şeyxülislamlar. Bakı: "MBM", 2005.

Туран Бабаш

# ПОЛИТИЧЕСКАЯ-ИДЕОЛОГИЧЕСКАЯ СРЕДА В АЗЕРБАЙДЖАНЕ ВО ВРЕМЯ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

## РЕЗЮМЕ

В статье рассматриваются участие Азербайджана во Второй мировой войне, социально-политическая, экономическая, культурная и образовательная ситуация в стране во время войны, отношение людей к войне, причины их рвения в войне, различные методы советской власти в патриотической идеологии, пропаганда. методы, неточные исторические оценки роли Азербайджанской ССР в Великой Отечественной войне и другие вопросы. В то же время в статье отражена реорганизация Духовного управления мусульман Кавказа, религии, которая преследовалась и преследовалась с военных лет и нуждалась в помощи священнослужителей.

Turan Babash

# POLITICAL-IDEOLOGICAL ENVIRONMENT IN AZERBAIJAN DURING THE SECOND WORLD WAR

## SUMMARY

The article covers Azerbaijan's participation in the Second World War, the socio-political, economic, cultural and educational situation in the country during the war, the attitude of the people to the war, the reasons for their zeal in the war, the Soviet government's various methods of patriotic ideology, propaganda. methods, inaccurate historical assessment of the role of the Azerbaijan SSR in the Great Patriotic War and other issues. At the same time, the article reflected the reorganization of the Caucasian Muslims Spiritual Administration, a religion that had been persecuted and persecuted since the war years and needed the help of clerics.

# ŞEYX XORASAN XANƏGAHI: HÜRUFİLİKLƏ BAĞLI MƏRKƏZ KİMİ

***Fəxrəddin SƏFƏRLİ,***
*AMEA-nın Naxçıvan bölməsinin*
*Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun*
*direktoru, AMEA-nın müxbir üzvü, professor,*
*hacifexreddin@yahoo.com.tr*

***AÇAR SÖZLƏR:*** *Naxçıvan, xanəgah, Şeyx Xorasan xanəgahı, Fəzlullah Nəimi, Nəsimi, hürufilik.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Нахчыван, ханегах, ханегах Шейх Хорасан, Фазлуллах Наими, Насими, хуруфизм.*

***KEY WORDS:*** *Nakhchivan, Khanagah, Khanagah of the Sheikh Khorasan, Fazlullah Naimi, Nasimi, Hurufism.*

Bir sıra qaynaqlar, o cümlədən ərazidəki indiyədək gəlib çatan müsəlman epiqrafikası abidələri təsdiq edir ki, orta əsrlərdə müxtəlif sufi təriqətlərinə mənsub xanəgahların ən çox yayıldığı və fəaliyyət göstərdiyi yerlərdən biri də Naxçıvan ərazisi olmuşdur. Burada qurulan və mənsub olduğu təriqətin ideyalarını yaymaqla məşğul olan xanəgahlardan bir qrupu hürufilik təriqətinə məxsus idi. XIV əsrin sonlarında Azərbaycanda təşəkkül tapan, İslam dini ehkamlarına, ictimai ədalətsizliyə və Teymurilər hökmranlığına qarşı yönəldilən dini-siyasi hərəkat olan hürufilik adını “hüruf” sözündən götürmüşdür. Ərəb dilindən tərcümədə hüruf “hərflər” deməkdir [1, s.300]. Hürufilik İslamın şiəlik qolunda Qurani-Kərimin hərflərindən bir sıra məna və hökmlər çıxaran təriqət olsa da, yarandığı vaxtdan etibarən istər şiə, istərsə də sünni məzhəbinin daşıyıcıları arasında çoxlu tərəfdar tapmış, ardıcıllar qazanmış, onlar vasitəsilə ədəbiyyata və digər təriqətlərə güclü təsir etmişdir.

Hürufilik təliminin banisi Şeyx Fəzlullah Cəlaləddin Nəimidir (1339-1394-cü illər). Fəzlullah Nəimi Naxçıvan şəhərindən 12 kilometr cənub-şərqdə, Araz çayının sahilində yerləşən orta əsr Azərbaycan şəhəri Astarabadda (Astabadda) dünyaya göz açmışdır. Bu səbəbdən də bəzi qaynaqlarda “Astarabadi” nisbəsi ilə təqdim olunmuşdur. O, yeniyetməlik yaşlarından ilahiyyat elmləri ilə maraqlanmış, 18 yaşında sufiliyə yönəlmişdir. Gənclik dövründə Həcc ziyarətinə gedən Fəzlullah Nəimi ziyarətdən qayıtdıqdan sonra Xarəzmdə, Təbrizdə ideyasını təbliğ etmiş, bir müddət sonra İsfahana gedərək orada öz təlimini yaymağa başlamışdır.

Uzun müddət bir mağarada yaşayaraq özünə qapanan Fəzlullah Nəimi şiələrin XII imamı Həzrət Mehdi olduğunu iddia etmişdir. Hətta onun ətrafında olan 7 müridi bu iddianı həqiqət kimi qəbul etmiş, müxtəlif ictimai təbəqələr arasında nüfuz qazanmışlar.

Fəzlullah Nəiminin dünyagörüşü, fəlsəfi təlimi və bədii yaradıcılığı Azərbaycanın sosial-fəlsəfi və bədii fikir zəminində yetişmişdir. Sosial statusuna görə sənətkar olan və

dövrünə uyğun mükəmməl təhsil alan, hərtərəfli biliklərə sahib Nəimi öz təlimini 1386-cı ildə Azərbaycanda bəyan etmişdir. Ona görə də hürufilər Azərbaycanı "Sərzəmin-e-rəstaxiz" ("Oyanış yeri") adlandırırlar. XIV əsrin sosial-siyasi vəziyyətindən rişələnmiş hürufilik təlimi Azərbaycanın sosial-fəlsəfi fikir tarixində mühüm yer tutan Məzdəkilik, Xürrəmilik və Əxilik hərəkatları ilə üzvi surətdə bağlı olmuşdur. Hürufiliyin əsas ideyaları Fəzlullah Nəiminin yazdığı "Məhəbbətnamə", "Novnamə" ("Yuxu haqqında kitab"), "Ərşnamə", "Cavidannamə" ("Cavidani-Kəbir" – Əbədilik kitab) və s. əsərlərində öz əksini tapmışdır. Hürufilik təliminin nəzəri əsaslarını özündə əks etdirən "Cavidannamə"ni hürufilər səmavi kitablarla bir sıraya qoyurdular.

Fəzlullah Nəimi belə bir fikirdə olmuşdur ki, ərəb əlifbasının bütün hərfləri müqəddəsdir və hər bir hərfin öz sirri vardır. Onun fikrincə, Allah nurdan ibarətdir, insanın bədən üzvləri isə ərəb əlifbasının hərflərinə oxşayır. Məsələn, o, əlifbanın ilk hərfi olan "əlif"i insanın ayağı, "ayn"ı isə gözü hesab edirdi. Hürufilər belə bir əqidədə idilər ki, hərflər gözəl simalarda təcəlli olunur. Bu səbəbdən də gözəl görünüşə malik olanlar müqəddəsdirlər və başqalarından daha çox sevilməyə layiqdirlər. Onların fikrincə, Allah-Təala ərşi (göyü, səmanı, asimanı) və Sidrətül-müntəhanı (Sidrətül-müntəha Allahın ərşinin kənarındadır. Bura ilahi aləmin sərhəddidir. Heç bir canlı, hətta mələklər də Sidrətül-müntəhadan o tərəfə keçə bilməz) insanın surətində gizlətmişdir və peyğəmbərin meracı öz surətinin cizgilərini başa düşmək və həmin cizgilərdə ilahi fəzli müşahidə etməklə baş vermişdir.

Hürufilərin fikrincə, Allah insanın vücudunda təcəlli edir və bu təcəlli peyğəmbərlərin, müqəddəs övliyaların vücudunda baş verir. Bu silsilə peyğəmbərdən sonra Əli ibn Əbu Talibə və ondan sonrakı imamlara keçmiş, on birinci imam Həsən ibn Əli Əsgəridən sonra Fəzlullah Nəimidə başa çatmışdır. Ona görə də o, övliyaların sonuncusu hesab olunur.

Hürufilik təlimi, onun ideyası haqqında mənbələrdə qeyd olunur ki, hürufilik Allahın təbiətdə, əşyada, sözdə, xüsusən, insanda təcəssümünü əsas götürürdü. Buna əsasən hürufilər Allahın Fəzlullah Nəimidə təcəssüm etdiyinə inanırdılar. Hürufilər deyirdilər ki, hökmdarlar və din-şəriət xadimləri ədalətsiz, qaniçən və riyakardırlar. İnsanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Fəzlullahdır. Fəzlullah Allahın timsalı, onun naibi və əvəzidir. O, ədalətsizliyi, qanlı müharibələri, zülmü, işğalçılığı, soyğunçuluğu aradan qaldıracaq, dini ehkamların mənasız qanun-qaydalarını, oruc, namaz, məscid xurafatını ləğv edəcəkdir. Göründüyü kimi, bu cərəyan fəal fəlsəfi panteizmə əsaslanır və praktik sosial-siyasi məqsəd güdürdü. Deməli, hürufilər Allahın təcəssümünü, Allah şəklində olan kamil insanları qəsbkar, zalım hökmdarlara qarşı qoyurdular. Başqa sözlə, bu dövrdə Teymurilər zülmünə qarşı geniş xalq kütlələrinin azadlıq mübarizəsinə sərbadarlar (insan azadlığı üçün başlarından keçənlər), müxtəlif ideoloji cərəyanın başçıları rəhbərlik edirdilər [2, s.356].

Hürufilik ilk dəfə Naxçıvanda, Astarabadda yayılmış, Teymurilərə qarşı mübarizədə əhəmiyyətli rol oynamışdır. Bu təlimin təşkilatlanması XIV əsrin sonlarında başlanmışdır. Fəlsəfi-dini qaynaq kimi Orta və Yaxın Şərqin fəlsəfəsindən bəhrələnmiş hürufiliyin əsas nümayəndələri şəhər ziyalıları və kəndlilər idi. Hürufilərin sırasından Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Süruri, Əbdülhəsən Əli ül-Əla kimi görkəmli şəxsiyyətlər yetişmişdir. Bu

kimi şəxsiyyətlərin timsalında hürufilik ərazi baxımından da sərhədlənməmiş və geniş bir ərazini – İranı, Azərbaycanı, Suriyanı, Osmanlı imperiyasını əhatə etmişdir. Görkəmli nümayəndələri vasitəsilə cərəyan müsəlman Şərqinin müxtəlif ölkələrində yayılmış və özünə yeni tərəfdarlar toplamışdır.

Hürufilik təlimi Teymurilərə qarşı yönəldiyindən həmin dövrdə Azərbaycanı işğal edən Əmir Teymuru narahat edirdi. Ona görə də Azərbaycanda, ümumiyyətlə, müsəlman Şərqində özündən sonrakı bütün təriqətlərə təsir göstərmiş ən böyük təriqətlərdən olan bu cərəyanın ardıcılları Teymurilər tərəfindən amansızcasına təqib olunurdular. Bunun nəticəsi olaraq Teymurun əmri ilə Fəzlullah Nəimi 1394-cü ildə Miranşah tərəfindən həbsə alınaraq, Naxçıvandakı Əlincə qalasına aparılmış və orada faciəli surətdə edam edilmişdir. Hamıya ibrət olsun və qorxsunlar deyə Fəzlullah Nəimini əl və ayaqlarından başlayaraq parça-parça edilmişdir. Bundan sonra hürufilik cərəyanının məşhur nümayəndələri təqib olunduqları üçün Azərbaycanı tərk edərək başqa ölkələrə getmişlər.

Hürufiliyin digər görkəmli nümayəndələrindən biri məşhur Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi, digəri Əbdülhəsən Əli ül-Əladır. Həmin vaxt Osmanlı imperiyasına mühacirət edən Əbdülhəsən Əli ül-Əlanın başçılığı ilə hürufilər indiki Türkiyə ərazisində fəaliyyət göstərmiş və türk dilində geniş ədəbiyyat yaratmışlar. İmadəddin Nəsimi isə bir sıra Şərq ölkələrini gəzmiş, ideyalarını yaymış, ancaq hürufiləri daim təqib edən İslam dininin amansız nümayəndələri tərəfindən tutularaq 1417-ci ildə Suriyanın Hələb şəhərində edam olunmuş, diri-diri dərisi soyulmuşdur.

Qeyd etmək lazımdır ki, Həmin vaxt Nəsiminin edamı ilə əlaqədar verilən qərara münasibət heç də birmənalı olmamışdır. Məlumatlara görə, iki dəfə keçirilən məhkəmədə Hələb qazıları və divandakı digər sözü keçənlər arasında Nəsimiyə ölüm cəzası verilməsinə dair yekdillik əldə edilməmişdir. Bu barədə düzgün məlumat verən məşhur ərəb tarixçisi Müvəffəqəddin Əhməd ibn İbrahim əl-Hələbi “Künuzüz-zəhəb, tarixi-Hələb” adlı əsərində mötəbər sənədlərə əsaslanaraq göstərir ki, dinsizliyi barədə əsassız ittihamları rədd edən Nəsimi mühakiməsi zamanı kəlmeyi-şəhadət gətiribmiş. Buna görə məhkəmədə hakimlərin əksəriyyəti şairə rəğbət bəsləmiş, onun edamına razı olmamışdılar. Buna baxmayaraq, o zaman Hələb ərazisinin tabe olduğu Misir sultanı Məmlük ibn Müəyyədin fərmanı ilə böyük şair dəhşətli bir tərzdə edam olunmuşdur [3].

Müasir Suriya tədqiqatçıları da həmin vaxt Nəsimiyə qarşı ədalətsiz qərar çıxarıldığını etiraf edirlər. Məsələn, 2012-ci ildə Hələb şəhərində keçirilən Beynəlxalq Nəsimi Forumunda şəhər müftisi, doktor Mahmud Əkkam “Nəsimi və sufilik” mövzusunda çıxış edərkən salonun birinci sırasında əyləşmiş Azərbaycan nümayəndələrinə müraciətlə deyir: “Möhtərəm qardaşlar! 591 il bundan öncə bəşər tarixində ən faciəli hadisələrdən biri baş vermiş, böyük Azərbaycan şairi və filosofu, parlaq istedad sahibi olan sufi, vəliyullah (Allahın dostu) Seyid Əli İmadəddin Nəsimi vəhşicəsinə edam olunmuşdur. Bu gün biz xəcalət çəkirik ki, bu müdhiş faciə bizim Hələb şəhərinin adı ilə bir yerdə tarixə düşmüşdür. Doğrudur, həmin faciə şəhərimizdə hökmranlıq edən əcnəbilər və onların havadarları tərəfindən törədilmişdir. Lakin Nəsiminin günahsız qanı məhz burada axıdıldığı üçün mən, müasir Hələbin dini icmasının rəhbəri kimi sizdən dönə-dönə üzr

istəyirəm! Mən çox vaxt dindaşlarım önündə xütbə oxuyanda Nəsiminin acınacaqlı taleyini də yada salır, ona Allahdan rəhmətlər diləyir, ruhuna dualar səsləndirirəm. Təsəllini onda tapıram ki, hələblilər Nəsiminin məzarını öz oğlunun qəbri kimi günümüzə qədər qorumuşdur. Tarixi, elmi mənbələrdə öz əksini tapmış məlumata görə, bu edamdan on il sonra Hələb məhkəməsi işə yenidən baxıb əvvəlki ədalətsiz hökmü ləğv etmiş, artıq tarixə qovuşan şairə, gec də olsa, bəraət vermişdir. Bununla belə, bu gün mən sizdən üzr istəməyə daxili, mənəvi ehtiyac duydum və acizanə təvəqqe edirəm ki, mənim üzrxahlığımı qəbul, edib bütün Azərbaycan xalqına çatdırasınız. Bu, tək mənim yox, bütün Hələb müsəlmanlarının xahişidir" [4].

Hürufilik təliminin çox geniş yayıldığı mərkəzlərdən biri Naxçıvan bölgəsi olmuşdur. Bunu təsdiq edən ən mühüm qaynaqlardan biri ərazidə mövcud olan sufiliklə bağlı mərkəzlər – xanəgahlardır. Belə xanəgahlardan biri Əlincəçayın sahilində fəaliyyət göstərən Şeyx Xorasan xanəgahı olmuşdur. Bu xanəgah Culfa şəhərindən 37 km şimalda, Əlincəqalanın şərq tərəfində yerləşən Xanəgah kəndindən təxminən 1 km şimal-şərqdədir. Orta əsrlər dövründə əhalinin müxtəlif təbəqələri arasında böyük təsir gücünə malik olan bu xanəgah Naxçıvandakı digər xanəgahlarla yanaşı böyük şöhrət qazanmış, Şərq ölkələrində mövcud olan iri xanəgahlarla bir sırada durmuşdur. Bu xanəgah və onun üzvləri xarici müdaxiləçilərə, xüsusilə XIV yüzilliyin sonlarında Azərbaycana yürüş edən Əmir Teymur qoşunlarına qarşı ciddi müqavimət göstərmiş, onlarla mübarizə aparmışdır [5, s.17].

Yerli əhali arasında böyük nüfuza malik olan, bu səbəbdən də sonralar ziyarətgaha çevrilən xanəgah kompleksi uzun müddət baxımsız qaldığından kompleksdəki bir sıra tikililər məhv olmuş, yarıuçuq vəziyyətə düşmüşdü. Ona görə də Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu abidə dövlət qayğısı ilə əhatə olunmuş və 2005-ci ildə yüksək səviyyədə bərpa olunmuşdur. 2016-cı ildə isə ətrafında yenidənqurma işləri aparılan xanəgah kompleksi əhalinin və muxtar respublikaya gələn qonaqların ziyarət yerinə çevrilmişdir.

Xanəgah kompleksinə daxil olan əsas türbənin içərisində bir qəbir vardır. Üstündə mənsubiyyətini bildirən kitabə olmadığı üçün qəbir haqqında sanballı elmi fikir söyləmək mümkün deyildir. Əlimizdə dəyərli elmi-tarixi faktlar olmasa da, yerli əhali arasında belə bir fikir vardır ki, həmin qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəimi dəfn edilmişdir.

Nəiminin qətlə yetirilmə tarixi haqqında müxtəlif fikirlər vardır. M.Quluzadə onun 1396-cı ildə Şirvanda [6, s.8], sovet şərqşünas-tarixçisi İ.Petruşevski 1401 və ya 1402-ci ildə Şirvanda [7], L.Hüseynzadə 1393-cü ildə Naxçıvanda [8], C.İbrahimov 1402-ci ildə Naxçıvanda [9, s.174] qətlə yetirilməsi fikrində olsalar da, bir sıra tədqiqatçılar, o cümlədən Ə.Səidzadə bu görkəmli sufi şeyxinin hicri-qəməri təqvimi ilə 6 zilqədə 796-cı ildə (2 sentyabr 1394-cü ildə) Naxçıvanda [10, s.281-282], T.Musəvi 1394-cü ildə Əlincədə [11], Z.Quluzadə 6 zilqədə 796-cı ildə Naxçıvanda [12, s.96] öldürüldüyünü yazmışdır. İran alimlərindən Məhəmmədəli Tərbiyət [13, s.246] və Səid Nəfisi [14, s.764] də Fəzlullah Nəiminin hicri-qəməri təqvimi ilə 6 zilqədə 796-cı ildə, miladi təqvimi ilə 2 sentyabr 1394-cü ildə Naxçıvanda qətlə yetirildiyi və qəbrinin Əlincədə olduğu fikrindədirlər.

Qeyd etmək lazımdır ki, orta əsr tarixçiləri və şairləri yaşadıqları dövrdə baş verən ən mühüm hadisələri öz əsərlərində əbcəd hesabı ilə – maddeyi-tarixlə (Maddeyi-tarix şərq şeirində, bədii mətnlərdə tarixi hadisələrin vaxtını ərəb hərfləri ilə göstərmək üsuludur. Maddeyi-tarixin ifadə üsulu əbcəd hesabı idi.) verirdilər. Fəzlullah Nəiminin qətlə yetirildiyi tarix haqqında ən düzgün və dolğun məlumat verən tarixi sənədlərdən biri də onun görkəmli yetirməsi İmadəddin Nəsimi tərəfindən yazılmış maddeyi-tarixdir. Fəzlullah Nəiminin ölüm tarixindən danışan müəlliflər fikir söyləyərkən istinad etdikləri mənbələri göstərmədikləri üçün İmadəddin Nəsiminin ustadının qətl tarixi haqqında yazdığı bu maddeyi-tarix çox qiymətlidir. Bu maddeyi-tarix Tehran Universitetinin Mərkəzi Kitabxanasında saxlanılan farsca divanının əlyazmasında yer almışdır. Hicri-qəməri təqvimi ilə 1087-ci ildə (1666-1667-ci illər) üzü köçürülən bu əlyazmada yer alan maddeyi-tarixi filologiya elmləri namizədi Əbülfəz Rəhimov iranlı alim Məhəmmədtəqi Daneş-Pəjuhun kataloqa köçürdüyü şeir əsasında tədqiq edərək Azərbaycan dilinə tərcümə və təhlil etmiş, 1975-ci ildə elmi dövriyyəyə daxil etmişdir [15, s.89-92]. Şeirin tərcüməsi belədir: “Şərq və Qərb Yəcucun fitnəsindən fəsadla doldu. Teymur ən qəddar zalım idi... Zülm ilə Şirvan mülkündən tələb etdilər və getdilər. Şümrün, Yezidin nütfəsindən əmələ gələn, Allahın lənətinə layiq, müşrik, məlun, it, şeytanın müridi – adı Maranşah (Miranşah) olan Əlincənin qapısında idi. Hicrətin tarixindən “v”, “s”, “z” (əbcəd hesabı ilə “v” 6-ya, “sad” 90-na, “zal” 700-ə bərabərdir: cəmi 796) il keçmişdi. De: “Allah kifayət edər”, yəni Allahın Fəzli (Fəzlullah) şəhid oldu. Qəzadan miskinlərin bayramı olan cümə günü, ərəblərin zilqədə adlandırdıqları ayın 6-sı idi” [15, s.92].

Beləliklə, f.e.n. Əbülfəz Rəhimov İmadəddin Nəsiminin yazdığı bu maddeyi-tarixi təhlil edərək və onun məlumatlarına əsaslanaraq Fəzlullah Nəiminin 2 sentyabr 1394-cü ildə Əlincədə Miranşah tərəfindən qətlə yetirilməsi ilə əlaqədar söylənilən fikirlərin daha düzgün olması qənaətinə gəlmişdir [15, s.92]. Bunu başqa bir fakt da təsdiq edir. Bu da Nəiminin qətlini icra etdirən Miranşahın həmin vaxt Əlincədə olmasıdır. Orta əsr tarixçilərindən Nizaməddin Şami və Şərafəddin Əli Yəzdinin verdikləri məlumatlardan aydın olur ki, Teymurun oğlu Miranşah həqiqətən 1394-cü ilin may ayından həmin ilin qışına qədər Əlincədə olmuşdur. Deməli, Miranşah Əlincədə olduğu vaxt, 2 sentyabr 1394-cü ildə Fəzlullah Nəiminin qətlini həyata keçirmişdir [15, s.92].

Hazırda ziyarətgaha çevrilən Şeyx Xorasan Xanəgah kompleksi yerli əhali arasında “Şıx” (“Şeyx” sözünün təhrif olunmuş formasıdır) adlandırılır. Bəzi adamlar buraya “Şeyx Xorasan” deyir. Bu barədə abidəni araşdıran tədqiqatçılar da öz əsərlərində 1məlumat vermişlər [11; 16, s.246; 17, s.120; 18, s.169; 19, s.15]. Naxçıvanı tədqiq edən və öyrənən cəmiyyətin elmi katibi M.Mirheydərzadə isə 1930-cu ildə abidədə araşdırmalar apararaq onun adını “Şeyx Mələk Xorasani” kimi qeyd etmişdir [20, s.79].

Bəzi tədqiqatçılar Xanəgah kompleksinə Xanəgah kənd sakinləri tərəfindən verilən “Şeyx Xorasan” adının “Şeyx Xurasa” (“Günəşə oxşar”, “Nurani Şeyx”) söz birləşməsindən törədiyini düşünürlər. Onlar fikirlərini Xanəgah kompleksinə daxil olan birinci türbədə dəfn edilmiş hürufilik təliminin banisi Fəzlullah Nəiminin ləqəblərindən birinin “Şex Xurasa” olması ilə əlaqələndirirlər [21]. Fikrimizcə, “Şeyx Xorasan” adını Fəzlullah Nəiminin təhsil aldığı yerin

adı ilə izah etmək olar. Belə ki, Nəimi yaşının erkən çağlarından sufizmin mərkəzinə çevrilmiş Xorasan vilayətinin Məşhəd şəhərində təhsil alaraq kamilləşmiş, sufizm ideyalarını mənimsəmiş və öz ideyalarını yaymaq üçün Azərbaycana qayıtmış, sonradan Teymurilər tərəfindən təqib olunduğundan Naxçıvana qaçmışdır. Naxçıvanda isə Miranşah tərəfindən tutularaq Əlincədə faciəli şəkildə edam edilmişdir. Tərəfdarları onun cənazəsini gizli şəkildə Əlincəqalanın yaxınlığında dəfn etmişlər. Teymurilər tərəfindən dağıdılmaması və təhqir olunmaması üçün ardıcılları qəbrin mənsubiyyətini gizli saxlamışlar. Yerli əhali isə qəbri onun gəldiyi yerin adı ilə “Xorasanlı Şeyxin qəbri”, “Xorasandan gəlmiş Şeyxin qəbri” kimi tanımışdır. Zaman keçdikcə bu ad dəyişərək “Şeyx Xorasan” şəklinə düşmüşdür. Qəbir isə Fəzlullah Nəiminin müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir.

Qəbrin yerləşdiyi türbənin giriş qapısının baş tərəfində qoyulan kitabədə türbənin əmir, hörmətli, qüdrətli, böyük alim, adil, dinin və dövlətin xoşbəxtliyi, İslam və müsəlmanların gözəlliyi, hökmdarların və sultanların qılıncı, hər iki müqəddəs yerin (Məkkə və Mədinə şəhərləri) şöhrəti, Həccə gedən zəvvarın və iki müqəddəs, mübarək məkanın dayağı Uluğ Qutluğ Lələ bəyin vəsaiti ilə Xacə Cəmaləddin tərəfindən inşa edilməsi qeyd olunsa da, onun kimin şərəfinə və ya xatirəsinə tikdirilməsi haqqında məlumat verilməmişdir [22, s.60-61].

Vaxtilə filologiya elmləri namizədi Ə.Hüseyni burada üç ədəd kitabə parçası qeydə almış və onları Bakı şəhər tarix-memarlıq abidələrinin bərpası və mühafizəsi idarəsinə təhvil vermişdir. Sonralar bu kitabə parçalarını AMEA-nın müxbir üzvü M.Nemət tədqiq etmişdir. Süls xətti ilə ərəb dilində həkk edilmiş kitabənin mətni belədir: “Hər kəs ölümü dadacaqdır! (Qurani-Kərim, XXIX – 57). Bu bağça mərhum, günahları bağışlanmış, kamil və fəzilət sahibi alim, təriqət yolu ilə gedənlərə (“salik əl-məsalik”) doğru, aşkar yol göstərən, dinin Günəşi (Şəms əd-Din), padşah … – Allah onun qəbrini nurlandırsın – çərşənbə axşamı günündə öldü…” [22, s.66].

Mətndə mərhumun adı qalmasa da, ada əlavə edilən və sufi təriqəti başçılarına, xanəgah rəhbərlərinə verilən “Şeyx” titulu, həmçinin kitabədə qeyd olunan “təriqət yolu ilə gedənlərə (salik əl-məsalik) doğru, aşkar yol göstərən” sözləri mərhumun görkəmli sufi şeyxi olduğunu söyləməyə əsas verir. Heç də hər təriqət başçısının bu mərtəbəyə yüksələ bilmədiyini, Fəzlullah Nəiminin çoxlu ardıcılı-müridi olduğunu nəzərə alsaq, başdaşının mərhum Ə.Hüseyinin ehtimal etdiyi kimi, F.Nəimiyə aid olması fikri ilə razılaşmaq mümkündür.

Səfəviyyə, bektaşiyyə və hürufilik təriqətləri şiəlik təliminə əsaslandığından, onlar Naxçıvanda birgə fəaliyyət göstərmişlər. Bektaşi və hürufi dərvişləri XV yüzillikdə səfəviyyə şeyxləri ilə sıx əlaqədə olmuş, Qızılbaş dövlətinin yaranması prosesində yaxından iştirak etmişlər. Eyni zamanda, 1501-ci ildə Səfəvilər dövləti yarandıqdan sonra “mürşidi-kamil” hesab olunan Səfəvi şahlarının şiəliyə əsaslanan digər sufi təriqətlərini, o cümlədən bektaşiləri və hürufiləri himayə və müdafiə etməsi onların birgəyaşayışını və fəaliyyətini şərtləndirən əsas amillərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, bektaşiyyə təriqəti ilə hürufilərin arasında bu sıx əlaqələrin tarixi hələ XIV əsrin sonu-XV əsrin əvvəllərinə gedib çıxır. Məlumdur ki, Fəzlullah Nəimi qətlə yetirildikdən sonra Teymurilər tərəfindən təqiblərə məruz qalan hürufilərin bir hissəsi canlarını qurtarmaq üçün Anadoluya getdi. Onlar burada möhkəmlənərək yüksək nüfuz qazandılar.

Hürufi dərvişlərinin bir çoxu qələndəriyyə təriqətinə məxsus təkkələrə (xanəgahlara) sığınaraq onlarla birlikdə öz ideyalarını yaymağa başladılar. Hətta Sultan Mehmet Fateh zamanında hürufi təlimi Osmanlı sarayına da daxil ola bildi. Hürufilər qələndərilər vasitəsilə ən yüksək bektaşi övliyaları arasına girə bildilər və təqdis olunmağa başladılar [23, s.375].

Artıq XVI-XVII əsrlərdə hürufilik bektaşiliyin əsas görüşlərindən birinə çevrildi və xalq arasında geniş yayıldı. Hürufilik bir tərəfdən bektaşilər vasitəsilə, digər tərəfdən də müstəqil şəkildə özünə ardıcıllar yetişdirməkdə davam etdi.

Beləliklə, hicri X (miladi XVI) əsrdə yaşayan bektaşi dərvişlərində hürufilik təlimi ön planda olmuşdur. Hələ XVI yüzillikdə yaranan bu isti münasibətlər sonralar Naxçıvana gələn bektaşilərlə yerli hürufilərin arasında əlaqələrin yaranmasını və onların birgə fəaliyyətini şərtləndirmişdir. Əvvəl səfəviyyə şeyxlərinin, Qızılbaş dövlətinin təşəkkülündən sonra isə "mürşidi-kamil" Səfəvi şahlarının himayəsində olan bu təriqətlər Naxçıvanda həm əvvəldən mövcud olan, həm də sonradan yaradılan bir sıra sufiliklə bağlı mərkəzlərdə – dərvişlərin ibadət, zikr, təhsil və yaşayış yeri olan xanəgahlarda səmərəli fəaliyyət göstərmişlər. Belə mərkəzlərdən biri də Əlincəçayın sol sahilində, Culfa rayonunun Xanəgah kəndi yaxınlığında indi də qalan Şeyx Xorasan xanəgahı olmuşdur. Bu xanəgahda səfəviyyə təriqəti, Səfəvi şahları tərəfindən xüsusi diqqət göstərilən və himayə edilən bektaşilər və hürufilər Səfəvi dərvişləri ilə bir yerdə yaşamış və Səfəvi dövlətinə xidmət edərək onların ideyasını yaymışlar.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. S.Əliyarlının redaktorluğu ilə. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 872 s.
2. Azərbaycan tarixi. Akademik Z.Bünyadov və t.e.d. Y.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 688 s.
3. http://modern.az/az/news/51107#gsc.tab=0
4. http://elkhan-suleymanov.az/az/2012/04/14/seyed-399le-emad399dden-n399seme-yuervane-1369-1417/
5. Nemətova M. Sufizmin Naxçıvanda olmuş mərkəzləri haqqında // "Elm və həyat" jurnalı, 1990, № 5, s. 17-19.
6. Quluzadə M. Nəsimi. Seçilmiş əsərləri. Bakı: 1962.
7. Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Ленинград: Ленинградский Университет, 1966, 400 с.
8. Hüseynzadə L. Əlincə şahiddir. "Ədəbiyyat və incəsənət" qəzeti // 14 iyun 1969-cu il.
9. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı: 1958.
10. Сеидзаде А. Фазлуллах Неими (Астрабади). Доклады АН. Азерб. ССР, 1947, том III, № 6, с. 278-282.

11. Musəvi T. Ustadın vətəni və məzarı // "Ədəbiyyat və incəsənət" qəzeti, 13 dekabr 1969-cu il.
12. Кулизаде З. Хурифизм и его представители в Азербайджане. Автореферат дис. докт. ист. наук. Баку: 1970, 56 с.
13. Tərbiyət M. Danişməndani-Azərbaycan. Tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli. Bakı: Azərnəşr, 1987, 464 s.
14. Nəfisi S. Tarixi-nəzm və nəsr dər İran və dər zəbani-farsi. II cild. Tehran: 1344, şəmsi.
15. Rəhimov Ə. Nəiminin öldürülməsi barədə Nəsiminin maddeyi-tarixi. Azərbaycan SSR EA məruzələri, 1975, XXXI cild, № 1, s. 89-92.
16. Алекперов А.К. Поездка в Зангезур и Нах.край / Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960, с. 243-249.
17. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XX вв. и его место в архитектуре Переднего Востока. Москва: Наука, 1966, 558 с.
18. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана. Эпохи Низами / Архитектура Азербайджана. Эпохи Низами. Москва-Баку: 1947, с. 369-390
19. Керимзаде С.Д. Надписи памятников архитектуры Азербайджане XI-XIV вв. Автореферат дис. канд. ист. наук. Баку: 1970, 37 с.
20. Mirheydərzadə M. Əbrəqunus dairəsi məşhur Əlincəçay sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi // "Azərbaycanı öyrənmə yolu", Bakı, 1930, № 4-5, s. 78-80.
21. Ciddi H., Seyfəddini M. Tarixi abidələr və tarixi şəxsiyyətlər // "Ədəbiyyat və incəsənət" qəzeti, 17.08. 1984-cü il.
22. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI-Yeni Nəşrlər Evi, 2001, 216 с.
23. İslam ansiklopedisi. Cild 5. İstanbul: Türkiye Diyanet Vakfı, 1992, 559 s.

Фахреддин Сафарли

# ХАНЕГАХ ШЕЙХ ХОРАСАН КАК ЦЕНТР СВЯЗАННЫЙ С ХУРУФИЗМОМ

## АННОТАЦИЯ

В статье рассказывается о центре, возникшем в Нахчыване в связи с хуруфизмом – Алинджечайском Ханегахе. Отмечается, что территория Нахчывана в средние века была одним из мест распространения и деятельности ханегахов, связанных с суфийской сектой. Одним из таких центров суфизма является ханегах, расположенный на востоке от деревни Ханегах Джулфинского района. После убийства основоположника хуруфизма Фазлуллаха Наими в 1394-м году в Алиндже, его сторонники похоронили его в этом ханегахе, превратили его могилу в центр паломничества, а ханегах стал для них местом жительства, молебна, поминания и образования. Опекаемые сефевидскими шахами хуруфиты действовали здесь вместе с бекташитскими и сефевидскими дервишами.

Fakhraddin Safarli

# THE KHANAGAH OF SHEIKH KHORASAN: AS A HURUFISM REALATED CENTER

## ABSTRACT

The article deals with the center of the Hurufism in Nakhchivan - the Alinjachay Khanagah. It is noted that Nakhchivan was one of the places where various khanagahs of different Sufi sects were widely spread and functioned in the middle ages. One of such Sufi centers is the khanagah, which is located in the east of the Khanagah village of Julfa region. After assassination of Fazlullah Naimi, founder of hurufism, in Alinja in 1394, his disciples buried him in this khanagah, converted his grave into a sanctuary, and then turned their khanagah into a place of residence, worship, remembrance and education center. The Hurufies, protected by the Safavi kings, worked here with Bektashi and Safavi dervishes.

# ƏZİZTƏPƏNİN TORPAQ QƏBİRLƏRİ

***(Qazax rayonunun Qazaxbəyli kəndində 2019-cu ildə aparılmış arxeoloji xilasetmə işləri)***

**Şamil NƏCƏFOV,**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent,*
*shamil_necefov@mail.ru*

**Dmitriy KİRİÇENKO,**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent,*
*dmakirichenko@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Qazax, Əziztəpə, Tunc dövrü, Orta Kür hövzəsi, yaşayış yeri, qəbir abidələri.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Казах, Азизтепе, период бронзы, бассейн Средней Куры, поселения, погребальные памятники.*
***KEY WORDS:*** *Gazakh, Aziztepe, Bronze Age, Middle Kura basin, settlement, burial monuments.*

***Giris.*** Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsi layihəsi ilə bağlı yeni yol oxu boyunca arxeoloji kəşfiyyat və tədqiqat işləri aparılmışdır. Yeni tikinti sahələrinin arxeoloji tədqiqi proqramına əsasən aparılan arxeoloji tədqiqatlar Qazax arxeoloji ekspedisiyası tərəfindən (t.ü.f.d. Ş.N.Nəcəfovun rəhbərliyi ilə) 20 fevral-15 mart 2019-cu ildə həyata keçirilmişdir.

Yeni yol dəhlizi Kür çayı vadisi boyunca uzanır və arxeoloji baxımdan həssas bir sahədən keçir. Bölgə Paleolit dövründən başlayaraq Son Orta əsrlərə kimi arxeoloji-tarixi və memarlıq abidələri ilə zəngindir. Yol dəhlizi arxeoloji abidələrin sıx cəmləşdiyi Qanlı Qobu, Cəyirçay, Zəyəmçay, Əsrikçay, Tovuzçay, Həsənsu, Ağstafaçay hövzələrini kəsərək keçir [1, s.6].

Yeni yol oxu, eyni zamanda məlum abidələrin çox yaxınlığından keçir. Bunlardan Qazax rayonu ərazisində Ocaqtəpə, Qanlı Töyrə, Mollamey təpəsi kimi böyük yaşayış yerlərinin, Tovuz rayonu ərazisində Bozalqanlı yaşayış yerinin, Ağstafa rayonu ərazisində Ağalıqtəpə yaşayış yerlərinin adını çəkə bilərik.

Arxeoloji kəşfiyyat işləri zamanı bir neçə az əhəmiyyətli arxeoloji risk zonası və yeni yol dəhlizinin üzərinə düşən bir abidə - Qazax rayonunun Qazaxbəyli kəndi ərazisindəki Əziztəpə abidəsi qeydə alınmışdır [1, s.9].

Əziztəpədə arxeoloji tədqiqatlar. Əziztəpə yaşayış yeri (inv. 5848) Qazax rayonunun

Qazaxbəyli kəndi ərazisində, Bakı-Tiflis magistral yolunun sağ tərəfində, kənddən 450-500 metr şərqdə, N41°09'40.5» E45°19'34.5», N41°09'44.9» E45°19'36.7» və N41°05'41.3» E 45°15'36.9» koordinatlarında, dəniz səviyyəsindən 354 metr yüksəklikdə yerləşir *(şəkil 1)*.



*Şəkil 1. Əziztəpə abidəsinin şimaldan görünüşü*

Əziztəpə abidəsi ilk dəfə 1954-cü ildə qeydə alınmışdır. Əkin sahələrini genişləndirmək məqsədilə abidənin yerləşdiyi təpənin torpağı hamarlanıb düzəldilərkən təsadüfən qəbirlər aşkar edilmiş və arxeoloji materiallar üzə çıxarılmışdır [2, s.140]. Əraziyə ezam olunan arxeoloji ekspedisiya 1954-cü ildə S.M.Qazıyevin rəhbərliyi və C.Ə.Xəlilovun iştirakı ilə burada kiçik miqyaslı qazıntı işləri aparmış və üzə çıxarılan qəbirlərlə yanaşı, əlavə qəbirlər də qazıb tədqiq etmişlər. Arxeoloji ekspedisiya təpənin qismən dağıdılmamış mərkəzi hissəsində arxeoloji qazıntılar zamanı 7 torpaq qəbir aşkar etmişdir [2, s.141]. Sonuncu dəfə 1956-cı ildə İ.H.Nərimanov və C.Ə.Xəlilov əraziyə gələrək bəzi arxeoloji materiallar toplamışlar [3, s.30]. Həmin vaxtdan keçən yarım əsrdən çox müddət ərzində burada heç bir əsaslı arxeoloji qazıntılar aparılmamışdır.

Yerli əhəmiyyətli abidələrdən sayılan bu abidənin ərazisi təəssüf ki, onilliklər boyu əkin yeri, biçənək kimi istifadə olunur və hazırda da olunmaqdadır *(şəkil 1)*.

Abidənin yerləşdiyi alçaq maili təpəni yerli əhali bəzən "Eşşəktəpə" də adlandırır. Lakin abidənin tarixi adı Əziztəpə olmuşdur. Yerli kənd əhalisi "Eşşəktəpə" adını abidəyə sonradan vermişdir [1, s.11].

Qazax arxeoloji ekspedisiyası 01-30 may 2019-cu il tarixlərində Əziztəpə abidəsində arxeoloji qazıntıları həyata keçirmişdir. Abidənin üzərinə baxış keçirilərkən məlum olmuşdur ki, bu abidə təxminən 2,5 ha-ya yaxın sahəni əhatə edir və abidənin üzərində xeyli sayda keramika məmulatı və daş alətlərin fraqmentləri səpələnmişdir.

Məlum olmuşdur ki, Əziztəpə abidəsinin təxminən 100 metr uzunluğunda və 20 metr enində olan şimal-qərb hissəsi yeni çəkiləcək yol dəhlizinə düşür. Bu hissə abidənin yerləşdiyi

maili təpənin ətəyidir. Abidənin qalan böyük hissəsi isə mərkəzi dəhlizdən kənardadır [1, s.11].

Burada hər biri 10x10 m ölçüdə olmaqla 4 qazıntı kvadratı qoyuldu. Kvadratlar şərqdən qərbə yol oxu istiqamətində nömrələndi.

Əziztəpənin torpaq qəbirləri. Əziztəpədə 1954-1956-cı illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilən qəbirlər torpaq qəbirlərdir, insan skeleti və avadanlıqlarla müşayiət olunur. Qazılmış 7 torpaq qəbir haqqında S.M.Qazıyev və C.Ə.Xəlilovun nəşr etdirdikləri elmi məqalələrdə [2; 3] ətraflı məlumat verilmişdir. Bu məqalələrdə qeyd olunur ki, qəbirlərdə avadanlığın zəngin, orta və bəzilərində az olması bu dövrdə bərabərsizliyi göstərən amillərdəndir. Qəbirlərə qoyulmuş gil qablar çox zərif işlənmiş və yaxşı bişirilmişdir. Bu fakt isə qeyd olunan dövrdə mahir ustaların və öz dövrünə görə mükəmməl kürəxanaların olduğunu göstərir [2, s.145]. Abidənin tarixi adı ilə adlandırılmaması, tipinin tam müəyyən edilməməsi və yalnız nekropol adlandırılması, bəzi yerlərdə isə buranın Erkən Dəmir dövrünün nekropolu və Orta əsrlərin yaşayış yeri adlandırılması, həmçinin arxeoloji materialların zəif interpretasiyası və s. qeyd olunanlar həmin müəlliflərin tədqiqatlarının çatışmayan tərəfləri olsa da, bu məqalələr abidənin pasportlaşdırılması baxımından müəyyən qədər əhəmiyyətli rol oynamışdır.

Hər iki mərhələdə Əziztəpədə aparılan arxeoloji qazıntı işləri yeni tikinti sahələrinin tədqiqi proqramına uyğun olaraq aparılmış və bir növ arxeoloji xilasetmə funksiyası daşımışdır.

2019-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı az vaxt ərzində abidənin ilkin tarixi adı və koordinatları müəyyən edilmiş, yerləşdiyi ərazinin topoplanı çıxarılmış, dövrü, tipi, arxeoloji materialların təyinatı, dəfn adətləri öyrənilmiş və insan sümüklərindən analiz üçün nümunələr götürülmüşdür. Tədqiq olunmuş 5 qəbrin hamısı torpaq qəbirlər olub avadanlıqları və dəfn adətləri baxımından bir qədər fərqlidirlər [1].

*1 №-li qəbir*: Tapıldığı koordinatlar: N 41°09’43.5» E 45°19’38.7»

Müasir yer səthindən 65 sm dərinlikdə aşkarlanan torpaq qəbrin üzərində heç bir əlamət yox idi. Lakin qəbir kamerasının torpağı aydın seçilirdi. Narın qum qarışıqlı torpağı olan qəbir kamerasının ölçüləri 1,6x1,5 m idi. Qəbir qazıntı sahəsinin 3-cü kvadratına düşürdü. Kvadratın şərq divarından 1,6 m, qərb divarından isə 7 m aralı məsafədə yerləşirdi.




*Şəkil 2-3. 1 №-li qəbirdən tapılmış muncuqlar (əqiq və pasta)*

Qəbir kamerasının içindəki insan skeletinin vəziyyətindən, çətin də olsa, müəyyən etmək olurdu ki, meyit qərb-şərq istiqamətində basdırılmışdır. Skeletin sümükləri demək olar ki, tam yararsız vəziyyətdə idi [1, s.13]. Qəbirdən 3 ədəd gil qab aşkar edildi. 1-ci qab qara rəngli küpə olub tam dağılmışdır. Ölçülərini yerindəcə götürmək mümkün oldu: d (gövdə)=30 sm, h=19 sm. 2-ci gil qab isə kiçik həcmli qulplu küpə olub, yalnız hündürlüyünü müəyyən etmək mümkün oldu (10 sm). 3-cü gil qab xeyrə tiplidir. Xeyrə digər iki qabdan bir qədər aralıda yerləşirdi. O, tam dağılmış halda idi. Qəbir kamerasından daha 2 ədəd əqiq və 1 ədəd iri ölçülü pasta muncuq aşkar edildi *(şəkil 2-3).*

*2 №-li qəbir.* Tapıldığı koordinatlar: N 41°09'43.9» E 45°19'38.6»

50 sm dərinlikdə aşkar edilən qəbir kamerasının ölçüləri 1,8x1,9 m olub, 4-cü kvadratdan aşkar edildi. Qəbir kamerası kvadratın şimal divarından 40 sm aralıda yerləşirdi. Narın torpaqla doldurulmuş qəbir kamerası təmizlənərkən sümükləri tamam çürümüş vəziyyətdə olan insan skeleti aşkar edildi. Kəllə sümükləri və qabırğaların bəzisi qismən yaxşı vəziyyətdə idi. Sümüklərin torpaqda qalmış izlərindən müəyyən etmək olurdu ki, meyit qəbirdə qərb-şərq istiqamətində basdırılıb [1, s.13]. Skeletin ətrafından 2 ədəd gil qab, əqiq muncuq, 3 ədəd tunc ox ucluğu, 1 ədəd dəmir məmulat (ehtimal ki, xəncər qalığı) *(şəkil 5),* tuncdan bəzək əşyası aşkar edildi. Gil qabların hər ikisi dağılmış vəziyyətdədir. Ox ucluqları isə sallaq qanadlı olub Cənubi Qafqaz tiplidir *(şəkil 4).*




*Şəkil 4-5. Cənubi Qafqaz tipli qanadlı tunc ox ucluqları və dəmir xəncərin qalıqları (2 №-li qəbir)*

*3 №-li qəbir.* Tapıldığı koordinatlar: N 41°09'43.8» E 45°19'38.7»

60 sm dərinlikdə aşkarlanan sadə torpaq qəbir 3-cü kvadratın şimal hissəsində aşkar edildi. Üzərində heç bir yerüstü əlaməti olmayan qəbir kamerasına narın torpaq tökülmüşdü. Qəbir kamerasının ölçüləri 2,5x1,9 m idi. Qəbir kamerasında yarımdağılmış formada insan skeleti aşkar edildi. Skeletin vəziyyətindən məlum olurdu ki, meyit şərq-qərb istiqamətində basdırılmışdır. Skeletin vəziyyətindən meyitin qəbrə qoyulma istiqamətini tutmaq mümkün olsa

da, onu təmizləmək və torpaqdan götürmək mümkünsüz idi. Ona görə də qismən təmizləyib ölçülərini götürdük. Salamat qalmış diş nümunələri isə analiz üçün qablaşdırıldı [1, s.14].



*Şəkil 6. 3 №-li qəbirdəki gil qabların düzülüşü*

Qəbir kamerasının şərq küncündəki insan kəlləsinin ətrafından mavi, ağ və yaşıl rəngli pasta muncuqlar aşkar edildi. Bundan əlavə, qəbir kamerasında 2 ədəd dəmir xəncər, 9 ədəd gil qab tapıldı *(şəkil 6)*. Gil qablar qazan, boşqab, parç *(şəkil 7),* 2 küpə, vaza *(şəkil 8),* bardaq *(şəkil 9),* 2 ədəd xeyrə tipli gil qablardan ibarət idi. Dəmir xəncərlər eyni uzunluqda (23 sm) olub, eyni formada idilər.




*Şəkil 7. Parç*




*Şəkil 8. Vaza tipli gil qab*



*Şəkil 9. Bardaq (3 №-li qəbir)*

*4 №-li qəbir.* Tapıldığı koordinatlar: N 41°09'44.0» E 45°19'38.5»

Bu qəbir qazıntı sahəsinin 4-cü kvadratına düşürdü. Torpaq qəbir yer səthindən 65 sm dərinlikdə aşkarlandı. Qəbir kamerasında insan skeleti aşkar edilmədi. Ehtimal ki, skelet ya tamamilə çürümüş, ya da əkin işləri zamanı texnika tərəfindən məhv olunmuşdur. Qəbir kamerasının ölçüləri 80x60 sm idi. Qəbir kamerasında yalnız iki ədəd gil qab aşkar edildi. Onlardan biri kiçik həcmli dopu, digəri isə parç idi *(şəkil 10-11)*. Qabların hər ikisi yarımdağılmış halda olsa da, yerindəcə ölçülərini götürmək mümkün oldu [1, s.14].







*Şəkil 10-11. Gil qablar (4 №-li qəbir)*

*5 №-li qəbir.* Tapıldığı koordinatlar: N 41°09'44.0» E 45°19'38.6»

Torpaq qəbir 65 sm dərinlikdən aşkar edildi. Qəbir 4-cü kvadratdan tapıldı. Qəbir kamerasının torpağı ətrafın gilli bərkimiş torpağından seçilirdi. Qəbir kamerası 1,7x2 m olub, zəngin deyildi. Kamerada aşkarlanan insan skeletinin sümükləri xaotik vəziyyətdə idi. Burada parçalanaraq dəfn etmə ayininin izləri müşahidə olunurdu *(şəkil 12)*. Kəllə üzüstə torpaqda qalmış, onurğa sümükləri dağılmış, çanaq və bud sümükləri kəllənin yanından tapılmışdı [1, s.14-15]. Alt çənə yox idi. Çiyin sümükləri təmizlənən zaman bir ədəd dəmir ox ucluğu tapıldı. Ehtimal etmək olardı ki, bu, döyüşçü olmuş, hərbi əməliyyat zamanı çiynindən oxla yaralanmış və yerində çabalayaraq ölmüşdür. Bir müddət sonra onun meyiti tapılmış və elə bu vəziyyətdə də basdırılmışdır. Qəbir kamerasında yalnız bir ədəd xeyrə tipli gil qab aşkar edildi.



*Şəkil 12. İnsan skeletinin qalıqları (5 №-li qəbir)*

***Qəbir avadanlığı.*** Qəbirlərdən əldə edilən arxeoloji materialların əksəriyyəti dağınıq haldadır. Bunun səbəbi isə onilliklər boyu sahənin texnika vasitəsilə əkilməsi və təpənin üst hissəsinin qaşınması zamanı dərinliyini bir az da itirən qəbirlərin avadanlıqlarının basılaraq dağılması olmuşdur. Bütöv qablara nisbətdə müxtəlif təyinatlı və məzmunlu gil qablara məxsus fraqmentlər daha çox aşkar edilmişdir. Fraqmentlərin böyük hissəsi gil qabların ağız, çiyin, oturacaq, gövdə hissələrindən ibarət idi. Gil qabların əksəriyyəti təmiz tərkibli olub, heç bir qarışığa malik olmayan gildən bişirilmişdir. Sabit temperaturda bişirildikləri üçün keyfiyyətli qalmışlar. Daha çox xeyrə, küpə, bardaq, dopu, parç, qazan tipli gil qabların hissələri tapılmışdır. Onlar qara və boz rəngdə olub yaxşı cilalanmışdır. Hamısının üzərində boya izlərinə də rast gəlinir. Qulpların əksəriyyəti bardaq tipli gil qablara aiddir.

Bütöv halda aşkar edilən keramika nümunələri içərisində küpələr ən çox tapılan keramika nümunələridir. Onların gil tərkibi təmiz olub, sabit temperatur rejimində bişirilmişdir. Nazik divarlı (0,5-1 sm) küpələrin xarici səthi yaxşı cilalanmış, hamarlanmışdır. Əsasən şargövdəlidir. Ağız kənarları xaricə azacıq çıxıntılı olub, boğaz hissəsi kiçikdir. Bəzi küpələrin üzəri cilalandıqdan sonra qara boya ilə boyanmışdır. Nadir hallarda onların üzərində his və yanıq qatına rast gəlinir. Küpələrin üzərində zəngin naxış elementinə rast gəlinir. Belə ki, əksər küpələrin çiyin hissəsindən batıq kanalvari (2 və ya 3) naxış verilib. Ağızdan çiyinə qədər isə günəş şüaları formasında və yaxud dalğavari formada şaquli və üfüqi formada naxışlar vardır. Tədqiqatçıların fikrincə, daha çox süd və süd məhsullarının saxlanılmasında istifadə edilən küpələrə Azərbaycanın qərb bölgəsində – Mingəçevirdə [4], Tovuzçay, Şəmkirçay və Zəyəm çayları hövzələrində [5, s.65-67; 6; 7; 8; 9] geniş rast gəlinir.

Qazanların hamısının üzərini qara his qatı örtmüşdür. Gil tərkibində narın qum və kiçik çınqıl qarışığı olan qazanlar uzun müddət məişətdə istifadə olunmuş və ocaq üstündə yemək bişirilməsi səbəbindən keyfiyyətsiz hala düşmüş, sonra isə qəbirlərə qoyulmuşdur. Qazanlar quruluşuna görə geniş ağızlı və şarvari gövdəyə malik olmuşdur. Divarları oturacaq və gövdə hissədə qalın olub ağıza doğru getdikcə nazikləşir [1, s.12].

Bardaqlar boz, tünd boz və qonur rəngdə olub mətbəx-məişət qabları içərisində ən keyfiyyətli hazırlanmış qablardır *(şəkil 9).* Onların gil tərkibi təmizdir. Keyfiyyətli hazırlanmış və sabit ocaq temperaturunda bişirilmişlər. Bəzi bardaqların səthi sığallanmış və hamar olduğu halda daxili səthi qopuqlarla müşayiət olunur. Bu da yəqin ki, onun içində saxlanan mayenin tipindən asılı olmuşdur.

Kasaların və camların gil tərkibi qarışıq olsa da, təmiz tərkiblilərə də rast gəlinir. Belə kasa və camlar adətən qonur və açıq-qırmızı rəngdə olmaları ilə seçilirlər.

Qəbir avadanlığı içərisində sayına görə əsas yerlərdən birini də xeyrələr təşkil edir. Xeyrələr ən çox qara və qonur rəngdə olub, yaxşı hazırlanmış və təmiz gil tərkibə malikdirlər. Xeyrələrin hamısı dulus çarxında hazırlanmış və sabit od temperaturunda bişirilmişlər. Onların sadələrinin səthi cilalanmış və üzəri cilalanaraq sığallanmışdır. Belə xeyrələrin ağız kənarı da sadə olub, düzdür və nə daxilə, nə də xaricə əyintilidir. Yalnız daxili səthində mərkəzə doğru günəş şüaları formasında cızma və boyalı naxışlı şüa təsvirləri verilmişdir. Ağız kənarları nisbətən mürəkkəb olan xeyrələr əsasən boz rənglidir. Belə xeyrələrin ağzı daxilə nisbətən meylli olub, xaricə isə bəzən

köbəli çıxıntılıdır. Bu cür xeyrələrin oxşarlarına Şəmkirçay və Gəncəçay hövzələrində [10, s.88-89; 4, s.53-62], Qobustanda [5], Quşçu qəbiristanında [2; 3] o cümlədən Sarıtəpədə [3], Bozalqanlı yaşayış yerində [7, s.95], Sarvantəpədə [11, s.276; 12, s.73; 13, s.74-75], Tovuzçay nekropolunda [6, s.440-441], Mingəçevirdə [4, s.53-62] aparılan arxeoloji qazıntılarda geniş rast gəlinmişdir.

Qəbirlərə qoyulmuş silahlar – xəncər *(şəkil 5)*, qılınc, cida və ox ucluqları *(şəkil 4)* tunc və dəmirdəndir. Bəzək əşyalarından bilərziklər, döş və boyun bəzəkləri, kəmər, düymə və s. tuncdan hazırlanmışdır. Muncuqlar isə əsasən əqiq *(şəkil 2)*, pasta *(şəkil 3)* və yaşmadan olub, çox zərif hazırlanmış və ustalıqla deşilmişdir. İy başlıqları (əyircəklər) sümükdəndir.

Əziztəpədə S.M.Qazıyev tərəfindən qazılmış 5 №-li qəbirdən maraqlı tapıntı –dəmir qılınc aşkar edilmişdir [2, s.146-147; 3, s.31, 33-34]. Qəbir kamerasında insan skeleti şimal-qərbdən cənub-şərqə sağ böyrü üstə dizdən bükülü, sol əli üzünə qarşı qaldırılmış, sağ əli isə qılıncın dəstəsinə tərəf istiqamətlənmiş halda aşkar edildi. Dəmir qılıncın uzunluğu 76 sm olub, uc hissəsi tuncdan hazırlanmış, yuxarı hissəsi isə ağac və göndən hazırlandığı üçün çürümüşdür. Qılıncın dəstə hissəsində qalmış mıxlar onu göstərir ki, dəstə ağac və ya sümükdən hazırlanmışdır. Skeletin bel hissəsində kənarları kəsmə xətlərlə bəzədilmiş tunc kəmər tapıldı. Kəmərin yanında uzunluğu 18 sm olan tunc xəncər vardı. Skeletin sol qolu altında isə dəmirdən hazırlanmış cida ucu vardı. Qalıqlara əsasən demək olar ki, cida ucu tıxaclı və gödək olmuşdur. Ehtimal ki, bu qəbirdə döyüşçü dəfn edilmiş və onun kəmərindən qılınc və xəncər asılmış, yanına isə cida qoyulmuşdu. S.M.Qazıyevə görə, enli kəmərlərin döyüşçülərə aid olması ehtimal edilir [2, s.147]. Enli kəmərlər insanın bel və qarın nayihəsini zərbədən mühafizə edir, xəncər və qılıncı asmaq üçün imkan yaradır. Əlbəyaxa və yaxın məsafəli döyüşlər zamanı da kəmərlər əvəzsiz əhəmiyyətə malikdirlər. Lakin C.Ə.Xəlilov qeyd edir ki, qəbirdən tapılmış qılınc qayış vasitəsilə çarpaz surətdə çiyinə keçirilərək sol tərəfdə daşınılmışdır [3, s.33].

Belə qılınclar tək-tək əldə edilsə də, çox geniş əraziyə yayılmışdır. Azərbaycan ərazisində geniş rast gəlinmələrinə əsasən, onların yerli əhali arasında geniş yayılması qənaətinə gəlmək olar [14].

Dağılmış qəbirlərin birindən paz formalı yastı kərkiyə oxşar, yuxarı hissəsində dörd çıxığı olan tunc balta tapılmışdır. S.M.Qazıyev belə baltaların yer qazımaq üçün işlədildiyini yazır [2, s.149].

Uzaqvuran silahlardan sayılan ox ucluqları yaxşı vəziyyətdə qalmışdır *(şəkil 4)*. Onlar Cənubi Qafqaz tiplidir. H.F.Cəfərov yazır ki, bu tip ox ucluqlarının ilkin vətəninin Azərbaycan olması gümanı əsassız deyil [15, s.200]. Həmin tip ucluqların həm Cənubi Qafqaz regionunda, həm də Ön Asiya ölkələrinə yayılmasında Azərbaycan mühüm rol oynamışdır [16, s.55-57]. H.F.Cəfərov eyni sözləri şəbəkəli başlıqlı xəncərlərə də aid edir [17, s.164].

Aşkar edilən dəmir xəncərlərin *(şəkil 5)* oxşarları Dağlıq Qarabağdan [14, s.40-54] və qazıntısı son illərdə aparılmış I və II Tovuzçay nekropollarından [1; 6, s.439-441; 9; 18, s.88-89] da tapılmışdır.

Əziztəpədə aşkarlanan uşaq və gənclərə məxsus olan qəbirlər daha zəngindir [2, s.149]. Bu onu göstərir ki, yeniyetmə və gənclərin dəfni zamanı qəbir avadanlığına ciddi fikir verilirmiş.

***Dəfn adətləri.*** Qəbirlərdə maraqlı dəfn adətləri izlənilmişdir. Təpədə ölülər bəzən

qəbrə qoyulmuş avadanlığın üstündə dəfn edilmişlər. Yəni əvvəlcə qəbrə qab-qacaq və silah nümunələri qoyulmuş, sonra isə meyiti qab-qacağın üstünə qoymuşlar. Buna görə də təpənin torpağı qaşınarkən birinci növbədə skeletlər dağıdılmışdır. Belə qəbirlərə I və II Tovuzçay [6; 18] və Zəyəmçay [5; 9] nekropollarında da rast gəlinmişdir. Əksər qəbirlərdə dəfn qaydasına diqqət yetirsək, görərik ki, kişilər sağ, qadınlar isə sol böyrü üstə basdırılmışdır. Lakin vahid istiqamət müəyyən edilməmişdir. Başı şimal-qərbə, şimal-şərqə, cənub-şərqə basdırılmış qəbirlərə də rast gəlinmişdir. Qəbirlərin ən sıx yerləşdiyi sahə Əziztəpənin mərkəzi olmuşdur. Ölülər dizdən sıx bükülü, əlləri üzünə qarşı qaldırılmış halda, sağ və sol böyrü üstə, ərzaq, silah, bəzək əşyaları və s. ilə dəfn edilmişlər.

Əziztəpədə meyitləri sadə torpaq qəbirlərdə dəfn etmişlər. Qəbirlər uzunsov düzbucaq şəklində qazılmışdır. Qəbir kameralarının torpağı ətrafın torpağından kəskin surətdə fərqlənirdi. Kameraların divarlarında qalmış alət izlərindən məlum olur ki, qəbirləri ensiz ağızlı alətlə qazmışlar. 4-cü kvadratda (1954-cü il qazıntıları) aşkar edilmiş skeletlərin istiqamətləri (cənub-qərbdən şimal-şərqə) eyni olub, onlardan biri sağ, o birisi isə sol böyrü üstə basdırılmışdır. Sağ böyrü üstə aşkar edilmiş skeletin qadına aid olması ehtimal edilir. Kişi qəbrindən üç ədəd, qadın qəbrindən isə iki ədəd qab çıxmışdır.

Əziztəpədə qəbirlərin bəzilərində skeletlərə yarımçürümüş halda rast gəlinsə də, onların izlərindən dəfn istiqamətini müəyyən etmək mümkün olur.

***Yekun elmi nəticələr və qazıntıların əhəmiyyəti.*** Maddi mədəniyyət abidələrinin qorunması haqqında müvafiq qanunu əsas tutaraq yerli əhəmiyyətli və dövlət inventar nömrəli (inv. 5848) Əziztəpə abidəsinin yol dəhlizinə düşən hissəsində qazıntı işləri aparılmışdır. Verilən vaxt müqabilində burada təxirəsalınmadan arxeoloji işlər aparılmış və elmi nəticələr əldə edilmişdir.

Abidənin üst hündür hissəsi 1954-cü ildə tamamilə qaşınıb götürülmüş və əkin yeri kimi istifadə olunmaqdan ötrü maili alçaq təpəlik formasına salınmışdır. Abidə yaşayış yeri tipindədir. Bunu tapılan arxeoloji materiallar da sübut edir. Lakin maraq doğuran budur ki, qazıntı üçün seçdiyimiz sahədə apardığımız tədqiqatlar onu sübut edir ki, qazılan səviyyə nə vaxtsa qalın və zəngin mədəni təbəqə yatımına malik olan abidənin ən son materik hissəsinə yaxın olan sahəsidir.

Müəyyən edilmişdir ki, bu təpədə həm yaşayış yeri, həm də Erkən Dəmir dövrünün qəbir abidələri vardır.

Abidənin ərazisində qazıntı işləri aparıldıqdan sonra belə bir nəticəyə gəlinmişdir ki, bu ərazi e.ə. II minilliyin II yarısı-I minilliyin əvvəllərinə aid olan yaşayış yeridir. Yaşayış yerinin mədəni təbəqə yatımı onilliklər boyu əkilmiş və dağıdılmışdır. Hazırda qalan mədəni təbəqə yatımı arxeoloji materiallar baxımından çox zəifdir. Burada yaşayış kəsildikdən sonra yaxınlıqdakı yaşayış yerlərində məskən salmış qədim insanlar öz ölülərini məhz bu təpədə dəfn etmişlər. Qəbirlər avadanlıqları və dəfn adətləri baxımından e.ə. X-VII əsrlərə aiddir. Bu artefaktlar Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin son mərhələsi üçün xarakterikdir.

Əziztəpədə aparılan arxeoloji tədqiqatlar, eyni zamanda bölgənin Tunc və Erkən Dəmir dövrlərində əhali məskunlaşması problemini öyrənmək baxımından da mühüm əhəmiyyətə malikdir.

# ƏDƏBİYYAT


1. Nəcəfov Ş.N. Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsi layihəsi ilə bağlı yeni yol oxu boyunca aparılmış arxeoloji kəşfiyyat işlərinin və yeni yol dəhlizindəki Əziztəpə (Eşşəktəpə) abidəsində aparılmış arxeoloji qazıntıların yekunlarına dair geniş elmi hesabat. AMEA, AEİ, YTSAT sektoru, 2019, 26 s.
2. Qazıyev S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957-ci il ) // AMM, IV cild, Bakı,1962, s.140-170.
3. Xəlilov C.Ə. Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qədim qəbiristanlıq haqqında // Azərb. SSR EA-nın Xəbərləri, ictimai elmlər seriyası, № 2, 1958, s.29-40.
4. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.). Баку: Элм, 1989, 126 с.
5. Müseyibli N.Ə., Nəcəfov Ş.N. Zəyəmçay nekropolu. Bakı: Elm və təhsil, 2019, 424 s.
6. Əsədov V.A., Ağayev Q.H. Tovuzçay nekropolu // Elmi axtarışlar, XIV toplu. Bakı: Səda, 2005, s.438-441.
7. Nəcəfov Ş.N., Hüseynov M.M. Bozalqanlı yaşayış yerinin arxeoloji tədqiqinin ilk yekunları // Azərbaycan arxeologiyası, 15 cild, № 1, 2012, s.92-101.
8. Nərimanov İ.H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar // Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı: 1963.
9. Najafov Sh.N. The new archaeological investigations in the territory of Gazakh region // Azerbaijan & Azerbaijanis.Baku, Nurlan, № 3-4 Vol. 107-108, 2010, s.72-79.
10. Наджафов Ш.Н. Некоторые проблемы и результаты исследований поселений эпохи бронзы на территории Гянджа-Казахского региона / «Актуальная археология: археологические открытия и современные методы исследования» (Тезисы научной конференции молодых ученых Санкт-Петербурга), РАН ИИМК, Санкт-Петербург 22-23 апреля 2013 г. СПБ, 2013, Изд-во РАН, с. 88-89.
11. Наджафов Ш.Н. Археологическое исследование древнего поселения Сарвантепе в 2009-2014 гг. / «Актуальная археология 4: комплексные исследования в археологии» (Тезисы межд. научной конференции молодых ученых), РАН ИИМК, Санкт-Петербург, 2-5 апреля 2018 г., Изд-во «Невская книжная типография», с. 275-278.
12. Nəcəfov Ş.N. Qazax və Ağstafa rayonları ərazisində qədim mədəniyyət izləri (2009-2011-ci illərdə Qazax və Ağstafa rayonları ərazisindəki tunc dövrü yaşayış yerlərində aparılmış arxeoloji qazıntıların nəticələri əsasında) // Geostrategiya (aylıq ictimai-siyasi, elmi-populyar jurnal), № 02 (08) mart-aprel 2012, Azərbaycan, s.70-74.
13. Nəcəfov Ş.N. Tunc dövründə sosial-iqtisadi inkişaf və əhali məskunlaşması problemi (Gəncə-Qazax bölgəsi abidələri üzrə etnoarxeoloji tədqiqat) // Azərbaycan arxeologiyası, cild 22, № 1, 2019, Xəzər Universiteti, s.69-77.
14. Джафарова Д.Г. Исследование оружия Карабахской группы Ходжалы-Кедабекской культуры // Azərbaycan arxeologiyası, № 1-2, 2008, Xəzər Universiteti, s.40-54.
15. Джафаров Г.Ф. Курган эпохи поздней бронзы в близи Сарычобана // РА, 1991, № 9, с. 84-97.

16. Ökse A.T., Görmüş A., İnal N. İlisu barajı – Salattepe 2005 yılı kurtarma kazısı // T.C. Kültür ve Turizm Bakanlığı, Kültür Varlıkları ve Müzeler Genel Müdürlüğü. 28 Kazı sonuçları toplantısı I cild, 29 mayıs-2 haziran 2006, Yayın No: 121-1, Ankara, 2007, s.51-64.
17. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
18. Данялов Я.М. О грунтовых могилах Товузчайского некрополя / Международная научная конференция / «Археология, этнология, фолклористика Кавказа». Мат. конф. Баку, Нурлар, 2005, с. 88-89.

Ш.Наджафов, Д.Кириченко

# ГРУНТОВЫЕ ПОГРЕБЕНИЯ АЗИЗТЕПЕ (спасательные археологические работы близ села Казахбейли Казахского района в 2019 г.)

## РЕЗЮМЕ

Перед строительными работами, проводившимися в связи с проектом по расширению магистральной дороги Гянджа-Казах-Красный мост и в ходе этих работ в коридоре дороги были проведены археологические исследования.

Некрополь Азизтепе обнаружен на коридоре новой магистральной дороги. Археологические раскопки на некрополе проводились в мае 2019 г. Некрополь расположен близ села Казахбейли Казахского района, на небольшом холме, на высоте 354 м над уровнем моря.

За короткий срок был обследован холм и раскопано в четырех квадратах 5 могил.

Могилы были грунтовыми. Скелеты находились в скорченном положении, на правом или левом боку. Могильный инвентарь состоял из своеобразных глиняных сосудов, металлических предметов, сердоликовых бус и других вещей.

Среди инвентаря из грунтовых могил особенно было много глиняных сосудов различных типов, сделанных на гончарном круге; цвет глины серый, обжиг хороший. Керамика из этого могильника по своей форме составляет особую группу. Орнамент здесь состоит из выпуклых лепных пуговок, вдавленных точек и рельефных валиков. По своему типу керамика из грунтовых могил аналогична керамике близлежащих областей. Аналогичные памятники на территории Азербайджана и Грузии датируются, начиная с конца II тысячелетия до н.э.

Из других находок следует отметить железные кинжалы, бронзовые наконечники стрел, сердоликовые бусы, бронзовые иголки и т.д.

Основываясь на обнаруженных материалах исследований некрополь Азизтепе следует отнести примерно к X-VII вв. до н.э.

S.Najafov, D.Kirichenko

# THE GROUND BURIALS OF AZIZTEPE (Rescue archaeological works near Kazakhbeily village of Kazakh district in 2019 year)

## SUMMARY

Before the construction work carried out in connection with the project to expand the Ganja-Kazakh-Red Bridge trunk road and during these works, archaeological studies were carried out in the corridor of the road.

The Aziztepe necropolis was discovered on the corridor of a new highway. Archaeological excavations at the necropolis were carried out in May 2019. The necropolis is located near the village of Kazakhbeily of the Kazakh region, on a small hill, at an altitude of 354 m above sea level.

In a short time, a hill was surveyed and 5 graves were excavated in four squares.

The graves were unpaved. The skeletons were in a crouched position, on the right or left side. Grave equipment consisted of peculiar clay vessels, metal objects, carnelian beads and other things.

Among the equipment from soil graves there were especially many clay vessels of various types made on a potter's wheel; clay color is gray, firing is good. The ceramics from this cemetery form a special group in their form. The ornament here consists of convex stucco buttons, pressed points and embossed ridges. Ceramics from soil graves are similar in type to those of the surrounding areas. Similar monuments on the territory of Azerbaijan and Georgia date back to the end of the second millennium BC.

Other findings include iron daggers, bronze arrowheads, carnelian beads, bronze needles, etc.

Based on the discovered research materials, the Aziztepe necropolis should be attributed to approximately the X-VII centuries BC.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, “14” ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları” barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.